Varlığımız

VARLIĞIMIZ

“Elm və təhsil”
Bakı – 2014

Kitabın tərtibçiləri: **Pərvanə Məmmədli**
Baxşəli Zülfü

Redaktor: **Pərvanə Məmmədli**
fil.ü.f.dr., dosent

Kitabda Türkiyədən yazı materiallarını
Məmmədriza Heyət hazırlayıb

Varlığımız. Bakı, "Elm və təhsil", 2014, 100 səh.

Kitab doktor Cavad Heyətin ölməz xatirəsinə həsr olunur.

$\frac{4702000000}{N098 - 2014}$ ***грифли няшр***

© «Елм вя тящсил», 2014

DOKTOR CAVAD HEYƏTLƏ BAĞLI BİLGİ

Cavad Heyət 1925-ci il mayın 24-də Təbrizdə anadan olub. Atası Mirzəli Heyət zəmanəsinin tanınmış aydınlarından olub. O, məşrutiyyət inqilabının fərmanını Nəcəfdən Təbrizə və Tehrana aparan heyətin rəhbəri olduğu üçun "Heyət" adı ilə tanınmışdır. Mirzəli Heyət İranda təmiz məhkəmə başqanı və İran ədliyyəsinin qurucularından biri kimi məşrutiyyət inqilabında fəal rol oynamışdır. Cavad Heyət ilk və orta təhsilini Təbriz, Həmədan və Tehranda almışdır. Orta hərbi məktəbi bitirdikdən sonra o, Tehran Universitetinə daxil olmuş, ikinci kursdan ali təhsilini Türkiyənin İstanbul Universitetində davam etdirərək 1943–1946-cı illərdə burada tibb fakültəsində oxumuşdur. Əmək fəaliyyətinə 1946-cı ildə İstanbul Universitetində başlayan Cavad Heyət 1949-cu ilədək burada cərrahlıq klinikasında çalışmış, daha sonra ixtisasını təkmilləşdirmək üçün Paris Universitetinin cərrahlıq kafedrasında işləmişdir. O, 1952-ci ildə yüksək dərəcəli cərrah ixtisasına yiyələnərək İrana qayıtmış, 1953-cü ildən Tehranda Hidayət və Ədliyyə xəstəxanalarında cərrahlıq klinikaları quraraq onlara rəhbərlik etmişdir. Doktor Cavad Heyət İranda eksperimental cərrahiyyənin təməlini qoymuşdur. 1954-cü ildən etibarən ürək üzərində apardığı əməliyyatlar onu istedadlı cərrah kimi tanıtmışdır. 1969-cu ildə o, Tehranda ilk dəfə transplantasiya əməliyyatını uğurla həyata keçirmişdir. Bir çox cərrahi əməliyyatlar məhz onun adı ilə bağlıdır. Tibb sahəsində qazandığı nailiyyətlər

Cavad Heyətə geniş şöhrət gətirmişdir.Doktor Cavad Heyət təbabətə dair qiymətli araşdırmaların müəllifi kimi də tanınırdı. Onun kitabları tibb sahəsində yazılmış dəyərli vəsait kimi mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmişdir. Bir sıra beynəlxalq elmi forumlar və toplantılarda öz təcrübəsinə əsaslanaraq dərin məzmunlu məruzələrlə çıxış etmiş alimin 100-dən artıq məqaləsi müxtəlif tibb jurnallarında işıq üzü görmüşdür. Cavad Heyət uzun müddət cərrahlığın tədrisi və cərrahların yeni nəslinin formalaşdırılması ilə məşğul olmuşdur. Cavad Heyətin zəngin və çoxşaxəli səmərəli fəaliyyətində Azərbaycan ədəbiyyatı tarixi, türk xalqlarının keçmişi, milli folklor və eləcə də islamşünaslığa dair tədqiqatlar mühüm yer tutur. Bu əsərlərdə Azərbaycan dilinin inkişaf mərhələləri, şifahi xalq ədəbiyyatı, ədəbiyyatşünaslıq, folklor, ədəbi tənqid, publisistika və fəlsəfə tarixinin ən müxtəlif məsələlərindən əhatəli bəhs olunur. Mədəniyyətin müxtəlif problemlərinin öyrənilməsinə münasibətdə tarixi həqiqətlərdən çıxış edərək obyektivlik nümayiş etdirən alimin ədəbi simpoziumlarda və türkoloji konfranslarda çıxışları həmişə təqdirlə qarşılanmışdır.Onun tədqiqatlarında və publisistik məqalələrindəki əsas fikirlərin böyük qismi təsis etdiyi “Varlıq” jurnalında əksini tapmışdır. O, 12 il ərzində "Daneşe pezeşki" (Tibb Elmi) adlı jurnal dərc etdirmiş və yüzlərcə elmi məqalənin, cərrahiyyəyə aid uç kitabın müəllifi olmuşdur. 1979-cu il İran islam inqilabından sonra yaranan “Varlıq” dərgisində doktor Cavad Heyət, Həmid Nitqi, Məhəmmədəli Fərzanə, Həsən Məcidzadə Savalan, Kərim Məşrutəçi (Sönməz), M. Hesari, Məmmədrza Heyət, İbrahim Rəfrəf, Mənzuri Xamneyi, Səməd Sərdarniya, Qulamhüseyn Beqdeli, Əziz Möhsüni, Teymur Pirhaşimi, İsmayıl Hadi və Əlirza Sərrafi ilə birlikdə çalışıblar. Tehranda “Varlıq jurnalının təsisçi və

redaktoru Cavad Heyət ədəbiyyata və türkologiyaya aid yeddi cildl kitabın müəllifidir. O,Azərbaycan türkcəsi, fransız, ingilis, fars, Türkiyə türkcəsi və s. dilləri mükəmməl bilirdi.

Cavad Heyət — cərrah-alim, İranda ilk dəfə açıq ürək əməliyyatını (koronar şuntlama) gerçəkləşdirən, Beynəlxalq Cərrahlar Cəmiyyətinin idarə heyətinin və Paris Cərrahlar Akademiyasının üzvü, "Varlıq" dərgisinın təsisçisi, ədəbiyyat və türkologiyaya aid yeddi cildlik kitabın müəllifi, Azərbaycanın müxtəlif universitetlərinin fəxri doktoru və professoru, Türk Dil Qurumunun fəxri sədri, eləcə də İstanbul Universitetinin fəxri doktoru (həm tibb, həm də türkologiya sahəsi üzrə) idi.

Cavad Heyət 2014-cü il avqustun 12-də Bakı şəhərində dünyasını dəyişmiş və avqustun 15-də İkinci Fəxri Xiyabanda torpağa tapşırılmışdır.

Tehranda dilimiz, ədəbiyyatımız və folklorumuza aid yeddi kitabı nəşr olunmuşdur. Sonralar bunlardan beşi Bakıda, üçü Ankarada çıxmışdır. Üç yüzdən artıq elmi məqaləsi işıq üzü görmüşdür.

Tibb sahəsinə aid kitabları:

1. Tromboflebitin müalicəsi. Tehran, 1956 (farsca)
2. Ümumi cərrahlıq. Tehran, 1965 (farsca)
3. Cərrahiyyə dərsləri. Tehran, 1997 (farsca)

Ədəbiyyat, Türkologiya və fəlsəfə ilə bağlı kitabları: (Aşağıda göstərilən kitablar öncə İranda əski əlifba ilə çap olunmuşdur)

1. Azərbaycan şifahi xalq ədəbiyyatı. Azərbaycan Dövlət nəşriyyatı, Bakı, 1990

2. İki dilin müqayisəsi. Elm, Bakı, 1991

3. Azərbaycan ədəbiyyatına bir baxış. I hissə. Yazıçı, Bakı, 1993

4. Türklərin tarix və mədəniyyətinə bir baxış, Azərnəşr, Bakı, 1993

5. Ədəbiyyatşünaslıq. Elm, Bakı, 1996

6. Azərbaycan ədəbiyyatı tarixinə bir baxış. II hissə Azərbaycan Dövlət nəşriyyatı, Bakı, 1998

7. Qərb fəlsəfəsi tarixi. Bertran Rassel (Cavad heyətin təqdimində) Bakı, 2012

8. Türk dili və ləhcələrinin tarixi. II cilddə. Bakı, Təhsil, 2011

Türkiyədə çap olunan kitabları:

1. Türk dilinin üstünlüyü (hazırlayan Süzen Tokatlı)

2. Türk dili və lehcelerinin tarihi seyri (Çev. M. Öztürk)

3. Türkcə İki dilin karşılaşdırılması (Mükayisətil-lüqəteyn)Türkdili kurumu yayınları 2013. (Çev. Mürsel Öztürk) və s.

Doktor Cavad Heyətə həsr olunmuş və müxtəlif illərdə yazılmış kitablardakı yazılarda onun şəxsiyyətinə, yaradıcılığına yüksək qiymət verilib;

- ✓ *Həmid Məmmədzadə - «Varlıq»ın bel sütunu, onun canı və ruhu»,*
- ✓ *Oqtay Əfəndiyev - "Tariximizin bilicisi",*
- ✓ *Tofiq Hacıyev - «Elinin, dilinin və mədəniyyətinin Məcnunu",*
- ✓ *Şamil Qurbanov - «İmkanından artıq iş görən adam",*
- ✓ *Vaqif Aslanov - «Canlı ensiklopediya»,*

- ✓ *Kamil Vəli Nərimanoğlu - «Mədəniyyətimizin Koroğlusu»,*
- ✓ *Nurəddin Rzayev - "Mənəviyyat və mədəniyyətin zirvəsi",*
- ✓ *Vilayət Quliyev - "Millətinin önündə gedən insan",*
- ✓ *Oqtay Əfəndiyev - "Tariximizin bilicisi",*
- ✓ *Tofiq Hacıyev - "Qeyrət mülkünün sultanı",*
- ✓ *Ayhan Sunqar - "Çoxmənalı həkim",*
- ✓ *Nizami Xudiyev - "Ədəbi dilimizin təbibi", "Əvəzsiz mənbə"*
- ✓ *Əliyar Səfərli - "El ağsaqqalı"*
- ✓ *Məhəmmədəli Müsəddiq - "Varlığımızın təbibi"*
- ✓ *Aydın Hacıyev - "Daim axtarışda keçən ömür",*
- ✓ *Eynulla Mədədli - "Azərbaycan tarixinin keşiyində keçən ömür",*
- ✓ *Pərvanə Məmmədli - "Cavad Heyət fenomeni",*
- ✓ *Rza Bərahəni - "Yaxın Şərqin hikmət səsi",*
- ✓ *Bəkir Nəbiyev - "O tayı, bu tayı birləşdirən körpü",*
- ✓ *Özbək Bəyəli Qasımov - "Başımızdakı tac",*
- ✓ *Əhliman Əmiraslanov - "Vətən oğlu"*
- ✓ *Sabir Rüstəmxanlı - „Varlığımızı qoruyan“,*
- ✓ *doktor Həmid Nütqi - "Xalqının aşiqi",*
- ✓ *Şahmar Əkbərzadə - "Güvəndiyim dağ"* - deyə dəyərləndiriblər.

Cavad Heyətin şəxsiyyəti və yaradıcılığına Azərbaycan Respublikasında iki dərslikdə yer verilib. Biri orta məktəb, o biri universitet tələbələri üçün nəzərdə tutulub. Bu kitablar - Azərbaycan təhsil Nazirliyinin 5-ci sinif

üçün “Tarix” və Pərvanə Məmmədlinin “Cənubi Azərbaycan mətbuatı tarixi” (XIX,XX,XXI-yüzilliklər) kitabıdır.*

Qeyd edək ki,«Varlıq» dərgisi ötən əsrin sonlarından bu günədək bir çox lisans, yüksək lisans və doktorluq dissertasiyasının və elmi məqalənin mövzusu olmuşdur: Pərvanə Məmmədli «Varlıq» jurnalında ədəbiyyat məsələləri (doktorluq dissertasiyası, Bakı, 2000), Nəzakət İsmayılova «Varlıq» jurnalında Şimali Azərbaycan ədəbiyyatının nəşri (doktorluq dissertasiyası, Naxçıvan, 1999), Sonel Bosnalı İranda Türk varlığı və «Varlıq» dərgisi (yüksək Lisans dissertasiyası, Paris), M.Rıza Heyət «Varlıq» dərgisində dilçiliklə bağlı məqalələr (lisans dissertasiyası, Bakı, 1998) və s.

---

* 2000-ci ildən bu yana Bakı dövlət universitetinin jurnalistika fakültəsində tələbələr “Cənubi Azərbaycan mətbuat tarixi” fənni keçirilir. Bu fənnin bir qoşa saatı “Varlıq” dərgisi və onun naşiri doktor Cavad Heyətlə bağlıdır. Bu fənnin ilk çığırını salan - xüsusi proqram çap etdirib, mühazirələr hazırlayan, sonralar isə dərslik yazan Pərvanə Məmmədlidir. 2007-ci ildə Bakı Dövlət Universitetinə dəvət olunan Cavad Heyət tələbələrin görüşünə gəlmiş, onları maraqlandıran suallara cavab vermişdi. Üstəlik özü ilə bağlı tələbələrin dərsdə söylədiklərini dinləmiş, eşitdiklərindən məmnun qalmışdı.

CAVAD HEYƏTİN ÖPDÜYÜ ƏLLƏR

Rafael HÜSEYNOV
Milli Məclisin deputatı, akademik (Azərbaycan)

Həyatının 90-cı ilində böyük azərbaycanlı Cavad Heyətin Vətən və millət məhəbbəti ilə dolu ürəyi dayandı.

Ömrü boyu onun işi ürəklə olmuşdu. Nə iş görmüşdüsə, ürəklə görmüşdü və təməl peşəsi olan həkimlikdə də əsas sahəsi ürək idi.

Hələ cavan yaşlarından misilsiz bir ürək cərrahı kimi dünyada məşhurlaşmışdı. Lakin tale ona daha ali bir missiyanı – millətinin ürəyinin və xalqının ruhunun müalici olmaq vəzifəsini də həvalə edibmiş.

Belə insanların isə ürəyi heç vaxt dayana bilməz.

Sənəti ürəklərə şəfa vermək olan doktor Cavad Heyət, əslində, öz ürəyinin salamatlığının da çarəsini irəlicədən həll edibmiş.

O öz könlünü tükənməz bir enerji qaynağına – bütöv millətinin və qövmünün qəlbinə bənd etmişdi: ora güc verirdi, oradan güc alırdı.

Azərbaycan, türk dünyası naminə yaratdığı dəyəri sözə sığmaz əsərləri və əməllərində Cavad Heyətin qəlbi, əlbəttə ki, hələ bundan sonrakı çox zamanlar boyu çırpınmaqda davam edəcək.

Həssas vətənpərvər Bəxtiyar Vahabzadə dostu Cavad bəyin timsalında bir məslək, əqidə qardaşını görür, Heyətin ucalığına belə heyrətlənirdi:

...Gecə də, gündüz də hey döyüşdəsən,
Mənəvi, cismani ağrılarla sən.
Həkim nüsxələri yazdın həmişə,
Xəstə şəfa tapıb sağaldı... fəqət,
Ədib qələmiylə yazdığın nüsxə
Bir xalqın dərdinə şəfadır, əlbət!

Dünya boyu səpələnmiş, sayı 50 milyonu aşan azərbaycanlılar arasında bu gün böyük şəxsiyyətlər, Azərbaycanın adını yüksəldən müstəsnalar az deyil.

Lakin müasirimiz, bizimlə eyni günlərin içərisində yaşamış canlı klassik, ömrünün axırınadək mütəfəkkir zəkasının aydınlığını, şəfqət və sərrastlığını saxlayaraq xalqı üçün faydalı işlərini yerinə yetirməkdə davam edən Cavad Heyəti heç kəslə müqayisə etmək mümkün deyil. O, birincilərin birincisi idi.

Çünki bir var hər hansı elm, ictimai-siyasi fəaliyyət sahəsində dünyada məşhur olasan və çox zaman sənin azərbaycanlılığın yalnız elə mənşəcə bu xalqa mənsub olduğunla bitsin, bir də var öz sahəndə ali səviyyəli peşəkar ola-ola həm də atəşin vətənpərvər, millətsevər kimi misilsiz əməklər sərf edəsən, bu səyləri həyatının başlıca mənasına çevirəsən.

Bu tərəzidə lap dünyadakı ən üstün soydaşımız Lütfi Zadədən tutmuş tanıdığınız ən məşhur, ən qüdrətli azərbaycanlılaradək kimi Cavad Heyətlə yanaşı qoymaq olar?

O, yalnız Vətəni Azərbaycanın, ata yurdu İranın, min bir tellərlə bağlı olduğu Türkiyənin deyil, bütün dünyanın vətəndaşı olan nadir insanlardan idi. Çünki böyük yolunun başlanğıcında həkimlik sənətini seçmişdi və bu peşə sahibinin də ali vəzifəsi insana xidmət, insan həyatını hifz etməkdən ibarətdir. Lakin ömrü uzunu beynəlmiləlçi, in-

sançı qala-qala doktor Cavad Heyət təpədən-dırnağa qədər vətənpərvər, millətsevər olmağı da bacardı, xalqının mənəviyyatı ilə bağlı dəyərləri qorumaq, yaşatmaq amalına hər an sədaqət göstərdi və həm də bu etibarlılığını bir-birindən qiymətli əsərləri, yorulmaz fəaliyyətləri ilə sübut etdi.

Belə Vətən və millət aşiqi olan, həm də bu təhər nəhəng işlər görməyi bacaran, bu sayaq tükənməz bilik və qabiliyyətlərə sahib, bunca qüdrətli, epoxal şəxsiyyət bir də nə zaman yaranacaq?

Ümumən bundan belə ikinci belə bir şəxsiyyətin yetişəcəyi ağlasığmazdır.

Fərdi keyfiyyətlərdən savayı, içərisindən adlanmış mürəkkəbdən-mürəkkəb, dünya tarixinin ən tələtümlü, ən tərəqqili, ən enişli-yoxuşlu, nəsilləri fərqli olan bir əsrə yaxın zaman parçası da var axı!

Şəxsiyyətləri, hadisələri, mühiti, koloriti ilə həmin dövr bir daha təkrarlanmayacaq!

* * *

Əsl yurdsevərin, həqiqi millətpərvərin kimliyi Vətən və xalq taleyinin qəliz sınaqları müstəvisində, tarixi darmacallarda ortaya çıxır.

Qaldırın yaxın keçmişimizi, arayın ki, 1990-cı ilin əvvəllərində bir sıra xarici qüvvələrin dəstəyi və yönəltməsi nəticəsində Ermənistanın əli ilə Azərbaycan torpaqları qəsb olunanda, yüz minlərlə soydaşımız müsibətlərə ürcah ediləndə dünyada məşhur olan azərbaycanlılardan hansı biri Cavad Heyət kimi mərd-mərdanə köksünü irəli verdi, bizi onun kimi canıyananlıqla, milli təəssübkeşliklə müdafiə etdi, dünyanı və qardaş ölkələri qətiyyətlə Azərbaycana arxa durmağa, yardım etməyə çağırdı?!

Bu, Cavad Heyətin həmin cəhdlərindən bircəsidir. Doktor 1993-cü il noyabrın 21-də qəlbi qanaya-qanaya Türkiyə Cümhuriyyətinin Prezidenti, 50 ildən bəri tanıdığı, yaxın münasibətlərdə olduğu cümhur başqanı Süleyman Dəmirələ açıq məktubunda belə yazırdı: “Bu gün Arazın quzeyindəki dindaş və soydaşlarımız, yəni azəri qardaşlarımız tarixdə az rastlaşdığımız bir faciə və soyqırımına məruz qalmışlar, həm də böyük bir millət və ya güclü bir dövlət tərəfindən deyil, bütün tarix boyu himayəmiz altında yaşayan və ədalətimiz sayəsində bütün insani haqlardan faydalanan ermənilər tərəfindən! Təbiidir ki, onların belə azğınlıq və cinayətə təşəbbüs və cəsarət göstərmələrinə səbəb bütün müsəlmanların, ələlxüsus türklərin düşməni olan bugünkü böyük dövlətlərin dəstəkləri və yardımları olmuşdur.

Belə bir durum qarşısında müsəlman dünyasının, Türkiyə və İran İslam Cümhuriyyətinin və uluslarımızın vəzifə və məsuliyyətləri nə ola bilər?

Bu məzlum, silahsız, ordusuz və əsarətdən yenicə çıxmış qardaşlarımızı yalqızmı buraxmalıyıq?

Bu sətirləri göz yaşlarımın qabağını ala bilmədən yazıram. Və bu anda Allah-taaladan xalqımıza qurtuluş, ya da özümə ölüm diləyirəm. "Əl-mövt xeyrun min rüku billari", yəni “Ölüm zillət çəkməkdən yaxşıdır” (İmam Hüseynin Aşura günü Kərbəla meydanında şəhid olmazdan qabaq söylədiyi sözlərdir – R.H.).

Bu gün mənim əlimdəki qələm-kağız və quru nəfəsimdən başqa bir şeyim yoxdur, onları da məzlum xalqımızın yolunda sevə-sevə verməyə razıyam. Bilirəm ki, bu gün xalqımın qələmdən çox süngüyə ehtiyacı vardır.

Ciddi ölüm təhlükəsində qalan məzlum azəri qardaşlarımızın yardımına qalxın!"

Bu gün bu sözləri demək, bəlkə də, asandır. Amma o vaxt üzdəki heç bir siyasətçi, ictimai şəxs bu cür kəskin tonda danışmırdı. Bu məktub-bəyanat həm də o qəbil başqa çağırışların yaranmasına meydan açırdı, yatmışları oyadan həyəcan təbili idi.

Adətən, siyasi mövzularda həmişə ehtiyatla yazıb-danışan Cavad Heyət bu müraciətində ona dəyə biləcək istənilən zərbəyə rəğmən sinəsini irəli vermişdi.

Bunca fədakarlığı unutmaq olarmı!

Belə bir VƏTƏNDAŞla ayrılığın acısı bu gün hər bir qaçqınımızın, köçkünümüzün, yurddaşımızın evində ən içdən gələn məhəbbətlə yaşanmasa, biz nankor olardıq!

* * *

Çoxcəhətli, çoxistiqamətli biliklər yiyəsi Cavad Heyətin səriştə ilə bildiyi elm sahələrindən biri də ilahiyyat, islamşünaslıq idi və o, bu sahədə müqayisəsiz üstünlüyə malik idi. Təbii ki, bunca püxtə islamşünasdan ötrü Məkkə də, Mədinə də ən müqəddəs şəhərlər idi. Lakin dünyanı və özünü dərk etdiyi çağlardan ailəsinin ona aşıladığı və özünün dərk etdiyi başlıca meyarlardan biri bu olmuşdu ki, Təbrizlə Bakı onun Məkkəsi ilə Mədinəsidir.

1925-ci il mayın 23-də Təbrizdə doğuldu, 2014-cü il avqustun 12-də Bakıda əbədiyyətə qovuşdu.

Cavad Heyət Azərbaycan Respublikasının vətəndaşı deyildi.

Lakin o, dünyasını dəyişəndə dövlət səviyyəsində ilk vida sözləri Bakıda yayıldı və həmin ehtiram dolu mətnin altındakı əvvəlinci imza da dövlətin birinci şəxsinin adı, ölkə Prezidentinin imzası idi.

Bircə bunun özü Cavad Heyətin nə qədər fövqəladə, Azərbaycandan ötrü nə qədər mühüm şəxsiyyət olmasından deyir.

* * *

Cavad Heyət elə bir ailədə doğulmuşdu, elə nəsillərin və elə ocağın yavrusu idi ki, onun biliklə, kitabla, yüksək əxlaqi dəyərlərlə bağlı olması labüd idi.

Bir dəfə ondan soruşmuşdum ki, Siz artıq ustadlar ustadısınız, ömrünüzdən də çox müəllimlər keçib. Bu qədər dərin biliklər əldə edəndən sonra həyatınızdakı müəllimlərdən hansını göz önünə gətirərkən yenə özünüzü şagird məqamında təsəvvür edirsiniz?

Cavab vermişdi ki, sözün bütün mənalarında mənim ən birinci müəllimim atam olub. Həm əvvəlinci, həm də ən baş mənasında.

Cavad Heyətin atası, 1879-cu ildə dünyaya gəlmiş Mirzə Əli Heyət gənc yaşlarında Nəcəfə yollanaraq 7 il mükəmməl ali ilahiyyat təhsili almışdı, fiqhdən – dini hüquqdan tutmuş üsul, hikmət, kəlam, riyaziyyat, yüksək astronomiya, köhnə və yeni fəlsəfəyədək bir çox elm sahələrinə dərindən vaqif olmuşdu. Biliklərlə ləbələb, öyrənməkdən usanmayan Mirzə Əli hələ bundan sonra İstanbul və Qahirəyə gedərək oralarda da 1 il elmi araşdırmalarla məşğul olmuş, bir qədər də dərinləşmişdi.

Paklıq, düzlük və bilginliyin timsalı Mirzə Əli 1967-ci ildə dünyasını dəyişənədək İranın dövlətçilik, düşüncə və mənəviyyat həyatındakı seçkin simalardan olmuş, Təbriz məhkəməsinin ilk sədri, İranın Baş prokuroru və daha sonra ədliyyə naziri işləmişdi.

Təsəvvür edin Mirzə Əli Heyət hansı savada və səviyyəyə malik imiş ki, dünyanın hər üzünü, alim və müəllimlərin hər cürünü görmüş Cavad Heyət lap ixtiyar çağlarında da atasını ömrü boyu tanımış olduğu müəllim və alimlərin ən kamili hesab edirdi. Onun adını çəkəndə kövrəlirdi, boynuna alırdı ki, atasını hər insandan, öz

övladlarından, hətta doğmaca anası Məsumə Sultandan da artıq sevmişdir.

“10 bacı-qardaş idik. Amma anam məni bütün uşaqlardan çox istəyirdi. Bir gün mənə şikayətləndi ki, oğul, sən özün şahidsən ki, mənim sənə məhəbbətim o biri uşaqlara olan sevgimdən qat-qat çoxdur. Bəs sən niyə atanı məndən çox istəyirsən? Dedim ki, ay ana, axı bunun ixtiyarı mənim əlimdə deyil...”

Bir dəfə Cavad Heyətdən bunu da xəbər aldım ki, bəs ən böyük müəllim saydığınız atanızın hansı nəsihətini ən vacib bilir, ömrünüzün əsas düsturu sayırsınız? Söylədi ki, atam həmişə məsləhət edərdi, nə iş görsən, ehsasatın (duyğuların – R.H.) sənlə olsun, amma ağlı da unutma.

Doktor bütün yolu boyunca bu düsturdan kənara çıxmadı. Nə etdisə sevərək, ürəkdən, eşqlə etdi, ancaq heç vaxt da emosiyaların tam əsirinə çevrilmədi, soyuq dərrakəsi, hər xırdalığı nəzərə alan fəhmi həmişə sərvaxt dayandı. Ona görə də mürəkkəb siyasi və ictimai dövrlərin burulğanlarından keçib irəlilədiyi uzun onillərdə heç vaxt yıxılmadı, bürdəmədi, yanılmadı.

Bəs doktorun da daşıdığı “Heyət” soyadının kökü haradan gəlir?

Mirzə Əli artıq cavanlığından el-oba arasında da, ali dövlət dairələrində də savadına, dünyagörüşünə, ədalətliliyinə, doğruculluğuna görə sözü keçən, sayğı bəslənən ziyalı idi. O qədər mötəbər ki, İranda – ölkədaxili və xarici vacib səfərlər üçün təşkil olunan mühüm nümayəndə heyətlərinə mütəmadi başçı təyin edilərmiş. Bunlardan birincisi vaqe olubmuş 1906-cı ildə.

Məhəmmədəli şahın dövlət çevrilişindən sonra Nəcəfdə ilahiyyat tələbələrindən ibarət bir heyət qurulur. Əvvəlcə Bəsrəyə, sonra İrana Məşrutiyyət fərmanını aparan üç böyük din böyüyü – Ayətullah Tehrani, Ayətullah

Mazandarani və Axund Molla Kazım Xorasani, eləcə də digər nüfuzlu, bişkin şəxsiyyətlərin daxil edildiyi heyətə onlardan xeyli gənc Mirzə Əli rəhbər seçilmişdi.

Gedir, danışıqlar aparır və Məşrutiyyətin bərpasına nail olur.

1919-cu ildə ermənilər Naxçıvanda zavallı insanları olmazın zülmlərə məruz qoyanda, şiddətli təzyiqləri ilə bu bölgəni Azərbaycan Xalq Cümhuriyyətindən qopararaq Ermənistana qatmaqçün canfəşanlıqlar edəndə naçar qalan əhali Qacar vəliəhdi Məhəmmədhəsən Mirzədən kömək diləmişdi və o da Tehranın "hə"sini alaraq Mirzə Əlini bir yardım heyəti və rəsmi məktubla Naxçıvana yola salmışdı...

Bu minvalla hələ cavankən ağsaqqal ehtiramına sahib olan Mirzə Əli "Heyət" təxəllüsünü qazanıbmış və sonra həmin kəlmə çevrilir ailənin soyadına.

Mirzə Əli Heyət on övladının onuna da yaxşı tərbiyə və təhsil verməyə səy etmişdi, amma nədirsə, elə yeniyetməlik çağlarından Cavada bəslədiyi ümidlər daha məxsusi imiş.

Tehranda ali tibb təhsili alan Cavadı atası üçüncü kursdan sonra oxumağını davam etdirmək üçün Türkiyəyə göndərməyi qət edir. O zaman İranla Türkiyə arasında 100 tələbə mübadiləsi haqda bir anlaşma imzalanıbmış. Lakin müəyyən səbəblərdən bu layihənin gerçəkləşməsi ləngiyirmiş və Cavad atasına müraciət edir ki, tələbə dostlarımdan təhsili davam etdirmək üçün Beyruta gedənlər var, bəlkə, icazə verəsiniz, mən də gözləməyim, elə onlara qoşulub gedim.

Atası etiraz edir ki, oğlum, gün gələcək, sən Parisə də gedəcəksən, Amerikaya da. Mənim imkanım olsaydı, səni Türkiyəyə yox, Bakıya göndərərdim. Amma arada dəmir pərdə var. Türkiyəyə getməyini ona görə arzulayıram ki,

yalnız tibb təhsili almayasan, həm də gedib öz dilini, mədəniyyətini, tarixini bir az da dərindən öyrənəsən.

Ömrün ixtiyar mərhələsində bütün nail olduqlarına vaxtın hündürlüyündən baxan Cavad Heyət atasının bu strateji məqsədli addımına görə ona sonsuz dərəcədə borclu olduğunu rəhmətlərlə dilə gətirirdi. Şükranlıqla anırdı ki, məhz Türkiyədəki təhsil dövründə axarında olduğu elmi ab-hava, oxuduğu kitablar, oturub-durduğu alimlər, təmas bağladığı ziyalılar təbib olduğu halda onun həm də bir türkoloqa, azərbaycanşünasa çevrilməsinə möhkəm, sağlam özül yaratdı.

"Atam davranışlarında, danışığında, insanlara münasibətlərində, əməllərində istisnasız olaraq həmişə səbirli, nəzakətli, düzlüksevər, ölçü gözləyən, səliqəli bir kişi idi. Yalnız camaat arasında olanda deyil, lap evdə, otaqda tək qalanda da belə idi. Bu onun təbiəti idi".

Gecə saatlarında doktor Cavad Heyətin artıq yadigara çevrilmiş, 2008-ci ildə lentə aldığım söhbətini dinləyirəm, aramla ömür hekayətini söyləyir, məni ayrı bir aləmə aparır və dinləyə-dinləyə fikirləşirəm ki, axı o da bu baxımdan atası ilə eyni idi.

Kübarlığın, alicənablığın, nazikliyin qüsursuz nümunəsi idi. Haçağ evinə görüşünə getdimsə, lap sağlığının son aylarınacan – hərdən xəstə, üzgün, yorğun olduğu vaxtda da məni səliqə ilə geyinmiş halda, kostyumda, qalstukda, beretdə, sifətinin mehriban ifadəsi ilə qarşıladı.

Məni və hər kəsi.

Cavad bəy yüksək daxili mədəniyyətə malik idi, əsl centlmen idi.

2010-cu ildə yoldaşım Tehranda əməliyyat olunmuşdu. Cavad bəy mütəmadi olaraq gündə bir neçə dəfə bizimlə, həkimlərlə telefon əlaqəsi saxlayırdı. Xəstəxanadan buraxılandan sonra isə şəhərin o başından durub gəlmişdi

mehmanxanada yoluxmağa. Qınadım ki, axı niyə əziyyət çəkmisiniz!

Çünki o günlərdə doktorun özü də bir qədər nasaz idi, sağ ayağının barmaqlarında yara əmələ gəlmişdi, müxtəlif məlhəmlər yaxırdı və hərəkət etməsi də çətin idi.

Həmin gəlişi vaxtı çəkilmiş fotolarımız da qalır: ayaqqabılarının tayları fərqlidir. Yaralı, sarıqlı, buna görə çəkməyə girməyən sağ ayağına dabansız, burunsuz yüngül başmaq keçirib, sol ayağında isə qara çəkmə...

Cavad Heyət böyük alim olmaqla bərabər, böyük də insan idi, tərbiyəliliyin, əsilzadəliyin ibrət alınası örnəyi idi. Elə bir örnək ki, ona oxşamağa çalışmaq olur, lakin tam o cür olmağa heç də həmişə, ən azı, səbrin çatmır. Tam o cür ola bilməkçün gərək həmin keyfiyyətləri, yerinə yetirməli olduğun şərtləri sadəcə qəbul etməyəsən, onları doktor kimi, onun atası sayaq məhz öz təbiətinə çevirəsən.

"Atam müasir düşünən, açıq fikirli bir şəxs idi. Amma eyni zamanda etiqadlı, imanlı bir insan idi, əxlaqən ruhani idi, namaz qılardı, içki içməzdi. Hər kəs də bunu bilirdi. Bir dəfə İranın Baş naziri doktor Əli Əmini bizə qonaq gəlmişdi. Atam da, qardaşlarım da bizdə idilər. Süfrə açılmışdı. Bilirdik ki, Əli Əmini içkiyə biganə deyil. Yaxınlaşıb qulağına pıçıldadım ki, atamızın yanında sizə içki təklif edə bilmərik. Amma qonşu otaqda viski hazırlamışıq, istəyirsinizsə, buyurub keçin, orada nuş edin. O da qayıtdı ki, yox, mən də ağa-yi Heyətin yanında içmərəm.

Atamın bu qədər hörmətini saxlardılar".

Bunlar da doktor Cavad Heyətin xatirələrindəndir və onun hansı ailə məktəbindən keçərək yetişməsinin daha bir cizgisidir.

Orta məktəbdən sonra Cavad bəy hərbi liseyə daxil olubmuş və öz hekayətincə, orada da birinciymiş. Di gəl, hiss edir ki, hərb onun tutub gedəcəyi yol deyil, səmtini təbabətə dəyişir.

Lakin ailə tərbiyəsindən və həmin ilk hərbi təhsilindən gələn sərt daxili intizam sonacan Cavad Heyətlə qaldı.

Axır illəri əsasən Bakıda yaşayırdı, arada Tehrana gedib-gəlirdi.

Hər gedəndə mütləq zəng vururdu ki, filan gün yola düşürəm, hər qayıdanda mütləq telefon açırdı ki, geri dönmüşəm. Bunlar elə xüsusiyyətlərdir ki, onları öyrətmək olmur, gərək belə bir intizam, dəqiqlik, sahman, davranış səliqəsi canında ola. Daxilində belə bir dəqiqlik və intizam nəbz kimi vurduğundandır ki, Cavad Heyət bu qədər çox, bu qədər xeyirli və bir-birinə bənzəməyən ciddi işlər görməyə müvəffəq olub.

* * *

1946-cı ildə İstanbulda tibb təhsilini başa vurduqdan sonra üç il cərrahlıq üzrə təcrübə, daha sonra isə Parisdə daha üç il bu yöndə təkmilləşmə keçmişdi. İrana qayıdıb işə başlamışdı, amma daha çox öyrənmək, bir az da kamilləşmək istəyi onu yeni yolçuluqlara səfərbər etmişdi. Amerikada müxtəlif klinikalarda çalışmışdı, Danimarkada, Kopenhagendə işləmişdi.

İranda bir sıra iri xəstəxanaları quran, böyrək dəyiş-dirilməsi, açıq ürək əməliyyatları və sair möcüzə kimi görünən bir çox başqa təbabət hünərlərini ilk dəfə göstərən Cavad Heyət olub.

Onun “Tromboflebit və müalicəsi” (1957), "Ümumi cərrahlıq" (1965), "Cərrahiyyə dərslikləri" (1997) kitab-ları, təbabətin müxtəlif çətin məsələlərinə aid bolluca təcrübə və təhlillər əsasında qələmə alınmış 100-dək araş-

dırma-məqaləsi sərrast müşahidələriylə, elmdə yeni söz olan tapıntılarıyla seçilir.

Naturasında naşirliyə, elmi kütləviləşdirməyə meyil olduğundan elə həmin çağlarda "Daneş-e pezeşki" ("Təbabət elmi") adlı dərgi buraxmağa başlamış və həmin jurnal 1964-1976-cı illərdə işıq üzü görmüşdür. Bir çox tibb araşdırmaçısı üçün münasib elmi laboratoriyaya, özünüifadə meydanına dönən həmin dərgidə Cavad Heyətin özünün 60-dan artıq dəyərli məqaləsi dərc edilmişdir.

* * *

Ensiklopediklik, universallıq orta əsr alimlərinə xas keyfiyyətlərdən imiş. Həm Şərqdə, həm Qərbdə. Bizim dövrdə isə nəinki müxtəlif elm sahələrində, hətta bir elm sahəsinin daxilində belə onun müxtəlif istiqamətlərinə hərtərəfli bələd olan mütəxəssislərə seyrək rast gəlinir.

Cavad Heyətsə həm də bir tarixçi, ədəbiyyatşünas, folklorçu, dilçi, filosof, mədəniyyətşünas, ilahiyyatçı idi.

Bu istiqamətlərin də hər birinə aid köhnəlməz, masaüstü olmağa yaraşan əsərlərin müəllifidir.

O həmin elm sahələrinin heç birində peşəkar deyildi və ona görə də araşdırmaları akademik biçim daşımır. Lakin biliklərinin geniş çevrəsi, problemləri çox üstdən, panoramda seyr edə bilməsi və güzəştsiz milli mövqeyi ona imkan verib ki, dilimiz, ədəbiyyatımız, mədəniyyətimiz haqqında ən peşəkar araşdırıcıların ən akademik tədqiqlərindən geri qalmayan faydalı əsərlər doğursun. Həm də o əsərlərin hər birində qəlib, model olmaq siqləti var. Yəni məhz o dəst-xətlə, o yanaşma ilə, o qeyrətlə yazmağı təlqin və təşviq edən ülgü!

* * *

Cavad Heyətin bir üstünlüyü də onun nəyi necə deməyin üsullarına məharətlə yiyələnməsi, mətləbləri hər kəsin qavraya bilməsindən ötrü hansı sadəlikdə yazmağın gizlinclərinə bələd olması, bir də, ən lazımlısı, fikirlərini siyasi incəlik və nazik sərhədləri nəzərdə tutaraq, xəfif pərdəni aradan itirməyərək, heç bir tərəfi incitmədən ustalıqla ifadə etməsi idi.

"Varlıq"ın nübar sayında, birinci buraxılışında Həmid Nütqinin "Ana dili – sevgili dil" adlı uzun şeirini dərc etmişdi. Həmin mənzumənin misralarında tamam tariximiz, yolumuz, dərdlərimiz, qayğılarımız, ümidlərimiz əks olunub. Həm də bütün bunların yanında bir redaktor məharəti sezilir (söz yox, Cavad bəy əski dostu ilə bu proqram xarakterli şeirin nə təhər olmasını, hansı nöqtələrə vurmasını da dönə-dönə müzakirə etmişdi), mühiti, ətrafı, münasibətləri nəzərdə saxlamaq, həddi aşmamaq taktı da duyulur:

İranı abad, bizləri şad istəməyənlər,
Öz nəfi üçün hər zadı bərbad eləyənlər,
Bu ölkədə əqvam ara hər haqqı dananlar
Öz niyyətini eylədilər beyləcə izhar:
"Bu irqin o bir irqlərə üstünlüyü varmış,
"Arya"dan olan olmayana fəxr satarmış.
"Türki" deyə bir dil nə gəzər, "azəri" varmış,
Milyonla o dildə danışansa xatakarmış".
Lakin bu qaranlıq da, nəhayət, sona ərdi,
Buzlar əridi, yel də bahar müjdəsi verdi.
Gəl, qardaşım, ey fars danışan yar ü bəradər,
Qoy mazidə qalsın qara günlər, ağır illər.
...Qoy bədxahımız bizdəki birlikdən üzülsün,
Qoy ölkədə həm türk üzü, həm fars üzü gülsün.

XV yüzildə Əlişir Nəvai bütün türk dünyasında sonrakı əsrlər ərzində həmişə qələm şücaəti kimi dəyərləndiriləcək "Mühakimət ül-lüğəteyn" risaləsini yazdı. XX əsrdə isə Cavad Heyət fars dilində "Müqayisət ül-lüğəteyn" kitabını doğuraraq (1991) ulu sələfin türkcənin üstünlüklərini nümayiş etdirən əsərindən geri qalmayan bir hünərə imza atdı.

Tutuşdurun – Nəvai öz risaləsində fars dilində qarşılığı olmayan 100 türk kəlməsini gətirərək təhlillərini aparmışdı. Cavad Heyət isə "Müqayisət ül-lüğəteyn"də 1700 belə sözü tədqiqata cəlb edir, kitabın yaranmasının ümdə səbəblərindən birini isə belə nişan verirdi: "Kitabı farsca yazdım ki, onu bütün iranlılar oxuya bilsin. Türk olub öz dilini və onun əhəmiyyətini yaxşı bilməyənlər, ya da asimilə olunmuşlar gerçəkləri öyrənib təqdir etsinlər".

Orta əsr Şərq şairinə, aliminə çoxdillilik də xas olub. Şairlərimizin, filosoflarımızın əksəri orta əsrlərdə üçdilli olub, farsca, ərəbcə, türkcə yazıb-yaradıb. Cavad Heyət bu baxımdan da klassik babaların müasir zamana uyğun davamçısı idi. Azərbaycan dilini, Türkiyə türkcəsini, farscanı, ərəbcəni ana dili kimi bilirdi, eyni zamanda, fransızcası, ingiliscəsi sərbəst idi. Və danışdığı dillərin hər birində də əsərləri var.

Beləcə, bir yığın Şərq və Qərb dilləri ilə aşinalığı Cavad Heyətə ana dilinin, bütövlükdə türkcənin üstünlüklərini bariz şəkildə əyan etməyə imkan yaradırdı.

Cəsarətlə, əminliklə yazırdı ki, feil sisteminin zənginliyinə və çevikliyinə, yeni sözyaratma keyfiyyətinin hüdudsuzluğuna görə türkcə istənilən dillə yarışa çıxıb qalib gələr. Verdiyi bircə nümunə bu həqiqəti anındaca danışıqsız isbat edirdi: "Oxumaq" feilindən görün cüzi dəyişikliklə nə qədər yeni feillər törəyə bilir: oxutmaq, oxunmaq, oxutdurmaq. Amma bircə bu sonuncu feili farsca ifadə

etmək üçün iri bir cümlə yazmaq lazımdır: “Qozaştən-e kəsi be mədrəse ta be u xandən yad bedəhənd” (Bir kəsi ona oxumağı öyrətməkdən ötrü məktəbə qoymaq – R.H.).

Eynən rusca, ingiliscə və sair br çox dillərdə də həmin təhərdir.

Cavad Heyət insan bədənini, insan ürəyini, böyrəyini yarıb içərisində əlləşə, çarələr qıla bildiyi kimi, elə bir cərrah kimi cümlələrin, sözlərin də adi gözlərə görünməyən diblərinə, dərinlərinə daxil olaraq naməlumları aşkara çıxarmaq iqtidarında idi.

* * *

...Onun necə qabil bir cərrah olması haqqında çoxları yazıb, söyləyib. Lakin həmin rəylər arasında ikisi mənimçün ən mötəbəridir. Onlardan biri məşhur amerikan cərrahı, 1967-ci ildə dünyada ilk ürəkdəyişmə əməliyyatını aparmış Kristian Barnarda, digəri isə müasir İranın Amerika və Avropada da yetərincə məşhur, oralarda da çox işləmiş cərrahlarından biri Məhəmmədhüseyn Mandeqara məxsusdur.

Birincini professor Barnardın əlyazmasından oxumuşam, ikincini şəxsən professor Mandeqarın özündən eşitmişəm.

K.Barnard Keyptaunda onun yanında təcrübə keçmiş Cavad Heyətə vətənə yola düşməyə hazırlaşarkən İranda gələcəkdə ürək cərrahiyyəsi işinin daha yaxşı qurulması üçün köməkliklər göstərməsindən ötrü şaha bir məktub göndərmək istəyir. Cavad Heyətə deyir ki, özün haqqında mənim adımdan bir zəmanət məktubu yaz, imzalayım.

Cavad Heyət xəsis cümlələrlə çox təvazökar bir mətn yazır. K.Barnard alıb baxır, başını bulayır, bəyənmir. Qələmi götürüb özü təzədən yazır. Məktubun surəti doktor Heyətdə qalmışdı: "İran iftixar edə bilər ki, onun belə iste-

dadlı, qeyri-adi intuisiyalı, əsl qızıl əlli, dünya səviyyəli cərrahı var".

M.Mandeqar isə Tehranda öz iş otağında Cavad Heyətin rəfdəki fotosunu göstərərək gülümsündü: “Doktor İrandakı ürək cərrahlığının atası olmaqdan daha artıq bizim mürşidimizdir, daimi ustadımızdır. Bəlkə, mindən çox ürək əməliyyatı etmişəm, yenə, yeri gələndə, onun məsləhətinə ehtiyacımız var".

Cavad Heyətin mahir cərrah barmaqları çox ürəklərə çox tikişlər vurdu. Bununla ayrı-ayrı insanların ömrü uzandı, ayrı-ayrı şəxslər nicat tapdı. Ancaq o, bir millətşünas kimi xalqının yaralarına tikiş vururdu, onun mədəniyyətinin, ədəbiyyatının, dilinin, tarixinin dünənindəki cüda düşmüş tikələri, parçaları bərpa edir, bir-birinə calayır, tikişlər vurur və bu yolla bütöv millətin mərəzlərini sağaltmağa çalışırdı.

2011-ci ildə Cavad Heyət seçmə əsərlərindən ibarət növbəti kitabını nəşrə hazırlayırdı. Əlyazmanı verdi ki, gözdən keçirim və kitabın adı barədə düşünməyimi də təvəqqe etdi. Müxtəlif illərin məhsulu olan bir-birindən qiymətli həmin məqalələri oxuyandan sonra təklif etdim ki, kitabın ünvanı "Dilimiz, ədəbiyyatımız və kimliyimiz uğrunda" olsun. Doktor razılaşdı.

Əslində, həmin sərlövhə tək o kitabın yox, Cavad Heyətin bütün yaradıcı və ictimai fəaliyyətlərinin devizi sayıla bilərdi.

(Cavad Heyətin çoxyönlü araşdırmalarının ümumi səmtini nişan verən bu başlığın onun özünə də çox ləzzət verməsini mənə doktorun həyatının son 15 ilində ona lap yaxın olmuş, bir növ, şəxsi katibi vəzifəsini yerinə yetirmiş, ustadın son günlərində də xüsusi sədaqəti, fədakarlıqları ilə seçilmiş Baxşəli Zülfi söylədi. Mən həmin

başlığı təklif edəndə Cavad Heyətin mənzilində üçümüz birgəydik. Mən dedim, doktor dəftərinə qeyd etdi.

B. Zülfi danışır ki, doktorgilə az sonra növbəti gəlişimdə, görünür, mənim də o adın təklif edilməsi söhbətində iştirakımı unudaraq sevincək söylədi: “Bax gör nə gözəl addır! Ömrüm boyu ürəyimdən nə keçib, hamısı var bu adda”.

* * *

...Doktorun bir dəfə mənə gənclik illəri ilə bağlı nağıl etdiyi xatirəsi təsdiqləyir ki, ondakı coşqun milli qeyrət duyğusu təfəkkürünün şəkilləndiyi, biliklərinin artdığı, millətçi qayəsinin başlıca istiqamətlərinin müəyyənləşdiyi yetkinlik çağlarından xeyli əvvəl də varmış, bu elə onun iliyinədək hopmuş bir məziyyətmiş.

Hadisə vaqe olanda Cavad bəy 19 yaşındaymış.

Əslən Qafqaz türklərindən olan, sonralar Məşhəddə yaşayaraq xeyli dəyişmiş, neçə illər də Tehranda məskun olaraq təhsil aldıqdan sonra öz gerçək milli kökündən lap aralanmış bir cavan türklərin ünvanına həqarətli sözlər danışıbmış. Cavad bəy bunu eşidincə tapır həmin oğlanı, "filan qələti eləmisən" deyir.

Tanınan idmançı, güləşçi olan həmin şəxs bir az da gücünə qürrələnərək bu ucaboy, arıq oğlanın qarşısından qaçmır, "demişəm, əcəb eləmişəm" söyləyir. Cavad bəy söz elə oğlanın ağzından çıxan kimi onu götürüb çırpır yerə, çökür sinəsinə, başlayır döyməyə.

Ətrafdakılar adi bir adamın kəlləmayallaq elədiyi pəhləvanı, hamının gözü qarşısında biabır olmuş çempionu Cavadın əlindən zorla alıb ayırırlar onları.

Yaşı səksəni ötmüş Cavad Heyət yada salır və təəccüblənirdi: "Gəncliyimdə güclü olmağına güclü idim. Amma o, peşəkar idmançı idi, fənd, yol bilirdi, məndən də canlı idi, bilmirəm necə oldu onun öhdəsindən gəldim".

Necə yəni necə! Bu həmin vulkan kimi püskürə bilən millət eşqidir ki, lazım gələndə insanı yalın əllə tankın da üstünə şığıda bilir!

Və o təpər, o qırım, o sevda ömrü boyu Cavad Heyəti tərk etmədi.

* * *

XX əsrdə o taylı-bu taylı Azərbaycanın 4 dərgisi olub ki, onlar milli düşüncənin formalaşmasında, bütövlükdə millət quruculuğunda möhtəşəm izlər buraxmışdır.

XX əsrin əvvəllərində Mirzə Cəlillə Ömər Faiq Nemanzadənin "Molla Nəsrəddin"i, Əli bəy Hüseynzadənin “Füyuzat"ı, XX yüzilin yetmiş-səksəninci illərində Anarın “Qobustan"ı və Cavad Heyətin 1979-cu ilin aprelindən üzü bu yana sıralanan “Varlıq”ı.

Məhəmmədhüseyn Şəhriyar elə "Varlıq" dərgisinin ilk sayları oxucuyla görüşəndə riqqətə gələrək “Azadlıq quşu “Varlıq” şeirini yazıb:

Artıq 36 ildir ki, "Varlıq" İranda ana dilində nəşr edilir. Orada dərc edilən yazıların məzmunu, elmi səviyyəsi hələ bir kənara qoyularsa, yalnız məcmuənin belə uzun müddətdə milyonlarla insan arasında apardığı dil tərbiyəsi, əyani məktəb olmaq qüdrəti oxşarı olmayan qəhrəmanlıq kimi dəyərləndirilməyə layiqdir və bütün başqa xidmətləri olmasa belə, elə bircə bu dərginin 36 illik yoluna görə Cavad Heyətə millətin könlündə və tarixin bağrında əbədi abidə yapılması haqqı halaldır.

Həm də bu dərginin fasilələr vermədən, yarı yolda qalmadan belə sürəkli zaman məsafəsində ayaq üstə olması, təbii ki, ən əvvəl batılmaz Cavad Heyət zirehi, onun qeyri-adi dərəcədə güclü nüfuzu, sözükeçərliyi ilə əlaqədardır.

Necə bəsirətli, necə uzaqgörənmiş ustad!

İran İslam inqilabı baş verəndən sonra açılan azadlıq pəncərəsi, ölkəni bürüyən yenilik havasının dalğasında ayrı-ayrı təşəbbüskarlar ana dilində yeni-yeni qəzet-jurnal buraxmağa başladılar.

Ömrü bir neçə həftə olanı da oldu, bir neçə ay sürəni də, bir neçə il çəkəni də. Ahəstə-ahəstə hamısı susdu, itib-batdı.

Meydanda sabit əzəməti ilə dikələn yeganə "Varlıq" oldu. Çünki tədbirli Cavad Heyət əvvəldən işini düzgün qurmuşdu. Yolunu başlayanda ətrafına ən sabitqədəm, ən qabaqcıl yazarları, sözü və qələmi bütöv milli düşüncə daşıyıcılarını toplamışdı – Həmid Nütqini, Savalanı, Səhəndi, Sönməzi (Kərim Məşrutəçi), Fərzanəni...

Geridəki 36 il boyunca doktor dərgini sadiq köməkçilərinin, dəstəyə yeni qoşulan silahdaşlarının dəstəyi ilə buraxdı. Lakin bir baş redaktor və dəmir intizam sahibi kimi sonacan da özü jurnalın hər sayını əvvəldən-axıracan mütaliə edərək redaktələrini apardı.

Çünki Cavad Heyət bu işə sadəcə naşirlik, jurnal buraxmaq kimi baxmırdı.

Bunu öz həyat amalının, millət quruculuğuna, türklüyə, azərbaycançılığa xidmətinin ümdə halqalarından biri kimi qavrayırdı.

Lakin o həm də müəlliflərdən biri idi. Yeri düşdükcə xalq üçün taleyüklü məna kəsb edən və qələmə alınması özəl qətiyyət tələb edən məsələlərlə bağlı "Varlıq"a yazırdı.

36 illik silsilədə belə yazılar onlarcadır, səciyyəvi olan bircəsinə diqqət yönəltsək yetər.

"Varlıq"ın 1998-ci il qış buraxılışında Cavad Heyət qərəzli, yanlış mülahizələr irəli sürən Məhəmmədhüseyn Füruğinin "İttilaat" qəzetinin bəhmən ayının 2-də (yəni 22 yanvarda. Bəhmən İran və Əfqanıstanın rəsmi təqvimində

on birinci aydır. Qışın ikincı ayı olan bəhmən 21 yanvarda başlayıb 19 fevralda bitir) çıxmış sayındakı “Fars dilini qoruyaq” adlı məqaləsinə cavab olaraq dərhal ötkəm bir məqalə ortaya qoydu: “Fars dilini qoruyaq, lakin İranın türk və ərəblərinin də ana dilini əzməyək!”

Doktor həmin müəllifin bütün yersiz iddialarını tutarlı elmi dəlillərlə rədd edəndən sonra ittihamlı məqaləsini belə yekunlaşdırırdı: “İran, islam və insaniyyət adına sizdən xahiş edirəm. Özünüz dediyinizə görə, “vətənin hifzi və müdafiəsində müqəddəs niyyət və məqsədiniz var”. Çalışın öz milli fikir və əqidələrinizi bir daha nəzərdən keçirin ki, islami vətənimizin bütün insanlarını yekdil (birdilli yox) və həmrəy edəsiniz. Vəssalam!”

Doktor Cavad Heyət doğulub boya-başa çatdığı İranı sevirdi, bu ölkəni güclü görmək istəyirdi, hər dürlü bölücülüyün əleyhdarı idi: “Biz İranda otuz neçə faizik, həmişə də ikinci yox, birinci dərəcəli vətəndaşlar olmuşuq”, – deyirdi.

Ona görə də öz dürüst vətəndaş və alim qənaətlərinə güvənən, sabahabaxan (və həm də sabahıgörən) Cavad Heyət kimin onun mövqeyinə necə reaksiya verəcəyinə bənd olmadan saxta millətçilərin, dayaz siyasətçilərin ayı xidməti göstərərək İranın bütövlüyünə, birlik gücünə xələl gətirə biləcək bu qəbil sayıqlamalarına soyuqqanlı ayıq cavabını heç vaxt gecikdirmirdi.

Şəhriyar milli düşüncədə zəlzələ qoparan, fırtınalar yaradan “Heydərbabaya salam"ı doğurdu.

Həm fars, həm türkdilli ədəbiyyatın tarixini ayrıntıları ilə bilən Cavad Heyət haqlı olaraq təsdiqləyirdi ki, bizim iki və üçdilli şairlərimiz az olmayıb. Tutalım, Nəsimi, yaxud Füzuli, ya Seyid Əzim hər üç dildə yazmışlar. Onların farsca və ərəbcədə yazdıqları yaxşıdır, lakin

türkcədə olan yadigarları şah əsərlərdir. Şəhriyarın isə həm ana dilində, həm farsca qələmə aldıqları şah əsərlərdir.

Şəhriyarla ilk gənclik illərindən, hələ 1941-ci ildə Tehranda birlikdə ali tibb təhsili aldığı vaxtlardan rəfiq olan və bu simsarlığı şair dünyadan köçənədək kəsməyən Cavad Heyət ona yalnız bənzərsiz söz ustası kimi baxmırdı. Şəhriyar Cavad Heyətdən ötrü həm də doktorun ömrünün mənası olan azərbaycançılıq axınının, türkçülük cərəyanının gurlaşmasına qida verəcək güclü nəhrlərdən idi.

Şəhriyarsa "Heydərbaba"nı doğurandan sonra səngimişdi, Təbrizdə yaşayırdı, elə ara-sıra farsca yazıb-yaradırdı.

Bir dəfə Cavad bəy bu nisgili barədə o dövrdə İrana tez-tez gedib-gələn görkəmli şərqşünas Rüstəm Əliyevə gileylənir.

Doktor etiraf edirdi: “Rüstəm dedi ki, bunun təqsiri sizdədir.

Şəhriyar qalıb orada tək, ətrafında sizin kimi aydınlar yoxdur ki, onu coşdursun, istiqamətləndirsin. Gətirin onu Tehrana, qoy sizin, dostlarınızın əhatəsində olsun, təsirinizlə yenə başlayacaq ana dilində təzə şeirlərini yazmağa.

Ağlıma batdı bu fikir. Getdim Təbrizə, Şəhriyarı ailəsilə birgə gətirdim Tehrana. Mənim üçmərtəbəli evim vardı, bir mərtəbəsini verdim ona, elə onun təşrifiylə evimizdə öz-özünə bir ədəbi məhfil əmələ gəldi. Asta-asta Şəhriyarın anadilli qələminin də pası açıldı, şirin dilimizdə yeni-yeni şeirləri doğuldu".

(Şəhriyarın həmin şeirlərini oxuyanda müdam səbəbkarı, nəcib Cavad Heyəti də anın!).

Cavad Heyət bunu da xatırlayırdı ki, bir gün şahın həyat yoldaşı Fərəh xanım xəbər yollayır ki, Şəhriyar izin versin, Tehranda ona bir ev alaq, rahat yaşasın.

Şəhriyarın müdrik cavabını doktor mənə illər fasilə-siylə müxtəlif məqamlarda bir neçə dəfə ərz edib və hər dəfə də qəhərlənib: "Şəhriyar qayıtdı ki, çox təşəkkür edirəm diqqətinizə görə. Mənim hələ burada yerim çox rahatdır. Amma mənə nəsə yaxşılıq etmək istəyirsinizsə, türkcə şeirlərimi ayrıca kitab halında buraxın, elə özüm onun puluna ev də alaram".

...Şahlıq zamanı idi və təbii ki, həmin arzulanan kitab buraxılmadı.

* * *

Cavad Heyətin insanlara, şəxsiyyətlərə münasibətinin əsas məhək daşı, başlıca ülgüsü Azərbaycana, onun tari-xinə, dilinə, ədəbiyyatına, mədəniyyətinə, mənəviyyatına sevginin dərəcəsi idi.

Unudulmaz Heydər Əliyevi çox sevirdi və ulu öndərin də ona xüsusi ehtiramı vardı.

Onillər ərzində neçə-neçə dövlət başçısı tərəfindən dəfələrlə səmimi qəbul edilmiş, müsahib olmuş doktor yeri düşdükcə dilə gətirirdi ki, ədəbiyyata, mədəniyyətə, mə-nəvi sərvətlərə həssas, xeyirxah münasibətdə və bütün bunları peşəkarcasına bilməkdə Heydər Əliyevə tay ola biləcək ikinci dövlət rəhbəri ilə rastlaşmayıb.

“Hər görüşəndə onun zəkasından, mütəfəkkirliyindən, nitqindən zövq alırdım, onun Azərbaycan eşqinə heyran olurdum, ayrılmaq istəmirdim və hiss eləyirdim ki, Heydər Əliyev də bu görüşlərin tez başa çatmasını istəmir. Elə oğlu da əsl ona layiq, eynən onun xəttinin, yolunun yol-çusudu.

Bir neçə dəfə mən Heydər Əliyevlə görüşəndə İlham Əliyev də yanımızda olmuşdu. Amma sakitcə dinləyir, kəlmə kəsmirdi. Üstündən xeyli müddət keçdi.

İlham Əliyev Prezident oldu, onun bir-birindən çəkici, elə atasınınkı kimi cazibədar nitqlərini eşidəndə mat qaldım ki, bu qabiliyyətlər harada gizlənibmiş. Növbəti dəfə görüşəndə özündən xəbər aldım ki, İlham bəy, atanızın yanında Sizi həmişə dinləyən gördüm, nədən bir dəfə də səsinizi eşitmirdim? Cavab verdi ki, bizdə adətdir, böyük danışanda söhbətə müdaxilə etməzlər, qulaq asarlar, yadda saxlayarlar, öyrənərlər".

Bu davranış tərzi, belə cavab özü də klassik kübar tərbiyəsi ənənələri olan ailədə böyümüş Cavad Heyəti son dərəcə məmnun qoymuşdu.

Məni isə dövlət başçımızın Cavad Heyəti daha çox bakılı etməsi, buralara hərdən qonaq kimi deyil, elə gələrək uzun müddət də qalması, insanlarımızla, ziyalılarımızla daha çox ünsiyyətdə olması üçün ona paytaxtımızın mərkəzi hissəsində qəşəng mənzil hədiyyə etməsi çox məmnun qoymuşdu.

Amma Prezident İlham Əliyevlə doktor Cavad Heyətin təmaslarının bir millətəxeyir saxlancı da var.

Doktor ölkə başçısına farsca yazdığı, İranda 1986-cı ildə nəşr edilmiş fundamental "Türk dilləri və ləhcələrinin tarixi" əsərindən bəhs etmişdi, Prezident İlham Əliyev də dərhal əsərin milli çəkisini, faydalılığını tutmuş və bir iradını da bildirmişdi: “Farsca yazıb nəşr etmisiniz, çox yaxşı. Amma türk dillərinin müqayisəli təhlili haqda belə sanballı kitab gərək Azərbaycan dilində də buraxılsın".

Cavad Heyət dəqiqləşdirirdi: “İlham bəyin bir tövsiyəsi də oldu. Kitab çox qalın idi. Cənab Prezident söylədi ki, bu, dərslik kimi bir mənbədir. Yaxşı olardı ki, rahat oxunsun deyə siz onu çox qalın bir kitab kimi yox, iki cilddə buraxasınız".

Bu arzu da nəzərə alındı, kitab çıxdı, Azərbaycanın və türk dünyasının elmi ictimaiyyəti arasında geniş əks-səda da doğurdu.

(Həmin əsərin ölçüyəsığmaz qiymətliliyini anlamaq-çün dünyaca məşhur bir dilçinin şəhadəti yetər. Türk dillərinin görkəmli tədqiqatçısı, Göttingen Universitetinin "Türkologiya və altayşünaslıq kafedrası"nın müdiri olmuş professor Gerhard Dörfer (1920-2003) 1987-ci ilin 21 noyabrında Cavad Heyətə məktubunda yazırdı: "Ankarada möhtərəm yoldaşım Həsən Ərən Sizin son dərəcə böyük əhəmiyyətə malik "Tarix-e zəban o ləhceha-ye torki" kitabınızı mənə göstərdi. Bu kitab mənə çox xoş gəldi. Əzəmətli bir əsərdir").

Və Prezident İlham Əliyevin xeyir-duası ilə böyük alim Cavad Heyətin ana dilində iki cilddə nəfis şəkildə işıq üzü görmüş həmin şah əsərinin ilk səhifəsində bir ithaf da var: "Bu əsəri türk olmadığına baxmayaraq, saatlarca yalnızlığa dözən və mənim rahatlıqla bu kitabı ərsəyə gətirməyimə imkan yaradan sevgili həyat yoldaşım Fəridə xanıma ithaf edirəm".

Əziz ustad, vəfalı ömür yoldaşınız, fars qızı Fəridə xanımın da, 5 qızınızın da, Sizi sevən, çox əziz bilən dostlarınızın da, millətimizin də Sizsizliyin yalnızlığına daha saatlarla deyil, əbədi dözmək növbəsi gəlib çatdı.

Nə qısa imiş 90 il!

İndi ilğım kimi əlçatmaz, ünyetməz vaxt uzaqlarında qalan 1936-cı ildə, başlanğıc məktəbi bitirərkən İran Azərbaycanındakı yaşıdlarınız arasında Sizi üç ən güclü öyrəncidən biri kimi qiymətləndirmişdilər və mükafat olaraq Sizə dahi Hafizin "Divan"ını hədiyyə etmişdilər.

O kitabdakı şeirlər əzbərinizdə və həmin kitab onil-lərcə yanınızda oldu.

Və o şeirlər, o kitab kimi qata-qatar göyçək qoşqular, sıra-sıra həmişədiri cildlər daimi hayanınıza, həmsöhbətinizə, məhrəminizə çevrildi.

2009-cu ildə təmir və yenidənqurmadan sonra yenidən açılmış Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinə, mənim iş yerimə qonaq gəlmişdiniz. Tamaşa etdiniz və axırda Yaddaşlar kitabında unudulmaz cümlələr yazdınız: "Bura tamaşa etmək yox, burada yaşamaq lazımdır".

Siz elə bütün həyatınızı o söz nəhəngləri ilə birgə yaşamadınızmı?

Sizin üçün əsl cənnət gözəl sözlərin əsrarəngiz, füsunkar aləmi, Sizdən ötrü gerçək behişt xalqın qəlbi idi.

Həmişə həm orada, həm buradasınız.

Sağlığınızda da belə idi, cismən Sizsiz qalacağımız illərin hamısında da belə olacaq.

...Bir neçə gün öncə xəstəxanada yanınızdaydım. İlk dəfə kostyumsuz, qalstuksuz, beretsiz görürdüm Sizi. Yataqdaydınız.

Ömür tükənirdi. Damarlarınıza tibb qurğuları qoşulmuşdu.

Əllərinizi sığallayırdım, danışırdım Sizinlə. Eşidirdiniz, həyəcanınızı hiss edirdim. Nəsə deyirdiniz, amma səsiniz çox dərində idi, zəif idi, eşidilmirdi.

Cavad Heyət həqiqəti isə başqadır axı!

Millət iftixarının ucadan-uca səsi eşidilməyə bilərmi heç!

Sizin doğma səsiniz həmişə bizimlə olacaq. Bizə və bizdən sonra gələn çox-çox nəsillərə eşidiləcək!

...Yaşı 70-i, lap 80-i aşandan sonra belə Cavad Heyət hərdən əllərini yuxarı qaldırıb irəli uzadaraq 10, 20, 30 dəqiqə heykəl kimi hərəkətsiz saxlaya bilirdi və vurğulayırdı: "Gərək cərrahın əlləri titrəməsin".

Ömrü boyu doktor Cavad Heyət qorxmaz oldu, məğrur oldu, mərd oldu, mübariz oldu və heç vaxt əlləri titrəmədi.

Nə o əllər cərrah bıçağı tutanda, nə də alim, yazıçı qələmindən yapışanda.

Heç vaxt heç kimə əyilmədi, həmişə düz sözünü, haqq sözünü deməyi bacardı.

Amma bir cüt əl vardı ki, hərdən loğman Cavad Heyət sayğıyla, məhəbbətlə, minnətdarlıqla onları öpdü.

“Hərdən uğurlu cərrahiyyə əməliyyatı aparıb bir insanın həyatını xilas edəndə, bəzən yüksək əhəmiyyətinə inandığım bir yaxşı yazı yazanda öz əllərimdən öpmüşəm. Axı onların da şəfqətə, nəvazişə, təşəkkürə ehiyacı var”.

Bu, doktor Cavad Heyətin sözləridir.

Vətən və millət yolunda can qoymuş qüdrətli övladlara da, əlbəttə ki, daim minnətdarlıq ifadə etməli, onlara yurdun borcunu qaytarmaq haqqında hər zaman düşünməliyik.

Cavad Heyətlə bağlı ilk belə etibar, vəfa məqamı 2014-cü ilin qızmar avqust günlərində yarandı.

...Azərbaycanın Məkkəsi və Mədinəsi bildiyimiz Təbrizdə və Bakıda and yeri sayılası müqəddəs məkanlarımız var: Təbrizdə "Məqbərət üş-şüəra", Bakıda Fəxri xiyaban.

Bu ziyarətgahlarda bəxtinə əbədi sönməzlik düşmüş Azərbaycan ulduzları uyuyur.

"Heyət" sözünün də daha bir anlamı "nücum", "ulduzlar elmi"dir.

Yurdumuzun ən elmli ulduzlarından olan böyük azərbaycanlı Cavad Heyətin əsl yeri həmin kəhkəşanlardır. Elə özünün də son arzusu bunlardan birində rahatlıq tapmaq idi. Neyləyək ki, umduğu sonacan alınmadı. Üç nigaran gün yaşadıq. Təbrizi ona qıymadılar. Bakı Cavad Heyətə ağuşunu açdı...

Amma sevimli doktor, haçan Sizə çox layiq olan Birinci Fəxri xiyabana getsəm, nə vaxt "Məqbərət üş-şüəra"ya yolum düşsə, mehriban surətinizi onların ikisində də ruh qardaşlarınızın arasında görəcəyəm.

Və bir də, sevimli millətimizin indikindən də qat-qat məsud olacağı daha parlaq gələcəklərin qoynunda.

Əsərləriniz, əməlləriniz yaşayacaq, daim yurddaş-larımıza vətənçilik dərsləri, millətçilik öyüdləri verəcək, həmişə qanı təzələyəcək, ruhu duruldacaq, Sizi də bitməz sevgilərə ünvan edəcək.

VARLIĞınız yenilməz milli ruhun rəmzlərindən biri, VARLIĞınızın qovuşduğu yaşarı əsərlərinizin hamısı birbaşa xalqın qan damarına qoşulu.

Azərbaycanla birgə sonsuzadək diri qalmaqçün başqa nə lazımdır ki?!

...Sizi torpağa tapşıracağımız 15 avqustdan əvvəlki gecə mənə bağışladığınız kitablarınızı yenə vərəqləyirdim, hansısa səhifələrdə xeyli dayanmalı olurdum, oxuyurdum, düşünürdüm, yenə fəxr edirdim, yenə heyran qalırdım.

Və bu ölməz səhifələri yaratmış, daha heç vaxt toxuna bilməyəcəyim əlləri xiffətlə xəyalən öpürdüm.

Əziz ustad, bir vaxtlar Sizin də öpdüyünüz əlləri.

Doktor Cavad Heyətin qadir əllərini!..

14 avqust 2014

DR. CAVAD HEYƏT – MƏHDUD FÜRSƏTLƏR DAHİSİ

Prof. Rza Bərahəni, yazıçı (Kanada)

Doktor Cavad Heyəti tanımaq və tanıtmaq ilk baxışdan çox asan görünür. Maraqlananlar tanışlıq üçün bir neçə ümumi və xüsusi sayta müraciət edə bilərlər. Bu saytlar həm tibbə, həm də ədəbiyyata aid ola bilər; həm İranın, həm Azərbaycanın məşhur şəxsiyyətləri haqqında ola bilər. Onun adının daima bu mərkəzlərdə çəkilməsi bizim gözlərimiz önündə bir həyatın xırdalıqlarına varmadan ümumi bir mənzərəsini canlandırır:

1304-cü ildə Təbrizdə doğulmuş, Təbriz, Türkiyə və Fransada təhsil almış, məşhur ürək cərrahı, məşhur həkim Kristian Barnardın yaxın dostu və həmkarı, Paris Cərrahlar Akademiyasının üzvü, 50 il bundan əvvəl, İranda ilk dəfə, özü də 29 yaşında yeni üsulla ürək əməliyyatı həyata keçirən bir şəxsiyyət. Açıq ürəkdə ilk əməliyyat 1341-ci ildə, ilk dəfə böyrək transplantasiyası elə həmin onillikdə Tehranda insan üzərində və ilk dəfə ürək transplantasiyası it üzərində... Aydındır ki, bilik və savad şücaətlə birləşməzsə, elmin, mədəniyyətin və insanın işi irəli getməz. Heyət, məhdud fürsətlərin dahisidir. Elmin və mədəniyyətin məhdud imkanları ilə, elm və mədəniyyət əhlinin onlarla dağıdıcı bəlalarla üzləşdiyi bir şəraitdə ancaq işlə məşğul olub, gücü çatan nəticələr əldə edib, ya da gileylənərək, bu gileylə öz sıxıntı və qorxusunu gizlədib.

Amma məhdud fürsətlər dahisi öz zati istedad və qüdrətini elə bir işin vicdanına buraxır ki, sonunun nə olacağı əvvəldən bəlli deyil. Yalnız illər keçdikdən sonra anlamaq olur ki, uzaqdan şəhərin çıraqlarını görən səhv etməmiş, şəhərə daxil olmuş və bir-bir evimizin qapılarını döymüşdür. Nima Yuşicin təbirincə desək:

Sübhədək bu isti gecədə
Çıraq yandırdım, çünki
İstəyirəm daha da yaxşı yerdə tikəm
Korlar evində bir divar.
Tikdiyimə bir kor qoydu
Barmağını ki, onun üzərində eyiblər vardır...

Məhdud fürsətlər dahisi korlar evində divar tikir. Hətta əgər bu korlar bilmədən və anlamadan ittiham barmağını bu insana doğru uzadırlarsa belə, o, gecə qaranlığında kərpiç üstə kərpiç qoyur ki, sabah günəş çıxdıqda insanlar üzərində kölgəlik yaransın. Tibbə dair İran və dünya mətbuatında nəşr olunmuş 100 məqalə müəllifi, «Daneşi-pezeşki» aylıq jurnalının baş redaktoru, neçə xəstəxananın cərrahı, Cavid xəstəxanasının müdiri, bu və ya digər universitetin cərrahiyyə bölümünün rəisi, İran və dünya türklərinin soy, dil və ədəbiyyatı haqqında 7 əsaslı kitabın yazarı, Azərbaycan Respublikası Tibb Akademiyasının fəxri müəllimi, Azərbaycan-Ermənistan müharibəsində 100 iranlı həkimi yaralıların müalicəsi üçün Azərbaycana aparan şəxs, tibbə 50 illik xidmətinə görə İstanbul Universitetinin Tibb Qızıl Medalı laureatı, 26 il mərhum prof. Zehtabi və Dr. Həmid Nitqidən başlayaraq, başında görkəmli dilçi və ədəbiyyatçı, Dr.Heyətin özü kimi məhdud fürsətlər dahisi olan prof. Fərzanə kimi bir şəxsiyyətin durduğu müasirlərimizədək Azərbaycanın çox sayda farsdilli və türkdilli yazarlarının ümid yeri olan «Varlıq» jurnalının baş redaktoru və müdiri. Heyət öz

hakimlik fəaliyyətindən qazandıqlarını və atadan qalma miras payını bu məhdud fürsətlərə xidmətə xərcləmişdir.

Nə üçün «Heyət» adı bu qədər hörmət oyadır? Bəlkə bunun səbəblərindən biri onun yerli xalqa xidmətdə olan vicdanlılığı və yüksək ruhudur ki, biz bu xüsusiyyəti bu məntəqələrin çox az xadimində görmüşük. Frans Fanon və Eme Sezer kimi, lakin səviyyə və mövzu fərqi ilə. Barmağı diqqətlə xəstə üzərinə qoymaq, külliyyatı düşünməyərək, bir sahə və civara xas xəstəliyi təyin etmək və onunla mübarizə aparmaq. Məhdud fürsətlər dahisi başına tac qoyulmasına, bu universitetdən o universitetə dəvət olunmasına və nazının çəkilməsinə çalışmır. Məhdud fürsətlər dahisinin əsas özəlliyi doğma yurdunda hamının üzləşdiyi problemləri xırdalıqlarına qədər düşünməsindədir. Müstəmləkəçiliklə mübarizənin əsl pəhləvanları külliyyatdan başlamamışlar, xırdalıqlara üz tutmuşlar ki, bu xırdalıqlar bir yerə yığılsa, onunla uzaqdan əlaqədar olmaq mümkün deyil. Camaat müalicə olunmalıdır, ya yox? İnsanların bir ölkənin dilləri ilə bərabər, öz ana dillərinin öyrənilməsinə ehtiyacları var, ya yox? Uzaqdan baxdıqda, hər kəs külliyyatla razılaşır. Xüsusilə də biz, Kanadada yaşayanlar bilirik ki, Kebekdə yaşayan birisinə «Sən yalnız ingilis dilini öyrənməlisən! Bir dil, hətta əgər bu dil hər kəs üçün ögey dil olsa da». Kebekli adamın atasını yandırar, vətəndaş müharibəsi başlanar. Bunu «Hüquq inqilabı»nı yazan Maykl İqnatyev çox yaxşı bilir. Bunları biz də bilirik, lakin bu vəziyyəti öz ölkəmizdə öz gözlərimizlə gördükdə, mövcud yerli həqiqətlərə diqqət yetirməkdənsə, «bir millət – bir dil!» xürafatı ilə üzləşirik və müxtəlif milliyyətlərin dili ilə qərəzi olan Dr. Cəlal Mətini kimi insanları separatizmə doğru sürükləyirik, yəni Dr. Heyətin işlərinin əksini görürük. Heyətin yerli yaralara barmaq qoyması səbəbindən

biz irqçilik və millətçiliyi sınaqdan keçirir, tarixi təhrif edirik və öz insanlarımızı həmkarlıq və yardıma dəvət etmək yerinə daim Aryayi qövmünün Demokles qılıncını ərəb, türk və türkmən üzərində saxlayırıq. İranın müxtəlif dil və mədəniyyət sahiblərinə deyirik: «Ya qəbul et, ya öl»!

Məhdud fürsətlər dahisi Heyət bərabərlik və demokratiyaya, tarixin obyektivliyinə və müasir tarixin demokratik dərkinə təkid edir. Biz köhnə və çürük əqidələrə xidmət edən bir xalq istəmirik, biz keçmişin, bu günün və bugünkü xalqın, müasir insanların və müasir dünyanın parlaq mədəniyyət və demokratiyasının xidmətində olmasını istəyirik. Bizə «İran əhalisinin 67%-dən çoxu öz ana dilini unutmalıdır», deyən kəs orta əsrlər adamıdır, çağdaş dünyanın müasiri deyil, hətta əgər dünyanın hər hansı bir yerində kütləvi informasiya vasitələrinə malik olsa belə. Məhdud fürsətlər dahisinin işi kağız-qələmlə və 3 otaqlı klinikadadır. Bu klinikanın 2 otağı xəstələrin, bir otağı isə əzilmiş bir dil və mədəniyyətin ixtiyarındadır. Biz bu növ işə ürək bağladıq, çünki burada bütün məhrumlar və ölkənin bütün məhrum körpələrinin ümumi təhsilinin yolunu görürük. Sadə, lakin çətin, doğru, lakin «dünya telekanalları»ndan özünü nümayiş etdirmədən və bu gün birinə, sabah digərinə xidmətdə saqqal ağartmadan və utanmadan keçmişin və bu günümüzün məhdud fürsətlər dahilərinə papuş tikmədən qeyri-mümkün olan bir iş. İş, iş və iş! Bu iş ananın və ana dilinin övlad üzərində olan haqqına sədaqətli olanların məşğuliyyətidir. Bu insanlar başqa bir möhtərəm övladın anasının dilinin onlara məcburi olaraq əsl ana dil kimi qəbul etdirilməsini istəmirlər. Sonrakı dil gərək həmin övlad tərəfindən ölkədə və yerli şəraitdə seçilsin. Biz bütün xalqın öz xeyrinə bilirik ki, məntəqənin bir neçə dilini yaxşı öyrənsinlər. Fars, türk

və ərəb dilləri bu bölgənin ən böyük 3 dilidir. Biz bölgənin bu 3 böyük dilinin hər birinin müəllim və öyrəncilərinə hörmət edirik və fars dilinin ana dili və rəsmi dil olaraq bütün İran üçün zorla qəbul etdirilməsini rədd edirik. Bizim əsas təkidimiz insanların zehninin yenidən formalaşmasında yaxından xidmətləri olan, özlərindən və öz canlarından keçmiş insanların işlərinədir. Biz bu gün İraq, Əbu Qüreyb zindanı və Quantanamo faciəsini təsdiqləyən və dilənçi kimi əlmuzdu qarşılığında bəndəlik edən köhnə dostlarımızı bir qələmlə silirik. Onlar sanki bilmirlər ki:

Başını qırxan hər kəs qələndərlikdən anlamaz,
Üzü qızaran və parlayan hər kəs dilbərlikdən anlamaz,
Güzgü yaradan hər kəs İskəndərlikdən anlamaz.

Bu gün mələk üsullarını bilən Adəm övladı İran xalqı və İran övladlarının öz ana dilində danışmasını, təhsil almasını, universitet görməsini istəyən birisidir. Bunları istəməyən kəs isə İranı tikə-tikə görmək istəyəndir. Səttarxan rus bayrağını aşağı endirdi, Pişəvərini də Stalinlə Bağırov ekshumasiya etdilər (qəbirdən çıxartdılar) və bütün bunlar onların xalqın xalq üzərində hökumətinə sadiq olmalarından qaynaqlanırdı.

Bəli, Səttarxan, əslində, Tehrana getməsəydi, elə faciəli şəkildə qətlə yetirilməzdi. Pişəvəri də Sovetlər ölkəsinə getməsəydi, o cür faciəli şəkildə öldürülməzdi. Səttarxanı öldürənlər yad nişançılar idilər ki, onu öldürə bildilər. Pişəvərinin də düşmənləri belə idi.

O dövr artıq keçmişdir. Biz məhdud fürsətlər dahilərini istəyirik. 6x4 olan otaq, cah-cəlaldan uzaq bir klinika və bir tərəfdən insanların yaralarına və digər tərəfdən xalqın övladlarının ana dilinin nəbzinə əl qoyan 80 yaşlı cavan bir qoca. Bir yandan insanların yaralarını sağaldır, digər tərəfdən xalqın övladlarının ana dilinin keşiyində durur və bununla fərqli bir ziyalı tablosunu canlandırır. Bu ziyalı –

özümüzünkü və bütün məntəqənin ziyalısıdır, yerlidir və yerli hisləri bütün xırdalıqlarınadək diqqətində saxlayan bir dahidir. İndi isə aramızada olan bir neçə əhvalatı nəql etmək istəyirəm:

– 1348, (1349, ya 1350)-ci ildə biri mənə zəng etdi, səsi tutqun idi. Məndən istədi ki, bacardığım qədər tez Cavid xəstəxanasına gedim. Nə üçün? Çünki, Qulam oradadır və səni görmək istəyir. Nə olub ki? Heç bir şey olmayıb, sən hələ bir gəl. Mən getdim. Otağa daxil olduqda Saidi taxtın üstündə, şişmiş və yaralı üzlə, ağzı-dodağı bintlənmiş şəkildə uzanmışdı. Nə olub? Əsgər libasında olan bir qoluzorlu küncdə dayanmış və bu səhnəni müşahidə edirdi. Birincidən hündür olan başqa bir əsgər digər küncdə dayanmışdı. O duruşu və görkəmiylə sanki bildirmək istəyirdi ki, pis bir iş görməmişdir və əgər nə isə olmuşsa, onun günahı deyil. Qəziyyəni Dr.Heyətin özü və ya Saidinin qardaşı və özü də həkim olan Dr.Əkbər belə tərif etdi. Xəstəxananın rəisi olan Dr.Heyət Qulam-hüseynin başı, üzü və ağız-dodağını bintlə bağlamışdır. Qulamhüseyn sakitdir, çünki danışa bilmir və bəzən gözlərini o qoluzorluya və sonra bizə tərəf döndərir, bizə nəyisə anlatmağa çalışırdı. Dr.Heyətə izah edir ki, ötən gecə doktor açarla qapını açıb içəri girmək istəyir. Bu iki nəfər qarşısında peyda olurlar, onlardan biri onu pis söyüşlə təhqir edir. Saidinin reaksiyasını gözləmədən onu döyməyə başlayırlar və daha çox ağzının üstündən yumruqla vururlar. Küçədə yaranmış səs-küydən Əkbər, ev əhli və ətraf evlərin camaatı çölə çıxırlar. Saidini yum-ruqlayan kəs iddia edir ki, Saidi məst idi və söyüş söydü. Başqa birisi gəldi və doktoru döyərək aradan çıxdı. Biz ikimiz isə gəldik ki, doktorun halını soruşaq. Biz də soruşduq ki, əgər birisi doktoru vurub qaçdısa, niyə onu tutub saxlamadınız? Yalnız qoluzorlu danışırdı ki, qaranlıq

idi, bundan başqa ağa yaralı idi, gərək bir şey edəydik. Ev əhli Saidini xəstəxanaya çatdırmışlar. Sonralar Saidi bığlarını bir qədər geniş saxlayırdı ki, üzündəki tikiş izləri görsənməsin. Sonra bir nəfər komendant gəlir və o iki nəfəri aparır və danışa bilməyən Qulam öz böyük gözləri ilə mat-məbhut boş havaya tamaşa edir. Heyət deyir: «Şərəfsizlər!». Saidi Əkbərə işarə edir ki, onu aparsın və Heyət deyir: «Yox, hələ yox». Sonra isə Saidinin xəstəxanadan çıxmasına razılıq verir. Bu nə macəranın başlanğıcıdır, nə də sonu. Çünki neçə il sonra Saidinin qarnı və ayaqlarını bıçaqla tikə-tikə edirlər!

– İnqilabın ilk illərində «Əncüməni-Azərbaycan»ı öz zənnimizcə bərpa etdik. Bu hal bir neçə ay davam edir. Belə fikir oyanırdı ki, bir neçə Azərbaycanlı əncümən yolu ilə Azərbaycan dili və mədəniyyətini nizama salmaq istəyirlər. «Əncüməni-Azərbaycan» qaranlığa tərəf atılmış bir oxdur. Dr.Heyət, Dr.Katibi, Dr.Nitqi, ustad Fərzanə, Gəncəli Səbahi və onların hamısından kiçik və cavan olan mən. Müxtəlif iclaslar təşkil olunur, mənim yaxşı tanımadığım digər 3-4 nəfərlə birgə bir neçə nəfəri katiblər heyəti seçirik. Sonra təsadüfən, bir-birimizlə məşvərət etmədən görürük ki, işlər ya irəli getmir və ya bəziləri onun müəyyən bir səmtə getməsini istəyirlər. Nəyahət, bir-bir istefa veririk. Nüfuzlu şəxslər (solçular) istəyirlər ki, əncüməni öz partiyalarının xeyrinə müsadirə etsinlər. Onların iş tərzini bilirik. Hamımız bir-bir anlamağa başlayırıq. Əncüməndən çıxan birinci şəxs Dr.Nitqi, sonra ustad Fərzanə, sonra mən, sonra Heyət oldu. Qoy, karvanın dostu və oğrusunun şəriki tənha qalsın. Bunu Yazarlar Birliyinin də başına gətirmək istəyirlər. Orada bu dostlar azərbaycanlı deyillər. Yeri gəlmişkən, bu əhvalatın səsi çox tez çıxır və Yazarlar Birliyi hamını ixrac edir, çünki bu birlik məhdud fürsətlərin dərki yolu ilə şəxsi, ictimai və

maarif işlərinə nizam bəxş edən insanlardan təşkil olunmuşdur. Maarif işi nə yeraltı, gizli, nə də partiyaların işi deyil, insanların işi – gündəlik işdir. Bir millətin demokratiyası və mədəniyyətinin təlimi – həmin millətin və ictimaiyyətin hər bir üzvünün daxili və xarici aləmi ilə gündəlik təlimdir və bu işi yuxarıdan və ya xaricdən gələn bir fərmanla yerinə yetirmək olmaz. Hal-hazırda da zülmə məruz qalmış milliyyətlər arasında açıq-aşkar görürük ki, Dr. Mahmud Əfşarın, iki Pəhləvinin və onların İnayətullah Rza, Dr.Vərcavənd və Dr.Cəlal Mətini kimi ardıcıllarının bütün «zəhmətləri» hədər getmişdir. Bu məsələni açıq-aşkar dərk etmək üçün dahi olmaq lazım deyil. Sağlam ağıl buyurur ki, camaatın dilini kəsmək olmaz. Ana dili bir haqq və hüquqdur və hər bir haqq-hüquqdan da üstün və mühümdür. Ona xəyanət - ən pis xəyanətdir. Yeri gəlmişkən, çox rahatca yuxarı vəzifədə əyləşib, aşırı hörmət əldə edə biləcək bir sıra Dr.Heyət kimi şəxsiyyətlər, ana dilinin hər bir insanın doğal haqqı olması təfəkkürünü yalnız «taxta oturtmaq» üçün deyil, daha çox onu İran xalqının ehtiyacının əsas hissəsi kimi və ölkə əhalisinin 70%-nin dilsizlik, mədəniyyətsizlik və şəxsiyyətsizlikdən nicatı üçün bir ölkədə təbii şəkildə əsas müzakirə mövzularından birinə çevirmək, bu problemin xarici və məntəqədən kənar qüvvələrin fitnə-fəsadla öz mənafelərini qorumaq üçün öz xeyirləri və İran xalqının zərərinə «həll etmədən» əvvəl ölkənin öz daxilində həlli üçün hər növ məzəmmət və qınaq yükünün altına girməyə hazırdırlar. Məhdud fürsətlər dahisi – xəyali məsələlər dahisi deyil, həftəbəhəftə, aybaay, ilbəil faydalı bir işin dahisidir, belə ki, insanlar hər bir şeyi tədriclə, yavaş-yavaş anlayırlar və heç bir şey bu işin həllini səbirli və inadkar izahdan daha yaxşı sürətləndirə bilməz. Bu fikir məni artıq xülasə şəklindən çıxmış bu qısa yazının son nöqtəsinə çatdırır.

– Dr.Heyət bu 26 il ərzində özünün dilçilik, Azərbaycanın dil və ədəbiyyatı, dünya və İran türklərinin tarixi sahəsində qiymətli kitablarını çap etdirməklə yanaşı, «Varlıq» jurnalını da nəşr etmişdir. Bu jurnal bütün bu illər ərzində ülgücün iti ağzı üstündə hərəkət etmişdir. Azərbaycanın dili və mədəniyyəti, yəni İran əhalisinin 37%-dən çoxunun dil və ədəbiyyatı məsələsi çox həssas bir məsələdir. Millətçilər hər gün öz təzyiqlərini daha da artırırlar ki, dövlət «Varlıq» jurnalını bağlasın. Digər bir tərəfdən, Dr.Heyətin diqqətli və çox düşüncəli olma xüsusiyyəti bu jurnala hər hansı bir şübhə və nöqsanın daxil olmasına mane olmuşdur. Mətləblərin və insanların diqqətlə seçilməsi, jurnalın təqdimi üsulu Dr.Heyəti bu tələtümlü dövr ərzində ayaqda saxlamışdır. Dr.Heyət nə solçudur, nə sağçı, nə bitərəf, o, mühüm bir əsasa və mənşəyə etiqad edir və bu da, İran Azərbaycanının dil və mədəniyyətinin İran kimi çoxmillətli bir ölkənin dil və mədəniyyətinin bir hissəsi olmasıdır. Yalnız etiqad etdiyin bu əsasa tam bələd olmaqla, onu yaymaqla və ölkə mədəniyyətinin ən mühüm işi etməklə İran qövmləri və milliyyətləri arasında hüquqi və mədəni bərabərliklə yanaşı anlaşma bərqərar etmək olar. İran xalqının bu anlaşma saatı və anı üçün fürsəti çox qısadır. Mənim fikrimcə, Heyət – bu məhdud fürsətlər dahisi bərabərliklə birləşən anlaşma axtarışındadır. Bu anlaşmaya doğru addım atmaq bəşəri vəzifədir. Heyətin addımının qədrini bilək!

***

Xalqının dili qarşısındakı vicadı, ana yurdu Azərbaycana, özəlliklə də doğulduğu şəhər Təbrizə və əhalisinə olan eşqi ilə hamının dilinin əzbəri olan Dr. Cavad Heyət, ərmiş bir insan və məharətli bir həkim idi. O, başdan

etibarən çiyinlərinə aldığı vəzifəni, esaslı və səmavi bir fərizə olaraq görürdü və bir an belə vaxtını, maddi və mənəvi imkanlarını ona bağışlamaqdan əsirgəmədi. İranda Azərbaycan bölgəsi onun üçün sadəcə doğum yeri deyildi. O, başlanğıcdan bəri bütün iradəsini toplamışdı ki, xalqının mədəniyyəti və dilinin taleyindən bir an belə qafil olmasın. Bu həyəcan verici fədakarlıqda o qədər irəli getdi ki, sanki qeybdən gələn bir fərman, onu tək başına və İran Azərbaycan aydın və yazıçılarını bir araya gətirib, Azərbaycan Cumhuriyyəti ilə mədəni körpülər quraraq, ana dilini imkanları və həyatı əl verdiyi qədər canlandırmaq və yaymaq üçün məmur etmişdir. O, bu iş üçün ən ibtidayi imkanlardan ən yüksək imkanlara qədər səfərbər etdi. Həm özü böyük əmək sərf etdi, həm də digər Azərbaycan alim və şairlərini yardıma çağırdı ki, Azərbaycanın məzlum dili və mədəniyyəti yenidən nəfəs almağa başlasın, dirilsin. Azərbaycan xalqı da dərk etsin ki, ana dili, hər bir fərdin kimliyi və hüviyyətinin bir parçasıdır.

Dr. Heyət, başqalarını təşviq etmək gücüylə onları və işlərini dəstəkləmək gücünü birləşdirmişdi. Deyə bilərik ki, o, yarım əsrdən çox bir müddətdə öz verimli həyatını maddi və mənəvi olaraq bu böyük haqq, yəni ana dili, İran Azərbaycan Türkcəsinə sərf etdi və heç bir zaman da Azərbaycan Cumhuriyyət və İran Azərbaycanı arasında sağlam irtibat yollarının qurulması yolunda qafil olmadı.

İnsanlar bəzən haqq və həqiqət yolunda hərəkət etmək vəzifəsini öz vicdanlarından bir ilham olaraq alırlar. Rəhmətlik Dr. Heyət də bu milli və həyati vəzifəni sevgi və heyranlıqla öhdəsinə aldı və onu ilahi və dini bir fərizə kimi gördü. Ona görə də, onun ləhni və bəyanı; başqalarını, özəlliklə də gənc nəsli öz ana dillərini öyrənmə vəzifəsinə yönləndirməkdəki silahı sayılırdı. Elə ki, Azər-

baycanda öz ata-baba mədəniyyətinə sevgi bəsləyən gənc nəsillər, özlərini Ona borçlu bilirlər.

Bu vəfalı övlad, işində elə bir müqavimət və dayanış göstərdi ki, Azərbaycan Türkcəsinin heysiyyəti yenidən azərbaycanlılara qaytarıldı.

Rəhmətli Dr. Heyətin öz nəsli və sonrakı nəsillər, ana dillərinin tapdalanması nəticəsində uğradıqları həqarətlərdən bir dəfəlik qurtuldular və gördülər ki, bu həqiqi sərmayə onlara ana damarlarından belə yaxındı və bu sərmayəni işə salmaq üçün ciddi bir zərbəyə ehtiyac vardı.

Dr. Cavad Heyətin böyük ruhuna salam olsun. Öz anaları və ana dillərinin xatirəsini Dr. Heyətin insaneseverliyi ilə xatırlayanlara da salam olsun.

İndi Dr. Heyət, Azərbaycan xalqının kollektiv yaddaşının bir parçasıdır. Bu igit övladın, Azərbaycanın gənc nəsli və sonrakı nəsillərinin mənəvi atası Dr. Cavad Heyətin ruhuna salamlar olsun.

CAVAD HEYƏT HƏQİQƏTƏN UNİKAL ŞƏXSİYYƏT İDİ

Anar, Azərbaycan Yazıçılar Birliyinin sədri, yazıçı (Azərbaycan)

Abbas Səhhət deyirdi ki, Sabirin şeirləri İran inqilabına bir ordudan ziyadə xidmət göstərib. Cavad Heyət də İranda Azərbaycan dilinin yaşaması üçün, Quzeydə yaranan ədəbiyyatımızın Güneydə təbliği üçün, tariximizi təhrif edənlərə tutarlı, məntiqli elmi cavablar verməkdən ötrü bəlkə də, yüz kişinin görə bilməyəcəyi işi təkbaşına görürdü. Bir vaxtlar o da böyük alim və şair olan Həmid Nitqi onunla bərabər bu çətinliklərə sinə gərir, bu ağır yükü çiyinlərində birgə daşıyırdılar.

Cavad bəy: "Həmid Nitqi İranda olmayanda özümü tənha, kimsəsiz hiss edirəm”- deyərdi. Nitqinin vəfatından sonra Cavad bəy bu fəaliyyətində demək olar ki, yalnız qaldı, amma yolundan dönmədi, amalından çəkinmədi, həmişəki şövqlə, enerjiylə, həvəslə və əzmlə mübarək döyüşünü davam etdirdi.

Bu doğrudan da əsl döyüş idi. Millətin tarixini azdırmağa, dilini unutdurmağa, sıradan çıxarıb ancaq küçədə, bazarda saxlamağa rüsxət verənlərə, ümumiyyətlə, xalqın varlığını danmaq istəyənlərə Cavad bəy varlığıyla cavab verirdi. Həm böyük mənada, yəni özünün bu dünyada varlığıyla, həm də nəşr etdiyi "Varlıq" dərgisinin böyük hərflə yazılan adıyla. "Varlıq" – varlığımızın sübutu, özlüyümüzün təsdiqiydi.

Cavad Heyət həqiqətən unikal şəxsiyyət idi. Dünyaca məşhur həkim, həkimliyiylə ən yüksək məqamlara çata bilən, beynəlxalq miqyasda tanınan cərrah, bu qədər uğur qazandığı peşəsiylə kifayətlənmədi, insanların tək bir fiziki sağlamlığının keşiyində durmaqla yetinmədi, xalqının mənəvi səhhətinin də qayğısını çəkdi. Ensiklopedik biliklərə malik olan poliqlot – Avropa və Şərq dillərində yüzlərlə mənbəyə istinad edərək millətinin şərəfinə, ləyaqətinə sahib çıxdı, milli heysiyyətimizi növnöv qarayaxmalardan qorudu.

Cavad Heyət hər yerdə nüfuzu, yeri bilinən şəxsiyyət idi. Avropa ölkələrində elmi-tibbi konfranslarda da, İstanbulda türkoloji toplantılarda da, Tehranda, Təbrizdə yorulmaz maarifçilik fəaliyyətində də, son illər Bakıda xəstələrə şəfa verəndə də o böyük ürəyinin səsiylə hərəkət edirdi.

Cavad bəy haqqında, onunla səmimi görüşlərim, söhbətlərim barədə çox şeylər yaza bilərdim və yazacağam... İndi bu qısa vida sözləriylə kifayətlənirəm.

Cavad Heyətin yoxluğunu, onun elmi, ədəbi, mənəvi həyatımızda nə qədər önəmli yer tutduğunu bundan sonra daha dəqiq və dərindən dərk edəcəyik. Yeri həmişə görünəcək.

Son illər səhhətində yaranan narahatlıqlar bu böyük insanın fəaliyyətinə nisbətən təsir etmişdi, amma bu yaşda belə soydaşlarımızla bağlı olan tədbirlərdən qalmamağa çalışırdı: hər zaman öz ziyalı mövqeyini ortaya qoyurdu və bu münasibətlər hər zaman vaxtında, məqamında olması, gərəkliliyi, barışdırıcılığı ilə seçilirdi. Həm də dostlarına, xüsusilə səhhəti ilə qayğılanan arxadaşlarına son mənzilinin Bakıda olması arzusunu dilə gətirirdi.

Böyük azərbaycanlının müstəqil Azərbaycanın başkəndində dəfn olunması onun halal haqqıdır.Cavad Heyətin yeri hər zaman görünəcək və o, hər bir azərbaycanlının ürəyində, oxucularının qəlbində yaşayacaq

İSLAM MƏDƏNİ BÖLGƏSİNİN TƏBİB VƏ MÜTƏFƏKKİRİ

Zümrüd Quluzadə,
ictimai xadim, filosof (Azərbaycan)

Dövrümüzün ensiklopedist alimi, filosofu, ictimai siyasi xadim, XX-XXI əsr İslam mədəni bölgəsinin İbn Sinası, təbib və mütəfəkkiri CAVAD HEYƏT bundan sonra çoxşaxəli irsinin tədqiq və təbliği ilə və yaddaşlarda qalan yüksək insanpərvərliyi ilə yaşayacaq..

Azərbaycan xalqının bir xalq kimi kimliyini və yüksək mədəniyyətini dünyaya bəyan edən müasir tarixə bu xalqın azadlıq və ləyaqəti uğrunda mübariz kimi daxil olan Dr. Cavad Heyət, məzarının Bakı və ya Təbrizdə, yəni vətəni Azərbaycanda olmasını vəsiyyət etdi.

Beynəlxalq elmi informasiya məkanında dünya mənəvi mədəniyyəti tarixi kontekstində İslam bölgəsi mədəniyyəti və onun ayrılmaz hissəsini təşkil edən türk, o cümlədən azəri türklərinin mədəniyyətinin lazımi səviyyədə dəyərini almadığını görən Cavad bəy ömrü boyu bölgə xalqının ləyaqətini yüksək məharətlə müdafiə etmişdir. Alimin çoxsaylı əsərləri XX – XXI əsr elmi – tibb, fəlsəfə, dinşünaslıq, tarix, dilçilik, ədəbiyyat və digər sahələrdə dəyərli töhfələrdir. Dövrümüzün elmi və mənəvi inkişafında özünəməxsus yer tutan alimin irsinin tədqiqi və təbliği ilk növbədə həmvətənləri olan Azərbaycan türklərinin başucalığıdır. Yüksək mənəviyyat sahibi, söz və

əməli daima vəhdət təşkil edən, ömrü boyu xeyriyyəçi, təmənnasız həkim Cavad bəy Şərq mənəvi mədəniyyətinin Kamil İnsan məqamına ucalaraq dövrümüzün tarixinə Ulu şəxsiyyət kimi daxil oldu. Mütəfəkkir alimin fəaliyyətində elm və maarifin təbliği xüsusi yer tutub. O, uzun illər ərzində dəfələrlə müxtəlif adda elmi jurnalların təsisçisi və elmi rəhbəri kimi oxucusuna dünyanı dərk edərək özünü dərk və təsdiq etməkdə kömək etmişdir.

Adı və mahiyyəti ilə əbədiliyə iddialı olan "Varlıq" dərgisi Cavad bəyin yaratdığı ən dəyərli incilərdən biridir. Fəlsəfənin əsas mövzusu olan "varlıq" adı altında dərc edilən bu jurnalda artıq 40 ilə yaxındır ki, varlığın demək olar ki, bütün sahələrini təmsil edən tədqiqatlar çoxşaxəli vəhdətdə təqdim olunur, təbiət elmlərinə və ilk növbədə tibbə dair tədqiqatlar, humanitar elmləri təmsil edən yazılarla tamamlanır. Ensiklopedik səciyyə daşıyan həmin jurnalın məziyyətlərindən biri də odur ki, o, 30 milyondan artıq azəri türkünün məskunlaşdığı İranda tolerantlıq rəmzi olaraq həm türk, həm fars dillərində oxucuya təqdim edilir. Xüsusilə Dr.Cavad Heyətin "Varlıq"da dərc edilən məqalələrində Azərbaycan xalqının dili, tarixi, keçmiş və müasir mənəvi mədəniyyəti geniş əksini tapır.

Minnətdarlıqla qeyd etməliyik ki, müxtəlif ad və məzmunda jurnalların yaranmasında təsisçi və müəllif kimi iştirak etmiş Cavad bəy 18 il ərzində Azərbaycanda dərc edilən "Şərq fəlsəfi problemləri" beynəlxalq elmi – nəzəri jurnalının Redaksiya Şurasının üzvü və və jurnalda dərc edilən müəlliflərdən biri olmuşdur. Cavad bəy yazırdı: "Deməliyəm ki, uzun illər Qərb fəlsəfəsini, onun müxtəlif problemlərini araşdırmışam. Bu sahədə xeyli tədqiqatlarım var. Şərq fəlsəfə tarixini isə qədim dövrdən başlayaraq tədqiq etməyə cəhd edirəm".

Şərq və Azərbaycan fəlsəfəsəinə dair qaldırılan problemlər dəfələrlə Cavad bəylə müzakirə edilmiş və ondan xeyir-dua alınmışdır.

XX-XXI əsrin mütəfəkkir alimi Cavad Heyətin elmi irsinin mübaliğəsiz ensiklopedik səciyyə daşımasını onun Sizə təqdim etdiyimiz biblioqrafiyası bir daha təsdiq edir. Biblioqrafiyada alimin müxtəlif və çoxşaxəli istiqamətlərdə tədqiq və təbliğini tələb edən əsərlərinin adları sadalanır.

Elm tarixi baxımından məqsədəuyğun olardı ki, müəllifin müxtəlif dövrlərdə çap edilmiş əsərləri çoxcildli külliyyat şəklində dərc edilsin və həmin çoxcildlik Şərq və Qərb dillərində geniş annotasiya və tədqiqatlarla təchiz edilsin. Cavad bəyin müxtəlif sahələrə həsr edilmiş əsərlərinin tədqiqi kitab, dissertasiya və s.formalarda oxucular a təqdim edilməsi müasir elmin bir çox sahələrinin zənginləşməsinə səbəb olardı.

Mütəfəkkir alimin irsinin XXI əsr İslam mədəni bölgəsi və o cümlədən, Azərbaycanın elm və tədris sistemində təbliği elmi və mənəvi cəhətdən dəyərli və məqsədəuyğun olardı.

Hər iki dünyada, hazırda Allah dərgahında azəri türklərinin hüquqlarının müdafiəçisi, fitri millət vəkili olan Cavad Mirzəli oğlu Heyətə Adil Allahdan rəhmət diləyirik!

O TÜRK MİLLETİNİN KAHRAMANLARINDAN BİRİYDİ

Prof. Ahmet Bican Ercilasun (Türkiyə)

Milletler yaptıkları işler yanında kahramanlarıyla da yaşarlar ve kahramanlarıyla geleceğe iz bırakırlar. Cevat Heyet de Türk milletinin kahramanlarından biriydi. Bütün Türk milletinin ama öncelikle İran'da yaşayan otuz milyon civarındaki Türk'ün kahramanı. 12 Ağustos 2014 tarihinde onu kaybettik.

O bir savaş kahramanı değildi elbette. O bir kültür ve bilim kahramanıydı. Türkoloji'nin yok mesabesinde olduğu, Türk dil ve kültürünün değil araştırılmasının, yaşanılmasının dahi mümkün olmadığı yıllarda İran'da Türkoloji'yi kurdu. 1979 yılında çıkarmaya başladığı üç aylık Varlık dergisi bir dil, kültür ve edebiyat dergisi olarak hâlâ varlığını sürdürüyor. Türkiye'de dahi Türklükle ilgili bir derginin 35 yıl yaşaması çok seyrek görülen bir hadise iken o Varlık'ı İran'da 35 yıl devam ettirdi. Türk dili, edebiyatı, folkloru ve tarihiyle ilgili birçok araştırmayı ya kendisi kaleme aldı, ya arkadaşları. Dergideki araştırmalar bir yana, % 80 Türk diliyle çıkan bir derginin, İran'da Türkçenin yazı dili olarak varlığını sürdürmesi açısından da çok önemli bir rol oynadığı muhakkaktır. Nitekim Varlık yayımlanmaya başladıktan sonra İran'da Türkçe olarak yayımlanan dergi, gazete ve kitaplar birden bire süratle artmıştır.

1980 yılında Alparslan Türkeş, rahmetli Ahmet Karaca ile beni İran Türklüğü üzerinde bir küçük araştırma yapmamız için Tahran ve Tebriz'e göndermişti. Varlık dergisi, Cevat Heyet'in Tahran'daki muayenehanesinde hazırlanıyordu. O günlerdeki sıcak konuşmalarımızı unutmam mümkün değil. Onunla ve en yakın arkadaşı Hamid Nutki ile 1980'de başlayan dostluğumuz ömür boyu sürdü. Hamid Nutki'yi 15 yıl önce kaybettik, Cevat Heyet'i de bugünlerde. İran Türkleri arasındaki intibalarımı "İran'da Sekiz Gün" adıyla Töre dergisinde yayımlamıştım. Yazı, Türk Dünyası Üzerine İncelemeler kitabımda da var.

Cevat Heyet 1925 Mayısı'nın 24'ünde Tebriz'de doğdu. Tıp tahsiline Tahran'da başladı. Yıl 1943. Türkiye'nin Tahran büyükelçisi Kemal Hüsnü Taray'dır. Unutulmasın diye bu isimleri buraya yazıyorum. İran'ın tanınmış hukukçularından olan Cevat Heyet'in babası Mirza Ali Heyet'le Kemal Hüsnü Taray bir araya geliyorlar ve Türkiye'ye 100 talebe gönderme kararı alıyorlar. Cevat Heyet de gönderilenler arasında. Bugün İran'da Türklük şahlanmış durumda ise işte bu iki adamın kararının bunda rolü var. İstanbul Tıp Fakültesi'ni 1946'da bitiren Cevat Heyet akademik hayatına Paris'te devam eder ve 1952'de Tahran'a döner.

Heyet'in yüreğinde mevcut olan Türklük duygu ve sevgisi İstanbul'da bilinç hâline gelir. Arkadaşları arasında Faruk Sükan, Sadettin Bilgiç ve benim çok sevgili hocam Muharrem Ergin vardır. 1944-1945 yıllarının milliyetçi gençleri. Türklük ve Türkçülük aşkı işte bu çevrede gelişir.

O elbette İran tıbbının çok önemli bir ismi. İran cerrahîsinin öncülerinden. İran'da ilk açık kalp ameliyatı, ilk kalp kapakçığı nakli, ilk böbrek nakli... 12 yıl boyunca sürekli çıkardığı ilmî tıp dergisi. Paris Cerrahî Akademisi

üyesi. Azad İslam Üniversitesi Cerrahî Bölümü öğretim üyesi ve yıllardan beri İran üniversitelerinde okutulan cerrahlıkla ilgili kitaplar...

Fakat o bizim için her şeyden önce bir kültür adamı. İran Türkolojisinin bir numaralı ismi. Ana dili Azerbaycan Türkçesi. İlk ve orta öğrenim dili Farsça. İstanbul'da Türkiye Türkçesi. Fransa'da edinilen mükemmel Fransızca. Türkolojiyle ilgili yayınlarında bu dilleri rahatlıkla kullanıyor. Kuzey Azerbaycan'daki, Türkiye'deki, İran'daki ve Avrupa'daki neşriyatı izliyor. Âdeta bizim Meşrutiyet Dönemi aydınlarımıza benziyor. O da babası ve kardeşi Firuz Heyet'le birlikte 1956'da İran-Türkiye Dostluk ve Kültür Cemiyeti'ni kurdu. Tahran Büyükelçimiz Korkmaz Haktanır ile 1993'te Tahran'da Türk Kültür Merkezi'ni açtı. Türkiye'ye sürekli öğrenci gönderdiler. Bakü'deki, Tahran ve Tebriz'deki dostlar, hepimizin başı sağ olsun. Tanrı onu yarlıgasın ve Türklüğü korusun!

TÜRK DÜNYASI'NIN BIR 'AKSAKAL'I DAHA GÖÇTÜ

Alâaddin Korkmaz (Türkiyə)

Dr.Cevat Heyet Bey'i 1990 yılı Eylül'ünde tanıdım. Uzak bir yerlerde Varlık adında bir dergi çıkardığını kulaktan dolma biliyordum. O da, hiçbir habere doğrudan ulaşamadığımız zamanlarda bize Türk Dünyası'nın, hiç olmazsa bir kısım Türkiyatçısını tanıtan Aziz Ahmet Bican Ercılasun Hoca sayesinde.

Ne yapmak istediğini çok iyi bilen ve bir Bakan olarak çok üstün başarılara imza atmış olan Namık Kemal Zeybek, 'Bir Türk Dili kurultayı toplayalım' dediğinde, ben Kültür Bakanlığı Yayımlar Dairesi Başkanı idim ve aslında Daire'nin böyle bir görevi de yoktu. Sovyet sistemi sallanıyor ve bizim önümüze bir 'Türk Dünyası'nın çıkmak üzere olduğunu en iyi Bakan Zeybek hissediyordu. Kurultayı benden istemesi de tabii idi.Bu göreve geldiğim sırada Türk Ocakları Genel Sekreteri idim ve esasen hayatım bu tarz organizasyonları gerçekleştirmekle geçmişti. Çok küçük ve bu işler için tecrübesiz bir memur kadrom vardı.Buna rağmen, işi bizzat yöneterek ve her birisi benim şahsi dostlarım da olan akademisyen ülküdaşlarımdan aldığım yardımla Kurultay'ı topladık ve büyük bir başarı ile tamamladık.

Bu Kurultay'a 'Güney Azerbaycan'(İran) Türklerinin temsilcisi olarak rahmetli Cevat Heyet Bey'i davet ettik. İşte tanışma bu vesile ile oldu.

Kurultay'ın ana çalışma dallarından birisi de 'Türk Dünyası'nda Alfabe, İmla ve Yazı Dili Sorunları' idi. Aslında Kurultay'ı toplama sebebimiz de bu idi.Lakin ne kendi ülkemizde, ne de henüz daha ortaya bile çıkamamış 'Türk Dünyası'nda bu konular konuşulmamış olduğu için, Kurultay'a beş 'çalışma konusu' daha seçmiş ve Alfabe meselesini 6.sıraya koyarak 'dikkat çekmeme'ye çalışmıştık. Şimdi aldığımız mesafelere bakıp bu tarz ihtiyatlara tebessüm edenler olabilir, haklıdırlar da.Ama O zamanlar 'Türk Dünyası' terimini bile sadece rahmetli Turan Yazgan Hocamızın vakfında kullanabiliyorduk. Devlette böyle bir tabirin kullanılmasının 'mahzur'arına dair bizi uyaranlar da olmadı değil. Bunları detayları ile,Allah ömür verirse yazarız. Söylemek istediğim: Cevat Heyet Bey Kurultay'a alfabe konusunda bir tebliğ sundu ve özetle ''Türk Dünyasını birleştirebilecek olan alfabe 'Arap harflerinden geliştirilmiş Türk alfabesi'dir.'' dedi. Bu, pek tabiidir ki, Kurultay'ın amacına da, bizim (Türkiye'nin) hedef ve politikalarımıza da aykırı idi. Cevat Bey'in gerekçeleri doğru (ilmî) idi. Kurultay'a Türkiye'deki – araştırma görevlisi dr, doç, prof seviyesinde- bütün ihtisas erbabı katılmıştı, kalkıp pek itiraz eden de olmadı. Herkes, bazen ilmi gerçeklerle hayat pratiklerinin çakışmayacağını ve Türkiye'nin Arap harflerine dönmesinin artık mümkün olamayacağını, Türkiye dönemeyeceği için, Türk Dünyası'na da tavsiye edemeyeceğini iyi biliyordu.

Ben, naçizane, hayatım boyunca, saldırı, cehalet, saptırma ve demagojiden arınmış 'bilgi'nin benim bildiklerime, inandıklarıma aykırı olmasına hiç aldırmadım, böyle metinlere düşmanlık etmedim. Hoca'nın tebliğini Bakanlık

adına çıkarmakta olduğumuz ‘Milli Kültür’ dergimizde neşrettim.

Daha sonraki Tahran ziyaretimde (1991) Cevat Bey’in evinde konuğu oldum. Oraya gidiş sebebimiz bir ‘kitap fuarı’ idi. Rahmetli, fuardaki hemen her günümüz(on gün)de geldi,bizimle oldu. Büyük bir heyecanla Türkiye bölümünü ziyaret eden,izdiham yaratan hemşehrilerini seyredip gururlandı. (O İran seyahatinde, ‘Tebriz başta, Türk bölgelerini dolaşırım’ diye bir planım vardı,bu yüzden bir yerine iki arkadaşımı da götürmüştüm. Öyle bir izdiham oluştu ki, gidemedim.Gidemeyiş sebeplerinden biri de ‘iletişim’ için gerekli lehçe özelliklerinden haberdar olmayan arkadaşlarımın başarılı olamamalarıydı.Bir ay öncesinde Bakü’de iki haftaya yakın kalmış, lehçe pratiğimi geliştirmiştim. Tahran kitap fuarı vesilesiyle galiba oradaki soydaşlarımızla Türkiye arasında mühim bir köprü oluşturmuştuk. İlerde yazarım inşallah.Şu kadarını söyleyim: A.Bican Ercılasun Bey’in ‘Bugünkü Türk Alfabeleri’nin ‘Güney Azerbaycan’ sayfasından 15 bin adet, Arap-Kiril-Türk alfabesinde örneklerin yer aldığı formadan 5 bin adet bastırıp götürmüştüm. Orada dağıttık ve ‘köprü’ kuruldu.)

Bana dedi ki:’’Sen benim o Kurultay’da, aykırı bir fikirle tebliğ vermeme hiç ses çıkarmadın ve hatta bunu devletin dergisinde yayımladın. Ben de burada insanlara dedim ki: ’Bakın işte fikir hürriyeti denen şey işte budur: Sizin savunduklarınızdan farklı şeyler söyleyenlere de söz hakkı tanır, hatta bunu yayarlar. Bunu sağlayan ortam demokrasidir.’’ İran devletine ders verdiğini ve doğrusu çok gururlandığını hissetmiştim.

Hoca da artık Türkiye’nin Arap harflerine dönmesinin mümkün olmadığını biliyor, ama bir Türkolog olarak fikrini ilim çerçevesinde dikkate getirirken, İran devleti’nin

politikası ile örtüştüğü gerçeğini de göz ardı etmiyordu.Bu asla bir eyyamperestlik falan da değildi. (İlmen doğru bir fikirdi.) Çünkü,kendi toplumunun da itirazlarına rağmen, Varlık dergisi ile, mevcut 'Güney Azerbaycan Lehçesi'ni değil, İstanbul Türkçesine yakın bir 'yazı dili' kullanıyordu. Bu tutum-tercih, doğrusu Türk Dünyası için de çok büyük bir mesajdır.

Cevat Heyet,hayatının hiçbir dönemimde,en azından benim bildiğim bu, siyasetle uğraşmamış ve fakat iki alanda 'zirve' olmayı başarmıştır.Birincisi,asıl kariyeri-mesleği olan cerrahlık alanında dünya çapında bir tabip olarak tanınmıştır. Bu, ona memleketinde büyük bir itibar sağlamıştır. Garip bir şekilde kılık kıyafetle uğraşmayı hüner sayan 'İslam' devrimi' sonrasında, sokakta kravatıyla dolaşabilen nadir insanlardan biri Cevat Bey'dir..

Onun Türkoloji alanında da bir 'zirve' olmasına İran'da itiraz edilememiştir. Yaygın söyleyişin aksine 'Azeri' terimini değil, 'Türk' terimini kullanmış,'Türkçü' olduğunu hiç gizlememiştir. Babasının çok ileri görüşlü telkini ile geldiği İstanbul'da, Türkçülüğü birinci elden kaynaklarından (başta Zeki Velidi Togan, Hamdullah Suphi Tanrıöver olmak üzere) beslenmiş, böylece ikinci bir doktora ve profesörlüğü hak edebilecek seviyede neşriyat yapabilmiştir.

O yüzdendir ki, Aziz Bakanım Namık Kemal Zeybek'in kadirşinaslığı ile Ankara'da Tarihi Türkocağı Binası salonunda kendisi için yapılan '80.yaş jübile'sine İran Büyükelçisi de katılmış ve tören sonuna kadar kalkmayıp, takip ederek, ona devletinin duyduğu saygıyı göstermiştir.

O törende kendisine naçiz bir armağan olarak,çok sevdiği İstanbul'u ve Türklüğün büyük imparatorluğunu

hatırlatması dileği ile pirinçten (40x40) ‘Osmanlı Devlet Arması’ sunmak bahtiyarlığına erişmiştim.

‘Hamdullah Suphi Tanrıöver Türk Ocakları Kültür Armağanı’nın kendisine verilmesi için, naçizane teklif hissem ile takdimin yapıldığı 10 Nisan 2012 Türk Ocağı Kurultayı’nda Divan Başkanı olarak bulunmaktan da müftehirim.

Hayatta tanımaktan ve dostluklarına erişmekten bahtiyarlık duyduğum (yaşları benden,’baba’ diyebileceğim kadar büyük) birkaç insandan birisi idi.

Ailesine, Güney ve Kuzey Azerbaycan Türklerine ve Türk Dünyası’na baş sağlığı diliyorum. Allah Cevat Muallimden razı olsun,rahmet eylesin.

Hayrülhalefi Dr.Rıza Heyet Türkiye’de yaşamaktadır.

DOSTUM DR. CAVAD HEYƏTİN ƏZİZ XATİRƏSİNƏ

Seyfəddin Altaylı (Türkiyə)

Hər bir insanın ömür yolu vardır və o yolda onun uğurları, uğursuzluqları, sevincləri, kədərləri, dostları, Allah hamıdan uzaq eləsin düşmənləri, sevənləri, sevmiyənləri qarşısına çıxır. Ömür yolumda hər cürə bəlalarla, iztirablarla, dağ boyda çətinliklərlə üzləşdim, ancaq Tanrının da yardımıyla hamısının öhdəsindən gəldim. Gözəl insanlar tanıdım, şükür Tanrıya pislərlə üzləşsəm də onlarla ünsiyyət yaratmadan aralandım. Harda gözəl insanlar vardırsa gedib onları tapdım, onlarla dostlaşdım.

Güney Azərbaycanın ədəbiyyat dünyasını hələ orta məktəbdə ikən tanımağa başladım. Ədəbiyyat müəllimim həmişə klassik şairimiz Şəhriyardan, əvəzsiz əsəri Heydər Babadan söhbət açırdı. Onun söhbətləri şagird dostlarımı bilmirəm, ancaq mənim dünyamı başdan-başa bəzəyirdi, atamın Azərbaycanla bağlı təlqinləri ilə müəllimimin söylədikleri üst-üstə düşdüyündən xəyalımda əlçatmaz bir Güney sevgisi yaranmışdı. Universitetdə oxuyarkən "Varlıq" dərgisinin ədəbiyyat dünyamıza qədəm qoyduğunu eşitdim, sonra təsadüflər gözəl şairimiz Savalan ilə tanışmağıma imkan yaratdı. Onunla İstanbulda keçirdiyimiz bir neçə gündə Güney dünyasından dünya boyda sevgi çiçəkləri dərdim. Savalan bəy başda Şəhriyar, Dr. Həmid Nitqi, Dr. Cavad Heyət, Məhəmməd əli Fərzanə, əli Kamali, Qulamhüseyn Bəydili, Mirhidayət Hisari və digər

ziyalılarımızı mənə qiyabi olaraq tanış etdi. Varlıq jurnalını daimi olaraq izləməyə başladım və vaxt ötdü məktəb qurtardı, öz kəndimizə dönməli oldum. 1985-ci ildə TRT Türkiyənin Səsi Radiosu nəzdində fəaliyyət göstərən Azərbaycan Türkcəsi bölməsinə imtahanla daxil oldum, bir neçə aydan sonra da radionun rəhbərliyinə təyin olundum. Artıq Güney Azərbaycanlı dostların yazılarını daha yaxından izləməyə başladım. Ankarada keçirilən bir simpoziumda Dr. Cavad Heyətlə əyani tanış oldum. Azərbaycan ədəbiyyatına sevgi bəsləyən ağsaqqallarımızla Dr. Ahmət Bican Ərcilasun, Dr. Məmməd Kəngərli, mərhum Fəvzi Aküzüm, Ahmət Karaca, Nurəddin Hazar və digər bir neçə şəxsiyyətlə Heyət bəyin iftixarına verilən bir axşam qonaqlığında görüşdük. Ədəbiyyatımızın böyük şəxsiyyəti Dr. Cavad Heyət, Varlıq dərgisinin hansı yollarla və nə cür çap olunduğunu, Dr. Həmid Nitqi ilə ələlə verib hansı çətinliklərin öhdəsindən gəldiklərini danışdıqca hamımız heyrətə gəlirdik, o gecənin qurtarmasını istəməsəm də hər başlayan şeyin bir qurtaracağı vardı və təəssüf etsəm də qurtardı.

Sosiolojinin qanunlarına görə bəzi toplumları insanlar, yəni liderlər, bəzi liderləri də toplumlar yaradır. Məsələn Hindistanın azadruhlu xalqını yaradan Mahatma Qandini və Türk dünyasının əvəzsiz dövlət və siyasət xadimi Atatürkü birinci sadalanan fikrə nümunə göstərə bilərik. İngilis müstəmləkəsində nalə çəkən Hindistanı əsarət qandalından xilas etmək üçün pay-piyada yollara düşən Qandi, əlindəki əsası ilə şəhərbəşəhər, kəndbəkənd dolanıb irad etdiyi nitqlərlə xalqını oyatdı və toplumun əksəriyəti avam olsa da onlara aşıladığı azadlıq ruhuyla əsarəti qəbul etməyən insanlardan ibarət müstəqil ruhlu bir Hindistan toplumunu yaratdı. Atatürk də, dağıdılan Osmanlı İmperiyasının düşkün ruhlu insanlarına yeni bir ruh aşılayaraq

onları yeddi düvələ qarşı döyüşə səslədi və işğal olunmuş vətənimizi yad çəkmələrdən xilas etdi. Bu tipli liderlərə çoxluqla Şərq dünyasında rast gəlirik. Bir də toplumların yaratdığı liderlər vardır ki, bu tipli insanların əksəriyyətini isə qərb dünyası yaradıb. Onlar ziyalı kütlələrin içindən çıxıblar həmin kütlələrin arzusuna görə dövlətləri və xalqları nailiyyətlə idarə ediblər. Bu tipli liderlərə də İngiltərənin sabiq başnaziri Winston Leonard Spenser-Churchilli göstərə bilərik.

Varlıq dərgisinin təsisçisi olan Dr. Cavad Heyət ilə Dr. Həmid Nitqi və dərginin yazıçı heyəti də eynilə Mahatma Qandi kimi bir yol izlədilər və ziyalı bir Varlıq nəsli yaratdılar. Mənim aləmimdə bu nəsil Güneydə yetişən bütün nəsillərdən üstündür, çünki elmə üstünlük verir, ziyalanmağı yeganə məqsəd kimi qəbul edir, ziyalandıqca da özünə qayıdır, ona görə də düşmənləri çoxdur. 1977-ci illərdə ərəb əlifbasıyla yazılsa da İran coğrafiyasında Türkcə oxuyub-yazan insanların sayı barmaqla göstərilərdi, ancaq indi onların sayı onlarla milyonu ötüb. Bunun özü də hər oğulun bacara biləcəyi nailiyyət deyildir. Dr Cavad Heyət, qələm dostları və əqidədaşlarıyla başda da Dr. Həmid Nitqi olmaqla bu müqəddəs işi başarmış bir şəxsiyyətdir.

Dr. Cavad Heyət, sadəcə olaraq İranda tanınan ürək həkimi və ədəbiyyat sevdalısı bir insan deyildi. Dünya miqyasında tanınan bir cərrah, Türkiyədə və Azərbaycanda çox sevilən, Türk dünyasında tanınan görkəmli bir ədəbiyyat alimi və araşdırmaçısıydı. Onun Türk Dil Qurumunun şərəf üzvlüyünə seçilməsi də bunun nişanəsi deyildir mi?! Bu unvan, da hər insana qismət olan şey dəyildir.

Dr. Cavad Heyət ilə əyani tanış olmaq, onunla dostlaşmaq, bir süfrə başında duz-çörək kəsmək şərəfinə nail

olduğuma görə özümü dünyanın ən xoşbəxt insanı sayıram.

Tanrı müqəddəs kitabımız "Qurani-Kərim"də "Hər bir nəfs ölümü dadacaqdır" buyurub. Hər birimiz vaxtı gəldikdə bu dünya ilə vidalaşacağıq, Dr. Heyət də vaxtı çatdığı anda bu fani dünya ilə vidalaşıb əbədi aləmə köç etdi. Tanrı məkanını cənnət eləsin, ancaq o böyük və müqəddəs bir irs buraxıb getdi. Varlıq jurnalını davam etdirmək barədə Dr. Heyətin davamçısı olan dostlarının boynuna böyük bir məsuliyyət qoyub getdi. əminəm ki, "Varlıq" jurnalı, mərhum ağsaqqallarımız, dostluğu ilə fəxr etdiyim Dr. Cavad Heyətin, Dr. Həmid Nitqinin açdığı yolda davam etdiriləcəkdi.

"Varlıq" jurnalı digər tərəfdən İran ilə Türk dünyasının, xüsusilə də Türkiyənin və Azərbaycanın dostlaşmasında da öz öhdəsinə düşən vəzifəni layiqiylə indiyə kimi yerinə yetirib, indən belə də yetirəcəkdi.

Məkanın cənnət olsun əziz dost, unudulmaz əqidədaş...

UNUDULMAZ “BİLGƏ VARLIĞI”

Artum DİNÇ (Türkiyə)

Kültürlər arası etkiləşim sürəcləri, umumiyyətlə sancılı və sorunlu keçən tarixi dönəmləri təmsil edər. Günümüzdə dəyişik coğrafiyalarda, qarqınmış irqçi və ayrımçı ideolojilərin etkisindən qurtulabilməmiş bəzi güc çevrələri tərəfindən hədəf alınmış Türk Kültürü, həssas bir tarixi dönəmdən keçməkdədir.

Yox edilmə hədəfinə alınmış basqı altındaki kültürlərin daşıyıcı-eyləyicilərini sivil dirənişə cəsarətləndirən və basdırılmış kültürün kültürəl ünsürlərinin istifadəsini işləvsəl qılmağa çalışan şəxslərin, ilgili kültürlərin sürdürüləbilməsi üçün həyati əhəməyyti dartışılmazdır. Onlar öz kültürəl kimliklərinə qarşı aparılan *üstünçü*, *ayrımçı* və *aşağılayıcı* sürəcləri sezər və göstərərlər. Prof. Dr. Cavad Heyət bu bilincə sahib olan şəxslərdən biriydi. O, İran’da siyasi yetkə tərəfindən, Fars olmayan etnik kimliklərə qarşı aparılan *üstünçü*, *ayrımçı* və *aşağılayıcı* sürəcləri sezər və bu sürəclərə qarşı *etkili dirənmə*nin yollarını arayar.

Prof. Dr. Cavad Heyət yasal düzləmdə mövcud imkanları zorlayaraq İran’da Türk kültürünün sürəyənliyini sağlayacaq vəsilə və materyalları ən verimli bişimdə ilşətmənin yolunu *maarifçilik* hərəkətində görər. Bu səbəblə də İran’da Türklərin və kültürlərinin varlığını sürdürəcək etkinlikləri dəstəkləyərək özəlliklə elmi araşdırma və incələmə projələrinə öncəlik verər. Bu bağlamda, İran’da Türk kültürünün tarixi izləri və Türkçənin durumuyla bağlı birçox araşdırma və incələmə mahiyyətindəki işləri

məqalə və kitab biçimində yayınlanmışdır. Prof. Dr. Cavad Heyət'in bu sahədə, bəlkə də ən önəmli və ən zirvədəki əsəri, bugün etibariylə 36 ildir yayınlanmaqda olan üç aylıq *Varlıq Dərgisi* olduğu söylənəbilir.

Prof. Dr. Cavad Heyət, tanımlanması və özətlənməsi zor, öz həyatını aşmış bir olqudur. Onu düşünəndə, tanıdığım qədəriylə, aşağıdakı görüngülər canlanır düşümdə:

- Amaclanan hədəfə yönəlik tüm yetərsizlik və sıxıntılara baxmayaraq mövcud imkânları ən yaxşı biçimdə istifadə etmə bağlamında, *yaşadığı çağın ruhunu və şərtlərini doğru oxuyabilən*,
- *Sorğulayıcı yanaşım* və *məsuliyyət duyğusu* bağlamında, ayırdetdiyi məsələlərəöz dirayət və məharətinə xas bir stratejik öngörü ilə *geçərli və etkili çözüm yolları* gəlişdirəbilən,
- İran'da Türk Kültürü'nün sürəyənliyi açısından qarşılaşdığı *fürsət və təhdidləri doğru təşxis edib yorumlayabilən*,
- Tüm imkansızlıq və çətinliklərə rağmənçalışqan, səbirli və özverili yanaşımıyla İran'da *Türk Kültürü'nün sürdürülməsi* və *nəsildən nəsilə intiqal edilməsi* uğruna sarsılmaz istənc və çabalarıyla əlindən gələni əsirgəməyən *adanmış bir aydın*.

Prof. Dr. Cavad Heyət'in, *kültürəl bir dəyər* və *simgə*yə dönüşdüyünü və ardında buraxdığı boşluğun, çox çətin doldurulabiləcəyini düşünürəm. Onun, eyni zamanda; xorgörüyə qarşı *xoşgörü*nün, ötəkiləşdirmə, kin və nəfrətə qarşı *barış* və *qardaşlığın*, ayrımçılığa qarşı *ədalətin*, *söyləm və eyləm birlikdəliy*inin, *məsuliyyət duyğusu*, *qayğı* və *adanmışlığın* da simgəsi olduğu düşüncəsindəyəm. Unudulmaz "bilgə varlığı" yaşamım boyunca başvuracağım qaynaq olacaqdır.

BIÇAK VE KALEM ÜSTADI CEVAT HEYET

M. Rıza Heyet (Türkiyə)

Türk milleti tarihin farklı dönemlerinde, değişik coğrafyalarda ve çeşitli alanlarda insanlığa ve dünya medeniyetine çok değerli şahsiyetler armağan etmiştir. Eski çağlarda Farabi, İbni Sina, Kaşgarlı Mahmut vs. gibi birçok ilke imza atan bilgin ve düşünürler yetiştiren Türkler, günümüzde de bilim, kültür ve siyaset alanında çok sayıda şahsiyet topluma sunmuştur. Bu önemli düşünürlerden biri de; "İran-Azerbaycan Türklerinin Manevi Atası", "İki Azerbaycan'ın Aksakalı", "Çağımızın Dede Korkut'u", "Asrımızın Promete'si", "Bilge Dede" lakaplarıyla tanınan Prof. Dr. Cevat Heyet'tir.

Cevat Heyet, İran'da yaklaşık bin yıllık Türk hakimiyetinin sona erdiği ve Fars Pehlevi rejiminin iş başına geldiği 1925 yılında seçkin bir ailede doğdu. Büyük bir din ve siyaset adamı olan babası Ali Heyet, Kacar veliahdının danışmanıydı.

Osmanlılarla birlikte İttihad-i İslam Cemiyeti'ni kurmuş ve Anadolu Türkleriyle yakın bir ilişki içendeydi.

Meşrutiyet Fermanını Necef'ten Tahran'a götüren heyetin başında olduğu için Heyet soyadını almıştı. Türkçü düşünceleri ve Anadolu Türkleriyle olan yakın ilişkisi yeni kurulan rejimin hoşuna gitmese de hukuk alanındaki bilgisi ve deneyimi nedeniyle İran Yüksek Yargı Organı Başkanlığı ve Adalet Bakanlığına kadar yükselmişti.

Cevat Heyet babasının mesleğinden dolayı ilkokul, ortaokul ve liseyi Tebriz, Hemedan ve Tahran gibi farklı kentlerde tamamladı. Okulu birincilikle bitiren Cevat, 1941 yılında Tahran Üniversitesi Tıp Fakültesini kazandı. Orada üç yıl eğitim aldıktan sonra, İran'dan Türkiye'ye gönderilen ilk öğrenci gurubuyla birlikte İstanbul'a gelip 1946 yılında tıp doktoru oldu. Cevat Heyet'in İstanbul'a gelmesinde babasının önemli rolü vardı. Çünkü genç Cevat, o dönemin en ünlü üniversitelerinden olan Beyrut Üniversitesi'nde okumak istiyordu. Fakat babası "Oğlum, ben seni İstanbul'a gönderiyorum ki, tıbbın yanı sıra dilimizi, tarihimizi ve kültürümüzü de öğrenesin. Bunları öğrendikten sonra istediğin ülkeye gidebilirsin" diye Beyrut'a gitmesine karşı çıkmıştı.

İstanbul'da ayrıca üç yıl uzmanlık eğitimi alan Cevat Heyet, ihtisasını tamamlamak için üç yıl da Paris'e gitti ve 1952'de Tahran'a döndü. Amacı insanlara hizmet olan genç cerrah Cevat Heyet, dönemin kısıtlı imkanlarına rağmen, cerrahi ameliyatlara başladı. Genel cerrahiyle birlikte kalp ameliyatlarını da yapan Heyet, 1967 yılında İran'da ilk açık kalp ameliyatını başarıyla gerçekleştirdi. Ardından kalp kapağını değiştirme ve Tahran'da ilk defa böbrek nakli ameliyatlarını başarıyla hayata geçirerek, dünyada büyük ün kazandı.

Cerrahi ameliyatlarla birlikte bilimsel araştırmalarını da sürdüren Dr. Cevat Heyet, 12 yıl boyunca "Tıp Bilimi" dergisini yayımladı. Uluslararası tıp kurultaylarında, dünya tıp bilimine yenilikler getiren onlarca bildiri sundu. 1963 yılında Dünya Cerrahlar Cemiyeti ve 1983 yılında ise Fransa Cerrahi Akademisi'ne üye seçildi ve 1988'den itibaren yıllarca cerrahi profesörü olarak üniversitede çalıştı.

Prof. Dr. Cevat Heyet'in İran'da eğitim aldığı yıllarda ana dili olan Türkçe rejim tarafından yasaklanmış ve bu dilde herhangi bir kitap okumak, bulundurmak veya eser üretmek büyük bir suç sayılırdı. Babasından aldığı Türklük bilinci ve İstanbul'da Türk dili ve kültürüyle ilgili öğrendikleri, Cevat Heyet'i bir mücadele adamına çevirmişti. O, bütün baskılara rağmen Tahran'daki evinde Türkçe- Farsça şiir meclisleri düzenleyerek, Türk dilinde yazmayı teşvik ediyordu. Hatta bu amaçla büyük şair Şehriyar'ı ailesiyle birlikte Tahran'a çağırarak, kendi evinde misafir edip onu da tekrar Türkçe şiirler yazmaya heveslendirirdi. Cevat Heyet bir yandan hastaları tedavi etmek yoluyla halka hizmet ederken, öte yandan tıp alanında elde ettiği şöhreti bir kalkan olarak kullanarak, kendi millî kültürünü ayakta tutmaya ve yaymaya çalışıyordu.

Dr. Cevat Heyet'in Türklükle ilgili bilgileri yalnız okuduğu kitaplarla sınırlı değildi. O Türkiye'de tıp öğrencisiyken;

Zeki Velidi Togan, Fuat Köprülü ve Hamdullah Suphi gibi dönemin büyük şahsiyetleriyle yakından görüşüp, bilgi ve bilincini genişletiyordu. Bütün bir ilmi ve manevi birikim, aynı zamanda mücadele ruhu, Cevat Heyet'in 1979 İran devriminin hemen ardından açık kültürel faaliyete başlamasına zemin teşkil ediyordu. İran devrimi sonucunda Fars milliyetçiliği üzerinde kurulmuş olan Pehlevi rejimi yıkılmış ve yerini İslami bir devlete bırakmıştı. Bu değişikliği ve yeni koşulları değerlendiren Cevat Heyet, kollarını sıvayarak, İran'da ilk defa bir Türkoloji dergisi yayımlamaya karar verdi. Bu alanda bilgi sahibi olan araştırmacı ve aydınları işbirliğine çağırdı. İran'da Türklerin varlığı inkar edildiği için dergiye "Varlık" adı seçildi. Cevat Heyet artık yalnız bir tıp

doktoru değil, aynı zamanda arkadaşlarıyla birlikte, halkının yasaklanmış dilinin ve kültürünün koruyucusu ve kurtarıcısı gibi de ağır bir sorumluluk üstlenmişti.

Zamanla bir mektep, bir ekol ve gayr-ı resmi bir akademi hâline gelen Varlık dergisi, İran'da Türklerin bilinçlenmesinde, Türk kültürünün yayılmasında ve uzun yıllar yasaklanmış bir dilin yeniden canlanmasında çok önemli bir rol oynadı ve böylece, dünya Türkoloji biliminin önemli dergilerinden biri olarak literatüre geçti.

Cerrahi alanında birçok önemli kuruma üye seçilen Cevat Heyet, Türkoloji alanındaki hizmetlerinden dolayı da birçok ödüle ve onursal unvanlara layık görülmüştür. Azerbaycan Cumhuriyeti'nde ister tıp, ister Türkoloji alanında birçok üniversitenin fahri doktoru ve profesörü unvanını alan Cevat Heyet, Türkiye'de de Türk Dil Kurumunun şeref üyesi, İstanbul Üniversitesi Edebiyat Fakültesinin de fahri doktorudur. O, aynı zamanda Türk Ocaklarının kuruluşunun 100. yıldönümü münasebetiyle düzenlenen törende ödüllendirilmiştir.

İlmi faaliyetleriyle birlikte İran, Türkiye ve Azerbaycan arasında dostluk köprülerinin kurulması ve kültürel ilişkilerin doğru bir mecrada yoğunlaşması için büyük hizmetleri olan Prof. Dr. Cevat Heyet, devlet liderleri tarafından da her zaman saygıyla karşılanmıştır.

Ömrünü insanların tedavisi ve Türk kültürüne hizmete adayan büyük düşünür Prof. Dr. Cevat Heyet, şu anda Bakü'de tedavi görmektedir. Allahtan kendisine sağlık ve uzun ömür diliyoruz.

(Prof. Dr. Cevat Heyet 12 Ağustos 2014 tarihinde vefat etmiştir)

CAVAD HEYƏT “MÖCÜZƏ”SI

Pərvanə Məmmədli (Azərbaycan)

Doktor Cavad Heyət ötən əsrin əvvəllərində Azərbaycanda millətin nicatı yolunda yorulmadan mücadilə edən ziyalılarımızı xatırladırdı. O, Vətənin Güneyində Mirzə Cəlil sayağı xalqını “dilsizlikdən”qurtarmağa, Əli bəy Hüseynzadə təkin “ümmətdən millətə” (kimliyini tanımağa) keçməyə, Əhməd Ağaoğlu kimi milli haqlara və əsil islami dəyərlərə yiyələnməyə səsləyirdi.

Əli bəy Hüseynzadə Azərbaycanda ilk mətbu orqanının yaradıcısı Həsən bəy Zərdabinin xidmətlərini qeyd edib belə yazmışdı; ”Aləmi islam qaranlıqlar içərisində qaldığı zaman, bu adam əlinə məşəl alıb bu qaranlığı işıqlandırmağa çalışırdı. O məşəl əvvəlinci mətbu kəlam idi.

Cavad Heyət də Həsən bəy kimi qaranlıqları işıqlandıran o qutsal məşəli ötən əsrin 80-ci illərindən başlayaraq Güney Azərbaycanda yandırdı. O məşəl 35 ildən bəri Tehranda nəşr olunan “Varlıq” jurnalıdır. ”Varlıq” bütün parametrləri ilə artıq bir məktəbə çevrilib. Bizlərə, yəni quzeylilərə üç on il bir dərgini çıxarmaq asan görünə bilər. Amma kifayət qədər tibb sahəsində dünya nüfuzu qazanmış (Fransa cərrahlıq Akademiyasının üzvü, Dünya Cərrahlar Cəmiyyətinin İran təmsilçisi, siyahını çox uzatmaq olar) bir ziyalının ömrünün 5-ci onilindən başlayaraq paralel şəkildə tamamilə başqa bir sahədə, özü də adi ölkələrin birində deyil, siyasi, ziddiyət və gərginliklərdən heç zaman xali olmayan İran kimi bir ölkədə fəaliyyət göstərməsinə çox nadir hallarda rast gəlmək olar. Özünün

dediyi kimi daxildən gələn mənəvi ehtiyacdan,aclıqdan doğmuşdu bu istək.

Cavad Heyət dünyalarca tanınan cərrah kimi böyük nüfuz qazanmış böyük şəxsiyyət, hərtərəfli savadı, geniş erudisiyası olan ziyalı-vətəndaş öz imkanlarını «Varlıq»da ifadə edə bilmişdi. 35 ildən artıq bir zaman ərzində İranda Azərbaycan dilinin, ədəbiyyatının yaşadılması, «Varlıq» dərgisinin onun yaradıcısı Cavad Heyətin adı ilə ayrılmaz surətdə bağlı olub.

«Varlıq» dərgisinin yarandığı illərdə milli varlığının yaşamaq və məhv olmaq dilemması ilə qarşılaşan bir xalqın ana dilində sözə, fikrə böyük ehtiyacı vardı.Adı kimi fəlsəfi anlam daşıyan «Varlıq» Güney Azərbaycan mədəni mühitindəki bu boşluğu doldurmaq üçün yaranmışdı.

«Varlıq»ın yaradıcıları başda doktor C.Heyət olmaqla sonsuz fədakarlıq, sədaqət və zəhmətlə doğma xalqın mənəvi ehtiyaclarını ödəmək üçün çalışdılar.

Əvvəla qeyd edək ki, «Varlıq» jurnalının yarandığı vaxt Cənubi Azərbaycanda ədəbi dilin şimalda mövcud olan üslubları,qaydalrı yox idi. Fars təfəkkür tərzi ziyalıların danışıq tərzində və yazı üslublarında hakim kəsilmişdi. Dilin qanunları,orfoqrafiya və orfoepiya qaydaları haqqında təsəvvür zəif idi. Ən başlıcası isə azərbaycan dilini mükəmməl bilən ədib, jurnalist kadrlar çatışmırdı.

«Varlığ»ın həll edəcəyi birinci dərəcəli görəvi publisist dildə yeniləşmə, islahat etmək idi. Şimalda mövcud olan nailiyyətlərdən bəhrələnməklə ədəbi dildə vahid yazı qaydası yaratmaq idi.

Doktor Cavad Heyət dil probleminə toxunaraq demişdi: «İnqilabdan sonra İranda ana dilli nəşrlərdə vahid yazı qaydası yox idi. Ona görə də türkdilli mətbuat dil

problemi ilə qarşılaşdı. Fars və ərəb tərkibləri ilə yüklənmiş, fars dilinin bir çox təsirinə məruz qalmış Cənub danışıq dili məqsədə uyğun deyildi. Türkiyə türkcəsi də bizə uyğun gəlmirdi. Cənubi Azərbaycanın ədəbi dili üzərində dayanmağı qərarlaşdıq. Dili öyrənmək, onun zənginliyini, qüdrətini, göstərmək üçün isə o taylı dilçi alimlərin əsərlərindən istifadə edildi." Bunun nəticəsində Güney Azərbaycanda ədəbi dildə yeniləşmə prosesi baş verdi. «Varlıq» isə öz təmiz və kamil dil üslubu ilə başqa mətbuat orqanları üçün aparıcı və yol göstərici rolunu oynadı.

«Varlıq» ilk günlər dil-üslub problemini də tədricən aradan götürmüş, nəticədə ərəb əlifbası ilə sözlərin azərbaycan türkcəsində asan oxunması kimi vacib məsələni həll etmişdi. «Varlıq»ın bir mətbuat orqanı kimi özünəməxsus dili olub, digər mətbuat orqanları üçün də örnək rolunu oynayıb. Ortaq türkcə sözlərdən bol-bol istifadə edən dərgi ümumtürk nəşrinə çevrilə bildi. Dərgidə İrandakı digər türk xalqlarının da az öyrənilmiş ədəbiyyat, dil və tarixi araşdırılır, Azərbaycan xalqının mənəvi dəyərlərinə həsr olunmuş materiallara ümumtürk konteksti prizmasından yanaşılaraq bu məsələni kompleks halda həll etməyə səy göstərilir. Dərgi Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrinin nəşrində, yeni-yeni xalq sənətkarlarının üzə çıxarılmasında, Azərbaycan klassik ədəbiyyatının öyrənilməsi və təbliğində bir araşdırma mərkəzi kimi fəaliyyət göstərib. Nəşr olunduğu ilk dövrlərdən başlayaraq dərgi Azərbaycan ədəbiyyatının ümumtürk ədəbiyyatı kontekstində öyrənilməsi nəzəriyyəsini və ortaq türk dili düşüncəsini müdafiə edib. «Varlıq» Güneydə yeri boş olan anadilli ədəbi prosesi formalaşdırıb, onun modernləşməsində xüsusi mövqe tutub. Bu gün artıq Güneydə yetişən yazarların dünyadakı çeşidli ədəbi cərəyanları əks etdirən yeni və orijinal şəkil

və içərikli əsərləri bunun gerçək göstəricisidir.Dərgidə əsas yeri xalqın ictimai-siyasi problemlərini əks etdirən ədəbi örnəklərin nəşri tutur.

Dərgi üçün yazılmış yazıdan tutmuş, onun bütün tam hazır vəziyyətə gəlməsinə qədər, hətta böyük və kiçik şəhər və məntəqələrdə yayılması da bir neçə həmkarın üzərinə düşüb. Bu işin zəhməti üçün bir tümən belə almayan, əksinə yeri gələndə ortaya çıxan məsrəfləri ödəmək üçün imkanı daxilində maddi yardım göstərən redaksiya kollektivinin fədakarlığı müasir dövrümüzdə kommersiyanın hər yerdə ayaq açaraq qoyduğu qanunlarla bir araya sığmır. Böyük maddi çətinliklər və mənəvi təzyiqlər bahasına ərsəyə gələn böyük bir elmi mərkəzin görə bilmədiyi işin öhdəsindən gələ bilən dərginin yaradıcı heyətinə başqa ölkələrin ziyalıları yəqin ki, həsəd apara bilər.

«Varlıq» dərgisi Cənubda yaranmış folklor nümunələrini toplayıb nəşr etməklə xalqımızın zəngin şifahi söz sərvətini yaşadıb. Klassik ədəbi irsimizin bizə məlum olmayan nadir şəxsiyyətlərini və nümunələrini dərc etməklə Azərbaycan ədəbiyyatı tarixini zənginləşdirib. Eləcə də güvənc yerimiz olan ümumtürk abidələrini tədqiq etməklə ortaq tarixi-mədəni keçmişimizə elmi işıq salıb. Pəhləvi diktaturası dövründə açıq assimilyasiya siyasəti tüğyan etdiyi vaxtlarda, xüsusilə Güney Azərbaycanda 1945-1946-cı illər və 1951-1953-cü illər milli azadlıq və demokratik hərəkatları yatırıldıqdan sonra ölkədə azərbaycanlıların milli varlığını, onların dilini, ədəbiyyatını qoruyan və yaşadan başlıca amilin xalqın folklor yaradıcılığı olduğunu nəzərə alsaq, həmin dövrdə M.Ə.Fərzanə, Ə.Kəmali və bir sıra digərlərinin şifahi xalq ədəbiyyatı, başqa sözlə, ağız ədəbiyyatı nümunələrini toplayıb saxlamaq, qismən də olsa, nəşr etmək sahəsində fəaliyyəti böyük fədakarlıq idi və ilk saylarından "Var-

lıq"ın səhifələrində həmin müəlliflərin bu sahədə araşdırmalarının tədricən oxuculara çatdırılması özü xalq qarşısında böyük xidmətdir.

Doktor Cavad Heyətin redaktorluğu yaxından iştirakı və təsisçiliyi ilə nəşr olunan «Varlıq» dərgisi folklor, türk xalqlarının mifologiyası, tarixi-mənəvi varlığı klassik ədəbiyyatı ilə bağlı araşdırma mərkəzlərindən biri sayıla bilər. Türklərin tarixi təşəkkülü, türk dünyagörüşü və mədəniyyətinin dünya sivilizasiyasında yeri, rolu haqqında silsilə tədqiqatlara öz səhifələrində yer ayırması «Varlıq» dərgisinin böyük tarixi xidmətləridir. Hələ Şimaldaşsovet dönəmində bu tipli tədqiqatların geniş vüsət almadığı bir vaxtda Cavad Heyətin türk dövlətləri, türk xalqları haqqında böyük informasiya tutumu olan məqalələrinin nəşri milli mənəviyyatımızın öz kökü, əsli ilə ilişgilərini üzə çıxartmaqda böyük rol oynamışdır.

Qədim türk ədəbi nümunələri, yazılı qaynaqları haqqında Cavad Heyətin tədqiqatları ana dilli ədəbiyyatımızın tarixi kökləri haqqında da zəngin məlumat verir. Cavad Heyətin bu səpgili araşdırmaları «Türklərin tarix və mədəniyyətinə bir baxış» adı ilə Bakıda nəşr olunandan sonra «Varlığın» tarixi, ictimai və milli-mənəvi çəkisi haqqında təsəvvürlər daha da zənginləşdi. Əslində şovinist siyasət yeridən məmləkətdə bu tipli tədqiqatların nəşr edilməsi, Cənubda yaşayan soydaşlarımızın öz tarixi kökünə qayıdışı üçün zəmin hazırlayırdı. Şimalda isə uzun müddət türk xalqlarının tarixi birtərəfli, səthi öyrənilmiş və nəzəri baxımdan məlum qəliblərə əsaslanmışdı.

Cavad Heyətin, ümumilikdə isə «Varlığ»ın bu istiqamətdəki fəaliyyəti Azərbaycan türkləri üçün öz tarixlərini öyrənməkdə zəngin məlumat, informasiya vermək baxımından qiymətlidir. Cavad Heyətin türk tarixinə dair araşdırmalarında Azərbaycan faktoru əsas yer tutur.

Otuz ildən çox il öz vəsaiti ilə çıxardığı bu dərgi vasitəsilə İran türklərinə aşırı Pəhləvi dönəmində uzun illər az qala yadırğadıqları ana dilini yenidən öyrədib, milli mədəniyyətə, tarixə sahib çıxmağa çağırıb, milli kimliyi tanıtdı Cavad Heyət.

C.Heyətin İrandakı bir çox türk aydınlarının boynunda haqqı az olmayıb. Yeri gələndə onlara təbib kimi qulluq göstərib, sağaldıb, bəzən də türkcə yazıb yaratmağa yönəldib, həvəsləndirib. Doktor Heyət Pəhləvi rejimi ilə silahlı savaşda yaralanan, İranda modern şeri formalaşdıranlardan biri, istedadlı şair Əlirza Nabdilin (Oxtay) son anlarını görüb, təsəlli verib yaralarını sarıyıb. Digər iki həmyerlisi, ömrünün sonralaında Fransada yaşayıb yaradan istedadlı nasir,dramaturq Qulamrza Saedi və bu gün Kanadada dissident yazar kimi yaşayıb ədəbi fəaliyyət göstərən, dəfələrlə Nobel mükafatına təqdim olunan ünlü yazar, tənqidçi Rza Bərahəni ilə dostluq etmiş,onlara əsərlərini türkcə yazmağı tövsiyyə etmişdi. Doktor Heyətin həyata 29 yaşında göz yummuş yuxarıda adı çəkilən Ə.Oxtayla bağlı söylədiyi xatirələr və onunla xəstəxanadakı buluşmaları Rza Bərahəninin yazdığı "Öldürülənlərin şərqisi" adlı romanında əks olunub. Bu romanda doktor Cavad Heyət doktor Cudi kimi təsvir olunub. Əsərlərinin yalnız cüzi hissəsi ana dilində olsa da bu iki ünlü yazarın əsərlərinə həmişə türklük ruhu hakim olub, bu ruh onların yaratdıqları qəhrəmanların xarakterində, təfəkkür və davranışında aydın sezilib. M. Şəhriyarla, Səhəndlə məslək və könül yoldaşı olan doktor Heyət onları da ana dilində yazmağa təşviq edib.Şəhriyar məşhur azərbaycan türkcəsində yazdığı şeirdən sonra "cəzalandırılılıb" yatağa düşəndə onu Təbrizdən Tehrana çağırıb. 6 ay

ərzində evinin birinci qatını ona ayırıb onunla hörmətli qonağı və pasienti kimi ilgilənib

Doktor Cavad Heyətin azərbaycançılığı, bütöv Azərbaycan mədəniyyətinin tarixi missiyasını düzgün hiss etməsi, nəhayət, onun bu mənəvi sərvəti bütün xalqın malı etmək uğrunda mübarizəsi tam gücü və dolğunluğu ilə ustadın dərc etdiyi "Varlıq" jurnalı və bu dərginin nəşrində öz təcəssümünü tapmışdır.

1978-1979-cu illər İran inqilabının qələbəsindən və İran İslam Cümhuriyyətinin (İİC) elan edilməsindən dərhal sonra - 1979-cu ilin aprelindən nəşrə başlayan "Varlıq" jurnalı və bu dərginin səhifələrində özünə yol açmış Cavad Heyət publisistikasının aparıcı və daimi istiqamətləri şahlıq istibdadının qadağalarından sonra bərpa və yardıma böyük ehtiyacı olan Güney Azərbaycandakı mədəni həyatın bütün sahələr üzrə inkişaf yollarının hamarlanması məsələləri və onun bölünməz mədəniyyətinin problemləridir.

İranda yeganə türkdilli toplu olduğundan Cənubda yeni yaranan ədəbiyyat nümunələri «Varlıq» vasitəsilə oxuculara çatdırılırdı. Geniş oxucu kütləsi inqilabdan sonra Cənubda yaranan poeziya və nəsr örnəkləri, həmçinin inqilaba qədər nəşri yasaq olunmuş bəzi əsərlərlə «Varlıq» vasitəsilə tanış olurdular. Azərbaycan xalqının çoxəsrlik zəngin ədəbiyyatı da bütün özəllikləri ilə «Varlıq»da çap olunurdu. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycan-İran arasında sərhədlər artıq keçilməz deyildi. Gediş-gəliş xeyli asanlaşmışdı. «Varlıq»ın da Şimalla bağlı mövzu dairəsi çox genişlənmişdi. Quzey Azərbaycanın müstəqillik qazanması Güney Azərbaycanın mədəni həyatında canlanma yaradaraq nisbi dirçəlişə səbəb olmuşdu. Təbii ki, «Varlıq»da bu cür dəyişikliklər, xalqın həyatındakı ictimai hadisələri özündə əks etdirirdi. O illərdə dərgi bir

növ oxucuların tribunasına çevrilmişdi. Adətən, oxucular öz məktublarında onları narahat edən məsələlərə toxunurdular. 90-cı illərdən üzü bəri Quzey Azərbaycanda baş verən mühüm hadisələr «Varlıq»da öz əksini tapırdı. Qırmızı Ordunun Bakıya basqını ilə törədilən 20 yanvar faciəsi, Qarabağ müharibəsi, erməni işğalçılarının Azərbaycan torpaqlarına təcavüzü və onların cinayətləri ilə bağlı materiallar dərginin hər sayında verilirdi. Dərginin səhifələrində yaxın və uzaq keçmişimizə aid olan bir çox tarixi sənədlərə də tez-tez rast gəlmək olardı. 90-cı illərdən başlayaraq Quzeyli alimlərin yazıları «Varlıq»da müntəzəm görünürdü.

Cavad Heyət milli ruhlu Azərbaycan ziyalılarını bu dərginin ətrafında cəmləşdirmiş, Cənubla Şimal arasında mənəvi körpü olmuşdu. «Varlıq» bu körpünün özülü olub. Özünün qeyd etdiyi kimi, «Varlıq» onun varlığı olub.

«Varlıq» təkcə Şimal və Cənub arasında birlik körpüsü olmayıb bütün türk dünyasının keçmişi, indisi və gələcəyi haqqında mötəbər elmi, ədəbi yazılar verməklə türk xalqlarının birliyinə xidmət edib. Qədim türklər, orta türklər, İslam dövrü və sonrakı dövrdə türk dövlətləri və mədəniyyəti haqqında silsilə tədqiqatlar öz soy-kökünü dərk etməkdə hər bir türkə yardımçıdır. Xüsusən İran və Amerikada, Avropa ölkələrində yaşayan türkdilli xalqlar üçün bunun ictimai-siyasi əhəmiyyəti olduqca böyükdür.

Dərginin fəaliyyəti təkcə Cənub ədəbiyyatının nümunələrinin nəşri ilə məhdudlaşmamış, yaradıcı heyət Şimalda yaranan ədəbiyyatın ən yaxşı örnəklərinin cənublu oxuculara çatdırılmasına önəm vermişdir.

Cavad Heyətin Varlıq" dərgisi Azərbaycanın müasir həyatında bir hadisədir. Onun fəaliyyəti həm İrandakı, həm də Quzey Azərbaycandakı azərbaycanlıların milli şüurunun formalaşmasında mühüm amillərdən biri kimi

qiymətləndirilməlidir. Cənubda və Şimalda da 80-ci illərin ikinci yarısından etibarən vüsət almış milli azadlıq və demokratik hərəkatımızın köklərindən bir qismi də "Varlıq"a, onun naşiri və yazarı - bir sözlə, canı və ruhu Cavad Heyətə gedib çıxır. Onu da qeyd edək ki, Cavad Heyətin ”Varlıq” dərgisində gedən yazılarının böyük hissəsi sonralar kitab halında Tehran və Bakıda və Ankarada çap olunmuş “Azərbaycan şifahi xalq ədəbiyyatı”, ”İki dilin müqayisəsi”, “Azərbaycan ədəbiyyatına bir baxış”, “Türklərin tarix və mədəniyyətinə bir baxış”, “Ədəbiyyatşünaslıq”, “Azərbaycan ədəbiyyatı tarixinə bir baxış”, “Qərb fəlsəfəsi tarixi. Bertran Rassel” (Cavad Heyətin təqdimində) və “Türk dili və ləhcələrinin tarixi” adlı səkkiz kitabda öz əksini tapıb.

"Varlıq"da, xüsusilə məhz Cavad Heyətin özünün məqalələrində bütöv Azərbaycan xalqının milli dediyimiz həmin şüurunu qidalandıra biləcək mövzuların əksəriyyətinə toxunulmuşdur.(“Varlıq” jurnalının 20 ildə çıxan saylarını araşdıran və bununla bağlı ayrıca ilk dəfə elmi monoqrafik kitab nəşr edən - təqdim olunan yazının müəllifinin bu fikri söyləməyə yəqin ki, qətiyyəti çatır)*

C.Heyətin elmi-publisistik fəaliyyətində İranda Azərbaycan tarixini məqsədəyönlü şəkildə saxtalaşdıran, dünya ictimai fikrini azdırmağa çalışaraq xalqımızın tarixi ilə əlaqədar əsassız iddialar irəli sürən müxtəlif fikir sahibləri ilə cəsarətli mübarizə də həmişə mühüm yer tuturdu.

Dərgi ayrı düşmüş iki qardaşın bir təfəkkür, bir düşüncə işığında birləşməsində tarixi bir missiyanı yerinə yetirir, Cənubu Şimala, Şimalı Cənuba qovuşdururdu. İlk növbədə Güney Azərbaycanda milli hərəkatın inkişafına

---

* Bu məqalələrdə doktor Cavad Heyət həm dilçi, həm də tarixçi kimi görünür.

milli özünüdərk prosesinə xidmət edib, ikiyə bölünmüş xalqın siyasi, mədəni və bədii təfəkkür baxımından qovuşmasında əvəzsiz rol oynayıb. Dərgidə vahid Azərbaycan mədəniyyəti konsepsiyası rəhbər tutulub.

Farsca ürəyə del, dil deyirlər. Azərbaycan türkcəsində bu kəlam sözün klassik məqamlarında işlənir. Amma fars dili ilə müqayisədə fərqli məna daşıyan doğma dil sözümüz də vardır. Cavad Heyət tək ürək həkimi olmayıb, həm də Azərbaycan türklərinin dilinin, lisanının həkimi, təbibi oldu. Şəhriyarın "Varlıq" dərgisinə həsr etdiyi şeirində* söylədiyi kimi lal olmaqla, karlıq və korluq mərəzinə də tutulmuş bir xalqı doktor Cavad Heyət büsbütün sağaldıb, dilini açdı, onu danışdıra bildi. Bu, bir həkim kimi Cavad Heyətin göstərdiyi möcüzə idi. Vətəninin oğlu kimi ulusuna göstərdiyi əvəzolunmaz xidmət idi. Cavad Heyət tək elə xalqı üçün etdiyi bu möcüzəvi xidməti ilə özünə əbədi yaşarlıq qazandı, cismi bizləri tərk etsə də. Cavad Heyət həm də özündən sonra milli kimliyini tanıyan, dilinə, ədəbiyyatına, mədəniyyətinə sahib çıxıb qoruyan, ona dəyər verən yeni bir nəsil yetişdirdi. Bu gənc nəsil onun saldığı yeni yolun davamçılarıdır!

Rahat uyu, ruhun şad olsun, ustad!

---

* Dil açmada karlıq da gedər, korluğumuz da,
Çün lallığımız doğmuş idi karlığımızdan.

CAVAD HEYƏT HAQQINDA ÜRƏK SÖZLƏRİ

Baş sağlığından

Azərbaycanın elmi-ədəbi ictimaiyyətinə ağır itki üz vermişdir. Görkəmli həkim, Paris Beynəlxalq Cərrahlıq Akademiyasının üzvü, tanınmış publisist və ədəbiyyatşünas Cavad Mirzəli oğlu Heyət 2014-cü il avqustun 12-də ömrünün 90-cı ilində vəfat etmişdir.

Cavad Heyət 1925-ci il may ayının 24-də Təbriz şəhərində anadan olmuşdur. Orta hərbi məktəbi bitirdikdən sonra o, Tehran Universitetinə daxil olmuş, ikinci kursdan ali təhsilini Türkiyənin İstanbul Universitetində davam etdirərək 1943-1946-cı illərdə burada tibb fakültəsində oxumuşdur.

Əmək fəaliyyətinə 1946-cı ildə İstanbul Universitetində başlayan Cavad Heyət 1949-cu ilədək burada cərrahlıq klinikasında çalışmış, daha sonra ixtisasını təkmilləşdirmək üçün Paris Universitetinin cərrahlıq kafedrasında işləmişdir. O, 1952-ci ildə yüksək dərəcəli cərrah ixtisasına yiyələnərək İrana qayıtmış, 1953-cü ildən Tehranda Hidayət və Ədliyyə xəstəxanalarında cərrahlıq klinikaları quraraq onlara rəhbərlik etmişdir.

Doktor Cavad Heyət İranda eksperimental cərrahiyyənin təməlini qoymuşdur. 1954-cü ildən etibarən ürək üzərində apardığı əməliyyatlar onu istedadlı cərrah kimi tanıtmışdır. 1969-cu ildə o, Tehranda ilk dəfə transplanttasiya əməliyyatını uğurla həyata keçirmişdir. Bir çox cərrahi əməliyyatlar məhz onun adı ilə bağlıdır. Tibb sahəsində qazandığı nailiyyətlər Cavad Heyətə geniş şöhrət gətirmişdir.

Doktor Cavad Heyət təbabətə dair qiymətli araşdırmaların müəllifi kimi də tanınırdı. Onun kitabları tibb sahəsində yazılmış dəyərli vəsait kimi mütəxəssislər tərəfindən daim yüksək qiymətləndirilmişdir. Bir sıra beynəlxalq elmi forumlar və toplantılarda öz təcrübəsinə əsaslanaraq dərin məzmunlu məruzələrlə çıxış etmiş alimin 100-dən artıq məqaləsi müxtəlif tibb jurnallarında işıq üzü görmüşdür. Cavad Heyət uzun müddət cərrahlığın tədrisi və cərrahların yeni nəslinin formalaşdırılması ilə məşğul olmuşdur.

Cavad Heyətin zəngin və çoxşaxəli səmərəli fəaliyyətində Azərbaycan ədəbiyyatı tarixi, türk xalqlarının keçmişi, milli folklor və eləcə də islamşünaslığa dair tədqiqatlar mühüm yer tutur. Bu əsərlərdə Azərbaycan dilinin inkişaf mərhələləri, şifahi xalq ədəbiyyatı, ədəbiyyatşünaslıq, folklor, ədəbi tənqid, publisistika və fəlsəfə tarixinin ən müxtəlif məsələlərindən əhatəli bəhs olunur. Mədəniyyətin müxtəlif problemlərinin öyrənilməsinə münasibətdə tarixi həqiqətlərdən çıxış edərək obyektivlik nümayiş etdirən alimin ədəbi simpoziumlarda və türkoloji konfranslarda çıxışları həmişə təqdirlə qarşılanmışdır. Onun tədqiqatlarında və publisistik məqalələrindəki əsas fikirlərin böyük qismi təsis etdiyi "Varlıq" jurnalında əksini tapmışdır.

Cavad Heyət eyni zamanda, Azərbaycanın elmi və mədəni nailiyyətlərinin geniş tanıdılması, eləcə də ədəbi əlaqələrin möhkəmləndirilməsi işinə layiqli töhfələr vermişdir.

Görkəmli cərrah, tanınmış ədəbiyyatşünas və səmimi insan Cavad Heyətin işıqlı xatirəsi onu tanıyanların qəlbində həmişə yaşayacaqdır.

Azərbaycan prezidenti İlham Əliyev, Milli Məclisin sədri Oqtay Əsədov, baş nazir Artur Rasizadə və b.
13.08.2014

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ İLHAM ƏLİYEVƏ

Hörmətli cənab Prezident!

Ailəmizin və nəslimizin baş ucalığı, bütün Azərbaycanın, İranın və türk dünyasının iftixarı doktor Cavad Heyətin vəfatı bizi sonsuz dərəcədə kədərləndirsə də, bu ayrılıq günlərində onun parlaq adına və əməklərinə göstərilən dövlət diqqəti və ümumxalq məhəbbəti təsəllimizə çevrilmiş, hamımızı dərindən təsirləndirmişdir.

Cənab Prezident!

Görkəmli alim və ictimai xadim Cavad Heyət haqqında mətbuatda dərc edilən vida sözlərinin altında ilk imza Sizinki idi və sağlığında doktora heç vaxt əsirgəmədiyiniz ehtiram və qayğını ömrünün bu son parçasında da ən ali şəkildə nümayiş etdirdiniz. Müalicəsi üçün bütün imkanları səfərbər etməkdən tutmuş doktor Cavad Heyətlə vida mərasiminin dövlət səviyyəsində təşkilinədək zəruri addımların atılmasındakı qayğılarınız və lütfünüz unudulan deyil, Sizin bu nəcibliklərinizi həmişə minnətdarlıqla yad edəcəyik.

Atanız, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevə səmimi məhəbbət bəsləyən doktor Cavad Heyət Sizin də onun böyük yolunun layiqli davamçısı olduğunuzu iftixarla söyləyər, nailiyyətlərinizdən hər zaman qürur duyardı.

Azərbaycanın son illər ərzində ən müxtəlif sahələrdə nail olduğu misilsiz yüksəlişlər, xüsusilə elm və mədəniy-

yətdəki uğurlar Sizin müdrik və yorulmaz rəhbərliyinizin əyani nəticələridir.

Doktor Cavad Heyətə sağlığında və onun həyatdan getdiyi günlərdə olan diqqətləriniz də əslində bütövlükdə elmə, mədəniyyətə münasibətinizin, Azərbaycan dövləti və xalqının daha da yekdil, daha da qüdrətli olması naminə gerçəkləşdiridiyiniz ardıcıl siyasətin başqa bir ifadəsi hesab edilməlidir.

Sizə bütün yaxşılıqlarınıza görə bir daha ən dərin təşəkkürlərimizi bildirir, Azərbaycan dövləti və xalqı naminə çoxcəhətli fəaliyyətlərinizdə müvəffəqiyyətlər diləyirik.

Doktor Cavad Heyətin ailəsi

Son illər səhhətində yaranan narahatlıqlar bu böyük insanın fəaliyyətinə nisbətən təsir etmişdi, amma bu yaşda belə soydaşlarımızla bağlı olan tədbirlərdən qalmamağa çalışırdı: hər zaman öz ziyalı mövqeyini ortaya qoyurdu və bu münasibətlər hər zaman vaxtında, məqamında olması, gərəkliliyi, barışdırıcılığı ilə seçilirdi. Həm də dostlarına, xüsusilə səhhəti ilə qayğılanan arxadaşlarına son mənzilinin Bakıda olması arzusunu dilə gətirirdi.

Böyük azərbaycanlının müstəqil Azərbaycanın başkəndində dəfn olunması onun halal haqqıdır. Cavad Heyətin yeri hər zaman görünəcək və o, hər bir azərbaycanlının ürəyində, oxucularının qəlbində yaşayacaq

Sabir Rüstəmxanlı

* * *

Başda İran Türkləri olmaq üzrə Azərbaycan və Türkiyə Türklərinin dil, tarix, ədəbiyyat mədəniyyət və mədəniyyətinin dünyada tanınmasında və yayılmasında böyük rol oynamışdır. Onun dil, ədəbiyyat tarix və mədəniyyət işlərinin Türk dünyası üçün bir institutdan daha çox xidməti olmuşdur. Heyətin əsərləri, Azərbaycan, İran, Türkiyə, Amerika kimi ölkələrdə də nümayiş olunmuşdur.

Ustad Cevat Heyətin əziz xatirəsi əbədi olaraq Türk dünyasında yaşayacaq.

Əli Kafkasiyalı

* * *

Türkçe bayrağını yıllarca dalgalandıran, Tahran merkezli yayınladığı VARLIK Dergisi ile nesillere mektep olan, dilimiz üzerine pek çok kıymetli araştırmaya imza

atan Dr. Cevat Heyet Azerbaycan'da tedavi gördüğü hastanede vefat etmiştir. Merhuma Cenabı Allah'tan rahmet kederli ailelerine sabır, tüm Türk Dünyasına başsağlığı dileriz.

Yakup Ömeroğlu

* * *

Azərbaycanda Cavad Heyəti məşhur həkim kimi tanıyan, onun tibbi xidmətindən istifadə edənlər də az deyil. Amma daha geniş təbəqə onu məhz maarifçilik xidmətinə görə, tariximizi, ədəbiyyatımızı mükəmməl bilən, "dil içində dil bəsləyən", dilimizin nəinki istifadəsinə, həm də nəzəri tədqiqinə yönəli böyük işlər görən vətənpərvər ziyalı kimi tanıyır. Bu mənada "ensiklopedik zəka sahiblərinin dövrü keçmişdir" fikri ilə razılaşmaq düzgün olmazdı. Çünki dar ixtisaslaşmanın labüdlüyü ilə yanaşı, bütövlük naminə müxtəlif sahələrdəki biliklərin bir araya gətirilməsi də vacibdir. Yoxsa insane təfərrüatlar içərisində itib-batar, dünyanın ümumi mənzərəsinin canlanmasında çətinlik yaranar.

Səlahəddin Xəlilov

* * *

Onun haqqında çox yazıldı. Məqalələr, xatirələr nəşr edildi. Cərrah Cavad Heyət mədəniyyət, ədəbiyyat və ictimai fikir tariximizdə də, filologiya sahəsində də araşdırmaları, qiymətli kitabları və bunların arasında «Varlıq» dərgisi də bəs edir.

Sadiq ürək cərrahı Sayın Cavad Heyət sanballı alimlərdən biridir. Cərrahlıq fəaliyyəti ona dünya şöhrəti qazandırıb. Cavad Heyet aorta dəliyinin daralması, ürək qapaqlarının anadan gəlmə və qazanılmış qüsuları fallo triada, teatrda və pentadası şəklində təzahür edən ano-

maliyaların aradan qaldırılması üçün hastalar üzərində çox saylı əməliyyatlar aparmış, o ölümə məhkumluğu labüd sayılan insanlara ikinci bir hayat baxş etmişdir. İşde onun böyüklüyü, onun cərrah möhtəşəmliyi budur. Onu ölkələrin məşhur alimləri tanıyır. Bu ölkələrin alimləri, cərrahları onu ürəkdən alqışlayırlar.

Mən də Türk vətəninin dəyanətli oğlu, ürək cərrahı, sadiq doktorunu, əziz dostumu, millətin çocuğunu vətən məhəbbəti, vətən sevgisi, vətən sayqısı ilə alqışlayıram.

Ehsan Doğramaçı

* * *

Doktor Cavad Heyət haqqında bu kiçik dost sözünü yazmağa başlarkən fikrimdə istər-istəməz düz 21 il bundan əvvəlin xatirələri canlandı, o vaxtların ki, mən Azərbaycan Yazıçılar İttifaqının cavan bir katibiydim və biz hamımız çox qaynar bir ədəbi həyat yaşa¬yır¬dıq.

Və təbii ki, hakim ideologiyanın Azərbaycanda «Cənub» sözünün özünü belə yasaq elədiyi bir zamanda, Cənubla bağlı təssübkeşlik, maraq, intizar, narahatlıq bizim içimizdəki, fikrimizdəki, qələmimizdəki həmin milliliyin çox ciddi bir tərkib hissəsi idi.

Belə bir vaxtda o dövr üçün böyük bir ruh yüksəkliyinə, qəribə – çox təmiz, şəffaf bir nikbinliyə, həyəcan dolu bir marağa səbəb olan və bizi daxilən isidən xəbər eşitdik: İranda Azərbaycan dilində «Varlıq» adlı bir ədəbi jurnal çıxmağa başlayıb.

Elçin

* * *

Azərbaycan ictimai fikir tarixində dr.Cavad Heyətin və onun "Varlıq" jurnalının xüsusi mövqeyi vardır.

"Varlıq" jurnalı ilk nömrəsindən bugünədək mövqeyini dəyişmədən böyük tarixi vəzifəni yerinə yetirməklə milli ictimai fikrə nur çiləd, onun hərəkətverici qüvvəyə çevrilməsinə güclü təkan verdi. Cənubi Azərbaycanda, eləcə də İranın ayrı-ayrı əyalətlərində yaşayan azərbaycanlıların milli-mənəvi özünüdərk və milli oyanışına ciddi təsir göstərən, sözün həqiqi mənasında böyük ictimai-siyasi və ədəbi məzmun kəsb edən "Varlıq" jurnalının bu gün tədqiqata cəlb olunması təqdirəlayiq hadisədir.

Son illər Cənubi Azərbaycan ədəbiyyatını araşdıran, dövri mətbuatını araşdıran, dövri mətbuatda bir sıra dəyərli məqalələr çap etdirən Pərvanə Məmmədlinin "Varlıq" jurnalını tədqiqat obyekti seçməsi təsadüfi deyildir.

"Varlıq" jurnalı uzun illərdir ki,, Azərbaycan şifahi və yazılı ədəbiyyatını tədqiq və təbliğ edir. Onun başlıca aparıcı ana xətti, istiqaməti: şifahi xalq ədəbiyyatının toplanması, nəşri, təbliği ilə yanaşı, klassik və müasir ədəbiyyatın ayrı-ayrı nümunələrinin, eləcə də ədəbi-tənqidi məqalələrin verilməsi olmuşdur ki, bunun ana dili, milli mədəniyyəti, elmi-ictimai fikri və tarixi qadağan olunmuş xalq üçün nə demək olduğu aydınlaşır.

Teymur Əhmədov

* * *

Cavad Heyət əməl adamı idi. “Varlıq” jurnalını təsis etmək onun əməlpərvərliyindən irəli gəlirdi. Həmid Nutqini, Məhəmmədəli Fərzanəni, Həsən Savalanı, Kərim Sönməzi, Xamneyi Mənzurini, Səməd Sərdarniyanı, Qulamhüseyn Beqdelini və bu sıradan olan kişiləri “Varlıq”ın ətrafına toplayaraq doktor Heyət İranda türk dilinin varlığını qoruyub saxlaya bildi. Bu onun öz xalqı qarşısında böyük xidməti idi. Ən nəhayət, professor Cavad

Heyət bir simvol idi, bir nümunə idi, öz sənətinə vurğunluğun nümunəsi, öz prinsiplərinə sədaqətin nümunəsi idi. Boyundan da uca şəxsiyyəti var idi, yaşının doxsanı haqlamasına baxmayaraq qamətini də şəxsiyyəti kimi düz saxlamağı bacardı. İşıqlı adam idi.Heyət İranda türk dilinin varlığını qoruyub saxlaya bildi.Zəmanəmizdə belələrinə az təsadüf edilir. Böyük irs qoydu, onun irsi milli mənəvi varlığı zənginləşdirir, yaddaşları təzələyir. Əminliklə deyə bilərəm ki, professor Cavad Heyətin mənəvi ömrü, onun dövrümüz üçün uzun hesab edilən cismani ömründən də çox-çox uzun olacaq, çünki diri bir həyat yaşadı öz varlığı ilə millətin diriliyinə xidmət etdi.

Cəmil Həsənli

* * *

İran Türklük bilimi çalışmalarının bânisi, İran Türklüğünün ak sakalı ve "Varlık" mücadelesine ömrünü adamış mümtaz bilim adamı Prof. Dr. Cevat HEYET'in 13 Ağustos 2014 Çarşamba günü Bakü'de Hakk'ın rahmetine yürüdüğünü derin bir üzüntü ile öğrenmiş bulunmaktayız. Çok kıymetli büyüğümüzü rahmet ve şükranla anıyor, kıymetli ailesine başsağlığı diliyoruz.

Marmara Üniversitesi Türkiyat Araştırmaları Enstitüsü adına

Prof. Dr. Gülşen SEYHAN ALIŞIK

PROF. DR. CEVAT HEYƏTİN YAZDIQLARINDAN

(Əsərlərindən və müsahibələrindən örnəklər)

"Bu əsəri illər boyunca milli giley altında yaşayan və əksəriyyət olduğu halda əqliyyət (kiçik-red) haqqlarından da məhrum qalan xalqıma və xalqımın böyük şairi Səhəndin əziz xatirəsinə ürək dolusu kədər və sevgi ilə təqdim edirəm."

"Qorxuram gənc nəsil bu böyük iddianın, dərin mənasını kifayət qədər anlamasın. Düşmənlərimiz, uzun zamanlar bizim şəxsiyyətimizi müəyyən edən ən kiçik dəlili belə silmək, ortadan qaldırmaq və bu da mümkün olmayınca təbir və təfsir yoluyla ən zəif rəvayətə söykən/dözərək ən açıq dəlilləri etibarsız edib unutdurmaq istədiklər. Bu işdə bilərək və xəritə üzərində xəyanət edənlər olduğu kimi hakim ətrafın ümumi atmosferinə uyğun gələrək də o yolu gedənlər çox oldu.

Bu düşmənlərin və düşmənlərin dostlarının təbiidir ki ən baş hədəfləri dilimik idi. Əlbəttə ki dili inkar edə bilsələr, ədəbiyyatımız və onun tarixi də özbaşına ortadan qalxar.

Dediyimiz kimi ən baş hədəfləri dilimiz idi. Ona bir neçə istiqamətdən hücuma keçdilər. Ən başda Azərbaycanlı ziyalıların Fars dili və mədəniyyətinə bəslədikləri səmimi və dərin maraq/əlaqəni istismar etdilər. Pis istiqamətdə istifadə etdilər. Bu maraq/əlaqəni istismar edərək

öz ana dillərinə qarşı soyuqluq meydana gətirmək istədilər.

Ana dildə təhsil və təhsil mümkün olmayınca və dil yalnız gündəlik, səthi münasibətlərə hasredilince, sözlər unudular, xəzinəsi tükənər, dil yoxsullaşar. Bu vəziyyət sonradan ziyalıların başına kakınç olar. Hiyləgərcə edildiyi üçün bu çirkin və alçaq təbliğə inanılar.

...

Təhqir hissi ilə özünü və dilini inkar etməyə başlar. Uşaqlarına köhnədən bəri qoyduqları gözəl adlar yerinə Azərbaycan Türkünün ağızında doğru tələffüz edilə bilməyən Fars və Avropa adları qoyarlar. Uşaqları ilə ana dillərində danışmazlar. Sonunda 'iki məscid arasında minə bilməz' vəziyyətinə düşərlər. Yəni şəxsiyyətsiz, şəxsiyyətsiz, 'haymatlos' olarlar.

Bu cinayəti doğru göstərmək üçün İranlılıqla Farslığı sinonim göstərmək xəyanətinə qədər gedildi. Halbuki, İranlılıq bu məmləkətdə yaşayan bütün xalqların şanlı və ortaq sifətidir. Azərbaycan Türkü özünə xas dili və mədəniyyəti ilə və daha başqa imtiyazları ilə, İranlılıqda Farslardan bir milim belə geridə deyil. Biz bunu sözlə, sözü güzafla yox, hərəkəti olaraq tərtəmiz qanımız, saysız qəhrəman və şəhidlərimiz, uzaqlara getməyə ehtiyac yoxdur, Settar Xanlarımız və Hiyabanilerimiz ilə minlərlə dəfə isbat etmişik.

Nə isə bu şərtlərdə həyasızca, ədəbsizcə və utanmadan İranlılığı Farslığın təkəlində tutmaq, başqa xalqları Farslılaşdırmaq, assimilyasiya etmək, inqilabımıza qədər davam etdi. Burada bu siyasətin siyasi, ictimai, iqtisadi və jeopolitik yanlarını bir tərəfə buraxaraq məsələni dil, ədəbiyyat, mədəniyyət cəhətdən araşdırmağa çalışacağıq.

İran xalqlarının bu günə qədər doğru dürüst bir tarixi daha yazılmadı. Tarix deyə beyinlərimizə soxuşdurulan

məlumatlar Aranı şovinizminin xidmətində olan təbliğlərdən kənara keçməməkdədir. Bu 3 tarixdə xalq kütlələri yox, padşahlar nümayişi, keçidi vardır. Hətta bu rəsmi portretlər qalereyasında Fars olmayan çöhrələr həddindən çox pis təsvir edilmişdir. Tahrifatlar bununla da məhdud qalmaz. Fars olmayan xalqlar "düşmən" və ya "vəhşi" adlandırılar. Köçəri xalq kiçik hesab edilər. Onların mənfilikləri böyüdülər, şişirdilər, yaxşı yanları isə görməməzlikdən gəlinər.

Böyük elm adamları, şairlər, mürşidlər, bütün ulu simalar haqqında fərqli şərhlər edərlər. Bir şair şeirlərinin onlarla yerində açıq olaraq "Tebrizliyim" desə və Farscanın yanında Türkcə gazelleri mövcud olsa yenə də bəhanə tapıb "Saib Tebrizi" deyil "Saib İsfahani" deyə israr edərlər. Musiqidə "Bayatı Türk"ü "Bayatı İsfahan"a çevirərlər. Genceli Nizamını yenə sudan bəhanələr Qumlu göstərməyə çalışarlar.

Onlar bu yolda hər şeyi mübah sayarlar."

"Azərbaycan Ədəbiyyatı Tarixinə Bir Baxış" adlı əsərindən

"...1828-ci ildəki Azərbaycanın tarixi faciəsindən sonra bu xalqı ayrı-ayrı soy və millətindən saymaq ağıl və məntiqdən uzaq deyilmi? İranda Əhməd Kəsrəvi və onu izləyənlər belə iddia etmişlər ki, bütün tarix uzunu Azərbaycanın sərhədi Araz çayı olmuş, Arazın o tayı Aran və Albaniya adlanmış, hətta xalqının soyu cənubdan başqa (yafəsi-türk) olmuş, guya İran Azərbaycanın əhalisi əslində fars-tat olmuş və ancaq monqollar İrana gəlib Eixanilər hökumətini qurandan sonra apardıqları türkçülük siyasəti nəticəsində xaiqın dilini türkləşdirmişdir. Bu uydurma nəzəriyyə Pəhləvilər zamanında təsadüfi olaraq

irəli sürülməmişdir. Pəhləvi şahları və onların ətrafında toplaşan ifrat millətçi paniranistlər iranlılığı farslıqla eyni qəbul elədikləri üçün İranda fars dilini yaymaqla bərabər, başqa dilləri, xüsusilə türk dilini məhv etməyi özlərinə siyasi-mədəni proqram seçmişlər... 57 ilə bu siyasəti İranda həyata keçirə bildiləsələrdə, o taya, yəni əski şurəvi Azərbaycana əlləri çatmadığı üçün oranı Azərbaycan yox, başqa ölkə (Aran) saymağı məsləhət görmüşlər. Fars-laşdırma siyasətini İranda həyata keçirə bildisələr də, o tayda yaşayan qardaşlarımız öz dillərini, mədəniyyətlərini rəsmi şəkildə işiədib inkişaf etdirmişlər. Bu məsələ pəhləvi rejimini gözə batan tikan kimi narahat edirdi".

"Varlıq" jurnalından

Azərbaycan türkcəsi türk dillərinin içəriçində ən zənginlərindən biridir və Türkiyə türkcəsi ilə qoşa gedir. Bəzi sahələrdə daha da zəngindir. Həm də aşağı-yuxarı, ortaq türkcəyə daha yaxındır. Yalnız inkişaf baxımından Türkiyə türkcəsindən sonra gəlir. Çünki Türkiyə türkcəsi 600 ildir rəsmidir. 1299-cu ildən bəri, yəni Osman Qazi zamanından. Bizim dilimiz daha gəncdir, digər tərəfdən İranda da həmişə qadağan olunub, yazı dilimiz olmayıb. Burada da rus istilasında, rus dilinin istilasında qalıbdır. Onun üçün bolluca rus sözləri var. Əlbəttə, Türkiyə türkcəsi də çoxlu ərəb və fars sözləri ilə dolmuşdur. XX əsrdə bunu təmizləməyə başladılar. Bəzən də ifrata vardılar. Biz ortaq türkcə yarada bilmərik, bəlkə, ortaq türkcəyə doğru getməliyik ki, bir-birimizi başa düşək. Bizim Azərbaycan ədəbi türkcəsi ilə Türkiyə türkcəsi bir-birini başa düşür.

* * *

– Şəhriyar mənim çox yaxın dostum idi, onu Təbrizdən Tehrana gətirmişəm, gəlib altı ay bizdə ailəsi ilə qalıb. Orada biz türk və fars dillərində ikidilli ədəbi məhvil yaratmışıq. O bizim müasir türk dünyasının ən böyük şairlərindəndir.

Bir gün şahın xanımı kraliça Fərəh köməkçisini onun yanına göndərmişdi. Kraliça köməkçisindən Şəhriyara çoxlu salam və belə bir sifariş göndərmişdi: «Mən razı deyiləm ki, Şəhriyar ailəsi ilə doktor Cavad Heyətin evində daimi qalsın və onlara zəhmət versin. Mən istəyirəm Ustad icazə versin, ona Tehranda bir ev alım və ailəsi ilə o evə köçsün». Ustad Şəhriyarsa bunun əvəzində salamını kraliçaya çatdırmağı xahiş etdi: «Kraliçaya deyin ki, çox sağ olsun. Mənim evə ehtiyacım yoxdur. Kraliça öz lütfünü göstərmək istəyirsə, göstəriş versin, mənim «Divan»ım türkcə də basılsın. O kitabın satışından özümə ev də ala bilərəm». Mən buna şahid oldum.

* * *

Şəhriyar əvvəllər farsca yazırdı. Onun türkcə şeir yazmasına anası səbəb oldu. Bir gün Şəhriyar farsca yazdığı bir şeirini evdə anasına oxuyur, anası ona deyir: sənin şeirini mən anlamıram niyə türki yazmırsan ki, məndə başa düşüm.

Şəhriyar öz-özünə söz verir ki, daha bundan sonra türkcə yazacağam. Elə həmin gün ilk türkcə şeirini – «Heydərbabaya salam»ı yazmağa başlayır.

Mən Şəhriyarı çox sevərdim. Onunla 60 il dost olmuşam.

* * *

Azərbaycan xalq musiqisi, muğamları ruhumun qidasıdır. Mənim üçün musiqi ana laylasından başlayır. Anam Məsumə Sultan məni çox sevrədi. Mən də onu. Adı kimi, özü də məsum idi. İstər musiqi, istər ədəbiyyat layla ilə başlayır. Musiqi və ədəbiyyat qulaq yolu ilə eşidilib zehndə yazılar. Daha onun yerini heç nə tuta bilməz, nə də poza bilməz. İnsanın musiqi ilə, şer ilə nə qədər çox xatirəsi varsa, bir o qədər ona bağlanar; bəzən ağladar, bəzən onu fərəhləndirər. Musiqi, ədəbiyyat və xatirə. Üçü də əl-ələ verib insanın fikir və düşüncələrini alt-üst edər.

* * *

Peşəm baxımından hər kimsənin nail ola bilməyəcəyinə yetişdim. İranda ilk açıq ürək cərrahi əməliyyatı apardım. Keçən il İranda ürək cərrahlığına aid beynəlxalq konqres keçirilərkən mən sədrlik edirdim. Məni hər yerdə – uzaq ölkələrdə belə «ürək cərrahiyyəsinin pioneri» adlandırırlar. Bu nailiyyətlərim həm səyim, bacarığım, həm də İran səhiyyəsinin yüksək səviyyəsi səbəbi ilə olmuşdu. Ədəbiyyatımızı və dilimizlə də bağlı çəkdiyim zəhmətlərin səmərəsini görürəm. Həm də razı deyiləm. Uşaqlarımız gərək birinci sinifdən ana dilimizdə təhsilə başlasın. Məktəblərimizdə fars dili ilə yanaşı, Azərbaycan türkcəsi də öyrənsinlər. Universitetdə artıq bu iş başlanıb.

* * *

Qarabağın azad olduğu günü görməsəm, həsrətlə getmiş olaram. Heydər Əliyevlə görüşümüz zamanı soruşmuşdum ondan: O günü görəcəyikmi? Dedi görəcəyik, görəcəyik. Amma onun o günü görmədən getməsi mənim üçün çox ağırdı. Qarabağ göz bəbəyimizdi, göz giləmdi mənim. Qorxuram mən də görmədən gedəm. Qarabağ

musiqi yurdumuzdur. Üzeyir bəyi yetirən torpaqdı. Təbrizdə də qarabağlılar məhəlləsi var. Bu məhəllənin sakinləri Azərbaycan istila olunanda Qarabağdan qaçıb burda yerləşmişlər. Həyatda məni ən çox sevindirən hadisələrdən biri Sovet İttifaqının dağılması və Azərbaycanın öz müstəqilliyini qazanmasıdır. Bunlar mənim üçün o qədər mühüm oldu ki, həyatımın özünü belə iki dövrə ayırıram: bundan əvvəlki ömrüm və sonrakı – Azərbaycanın müstəqillik qazandığı dövrdə keçən həyatım. Bu hadisə o qədər mühümdür ki, hətta Qarboçovun azərbaycanlılara xəyanətini də mənə unutdurur. Axı sovetin dağılması onun əli ilə oldu. İstər sezar (çar), istər Qızıl rus imperiyası olsun. Azərbaycanı, Orta Asiyanı müstəmləkəyə çevirməsi bizim üçün göz dağı idi. Sizlərlə görüş bir xəyal idi. İlk dəfə 1971-ci ildə Bakıda oldum. Amma həsrətlə gəldim, həsrətlə getdim. İndi isə çox şey dəyişib. Xüsusən milli oyanış güclənib.

* * *

Çox şeylərdən vaz keçmişəm. Şah zamanı nazir ola bilərdim. Lakin saxta şəxsiyyət kimi yaşamaq lazım idi. İstəməmişəm. Hərb məktəbini bitirmişəm. Lakin o işin öz xüsusiyyətləri var: kor-koranə itaətdən qaçmışam. Azad olmaq istəmişəm. Könlüm istəyən kimi olmaq istəmişəm. Ona görə həkim olmuşam. Mənim ürəyim yanır mövqe üçün saxta yaşamağa məcbur olanlara. Həmişə həqiqəti arzulamışam. Onu üstün tutmuşam. Həmişə faktı qəbul etmiş, onunla hesablaşmışam

* * *

Bəxtiyar şeirlərini daha çox heca vəzni ilə yazmış, ancaq onun əruz vəzni ilə yazdığı şeirləri də az deyil. Bəxtiyara görə. Əsrimizin şeirində həm klassik ədəbiyyat

ənənələrini davam etdirmək, həm də günümüzün ehtiyaclarına cavab verə bilmək lazımdır. Klassik şairlərimizdən Füzuli və Sabirin təsiri onun əsərlərində məhsusdur.

Vahabzadə düşünəndə də şeirlə düşünən, onunla nəfəs alan bir şairdir. Şeirlə məqalə, tənqid və tədqiq yazar kimidir. Başqalarının şeirinə girməmiş mövzular onun şeirlərinə daxil olmuşdur. O, şeiri insanın qəlbində yanan bir atəşə – oda oxşadır və deyir ki, əsrin nəbzi şeirin ahəngində atmalıdır. Belə bir şeir vətən və millət sevgisi ilə, milli mədəniyyət eşqi ilə dolub-daşmalıdır. Hamı vətənsiz yaşar, amma şair vətənsiz və millətsiz yaşaya bilməz. Şairin ən böyük vəzifəsi vətəni sevməkdir. Şair, haqq və həqiqət yolunda savaşan, cibiboş, qəlbidolu insandır, şair vətən və millətinin məcnunudur.

* * *

Uşaqlıqda mən həm idmançı, həm də yaxşı dərs oxuyan olmuşam. Dərs oxumağa məni atam təşviq edib. Yəni atamı böyük eşqlə sevdiyimdən dərslərimi daha yaxşı oxumağa cəhd göstərmişəm. Çünki bilirdim ki, atam alim olduğu üçün dərs oxuyan uşaqları sevir. Eyni zamanda akrobatika ilə də məşğul idim. Orta məktəbdə oxuyarkən iki sinfi bir ildə bitirmişəm. Ona görə 21 yaşında doktor olmuşam. Sonralar İstanbul tibb fakültəsində oxuyarkən tarix və ədəbiyyatla maraqlandım. İranın ədəbiyyatı, tarixi, islamın tarixi, həmçinin İstambulda türk ədəbiyyatı, türk tarixi ilə məşğul oldum. Bilavasitə cərrahlıqla yanaşı türkologiya və fəlsəfə ilə bağlı elmi əsərlərin müəllifiyəm.

* * *

Süleyman Dəmirələ yazdığım məktub Qarabağın işğalı ilə əlaqədar idi. Mən Tehranın Türkiyə səfiri ilə görüşdüm

və narahatçılığımı çox sərt şəkildə bildirdim. «Ankaraya niyə yazmırsınız, xristianlar hamısı ermənilər müdafiə edir, siz niyə sükut edirsiniz?» - dedim. O da cavabında bildirdi ki, o qədər yazmışam, mənə deyirlər sən Tehran səfirliyisən, yoxsa Bakı səfirliyi? Yaxşısı budur siz, Doktor bəy, özünüz bir məktub yazın Süleyman Dəmirələ. Məktubu bütün duyğularımın hakim olduğu göz yaşlarımla yazdım. Səfir bunu oxuyub. «Bu məktub dəmiri əridər» - dedi. Məktubu Süleyman Dəmirələ göndərdik. Səfiri Ankaraya dəvət etdilər və orada bildirdilər ki, Süleyman bəy mesaj göndərib ki, Doktor bəy çox narahat olmasın, biz əlimizdən gələni etmişik, edirik və edəcəyik. Amma bütün dünya qarşımızdadır. arzularıma nail olmuşam, amma ictimai arzularıma nail ola bilməmişəm. Mən Şərqi Avropadan aşağı deyil, çox yüksəklərdə, müsəlmanları isə bərabər və həqiqətən qardaş görmək istərdim. Amma gerçək budur ki, müsəlmanlar bərabər deyillər və hətta biri-birinin əleyhinə iş birliyi aparırlar. Müsəlmanlar geri qalıblar və bunun çarəsinə baxmaq istəmirlər. Mən bir ziyalı kimi əlimdən gələn qədər müsəlmanları yaxınlaşdırmağa, oyatmağa çalışmışam.Düzdür, mən din xadimi deyiləm, amma həmişə istəmişəm ki, dinimiz xürafatdan təmizlənsin. Bəzən deyirlər ki, müsəlmanlıq gerilikdir, bu doğru deyil. Ziyalılarımızın çətin vəzifəsi islamın əsaslarını xalqımıza tanıtmaqdır. İslam haqq dini olduğu üçün bizim milli ərkanımızdandır.

* * *

Mən əziz dostum Heydər Əliyevlə tez-tez görüşərdim və əksər hallarda söhbətlərimizdə İlham Əliyev də iştirak edərdi. Amma bir dəfə də olsun o söhbətə qarışmaz, sakitcə qulaq asardı. Doğrusu, İlham Əliyev ilk dəfə Prezident seçildikdə məni bir sual narahat edirdi: Gözəl,

qüsursuz nitqi il hər kəsi heyran qoyan Heydər Əliyevin natiqlik bacarığından, görəsən, oğluna pay düşübmü? Çox şükürlər olsun ki, ən qısa zamanda mən bu sualıma müsbət cavabımı aldım. Belə ki, humanitar təşkilatların iştirak etdiyi bir görüşdə Prezident İlham Əliyevin yarım saatlıq nitqi məni, sözün əsl mənasında, heyrətə gətirdi. Eynən rəhmətlik atası kimi danışırdı. Şəxsi görüşlərimizin birində mən ona sual etdim, «axı bu necə olur ki, siz bu günə qədər mükəmməl nitqə və təfəkkürə sahib ikən mənim atanızla görüşlərimdə heç vaxt söhbətlərimizə müdaxilə etmirdiniz?». İlham müəllim cavab verdi ki, biz böyüklərin yanında danışmırıq, qulaq asarıq. Bu məqam bir gerçəyi göstərir: Əziz dostumun ailəsində milli adət-ənənələr hakim olub. Demək ki, oğul nə qədər gözəl natiq, mütəfəkkir olsa da, öz atasının yanında sadə bir dinləyicidir.

Kitabın içindəkilər

Cavad Heyət haqqında ümumi bilgi.....

Məqalələr.....

Rafael Hüseynov. Cavad Heyətin öpdüyü əllər.....

Rza Bərahəni. Dr.Cavad Heyət – məhdud fürsətlər dahisi.....

Anar. Cavad Heyət həqiqətən unikal şəxsiyyət idi....

Zümrüd Quluzadə. İslam mədəni bölgəsinin təbib və mütəfəkkiri .....

Əhməd Ercilasun. Cevat Heyet de Türk milletinin kahramanlarından biriydi .....

Aladdin Korkmaz. Türk Dünyası'nın Bir 'Aksakal'ı Daha Göçtü.....

Seyfəddin Altaylı. Dostum Dr. Cavad Heyətin əziz xatirəsinə.....

Rza Heyət. Biçak ve kalem ustadı Cevat Heyet.....

Pərvanə Məmmədli. Cavad Heyət "möcüzəsi"ı.....

Cavad Heyət haqqında ürək sözləri.....

Əsərlərindən və müsahibələrindən sitatlar .....

Azadlıq quşu "Varlıq"

Məhəmmədhüseyn Şəhriyar

"Hərçənd qurtulmaq hələ yox darlığımızdan,
Amma bir azadlıq doğulub varlığımızdan.
"Varlıq" nə bizim təkcə azadlıq quşumuzdur,
Bir müjdə də vermiş bizə həmkarlığımızdan.
Bəh-bəh, nə şirin dilli, bu cənnət quşu tuti,
Qəndin alıb ilham ilə dindarlığımızdan.
Dil açmada karlıq da gedər, korluğumuz da,
Çün lallığımız doğmuş idi kartığımızdan.
Düşmən bizi əlbir görə, təslim olu naçar,
Təslim olurug düşmənə naçarlığımızdan.
Hər inqilabın vur-yıxı son bənnalıq istər,
Dəstur gərək almaq daha memarlığımızdan.
Huşyar olasız, düşməni məğlub edəcəksiz,
Düşmənlərimiz qorxuru huşyarlığımızdan.
Birlik yaradın, söz bir ola biz kişilərdə,
Yoxluqlarımız da bitəcək "Varlıq"mızdan."